www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29-30 noyabr 2014-cü il Şənbə № 292 (6001) Qiymətı 40 qəpik

**Xəbər**

## Bakıda 16 yaşlı qız rəfiqəsini öldürdü

yazısı səh.14-də

**Gündəm**

### ABŞ-ın Azərbaycana səfir təyinatının ləngiməsinin sirri



Respublikaçılar prezident Obamadan Bakıya daha təcrübəli diplomat, "demokratiya desantı" göndərməsini tələb edir, əks halda səfir təyinatı uzanacaq

yazısı səh.4-də

### "Yeni Müsavat" ın 6000-ci sayı... qonaqlar, təbriklər və yola davam...

yazısı səh.3-də

### Müdhiş antiheroin əməliyyatından 5 ay ötdü

2 ton 790 kiloqramlıq narkotik müəmması isə davam edir...

yazısı səh.12-də

### Yeni ildə böyük əfv gözlənilir

Məhbus ailələri təzə ilə böyük ümidlərlə baxırlar

yazısı səh.6-da

### Sərkisyanın impiçmenti haqda layihə parlamentdə

yazısı səh.11-də

### Bakıda 100-dən artıq mənzili qarət edən dəstə tutuldu

yazısı səh.14-də

### "Kapital bank" sədri qanunsuzluqda ittiham olundu

yazısı səh.13-də

### Keçmiş polis rəisi dələduzluğa görə həbs edildi

yazısı səh.2-də

### Ukrayna mətbuatı Azərbaycanın müharibə hazırlığından yazdı

yazısı səh.11-də

### Gələn il dəhşətli zəlzələlər olacaq

yazısı səh.2-də

### Türk teatrı Bakıda qalmaqal yaratdı

yazısı səh.13-də

## Hakimiyyətlə "köhnə qitə" arasında yeni gərginlik

# PARLAMENTDƏ AVROPAYA SAVAŞ AÇILDI - SKANDAL

Avropa Parlamentinin prezidenti Martin Şultsun son fikirləri Milli Məclisdə qəzəb doğurdu, rəhbərlik və deputatlar sərt danışdılar; **Oqtay Əsədov:** "O təşkilatlara bel bağlayan belsiz qalar"; **Bahar Muradova:** "Gözü çıxan qardaşların vəziyyəti bizə dərs olmalıdır"



yazısı səh.5-də

## "Ded Xasan"ın qətl işi; "Rövşən Lənkəranski" yenə hədəfdə

Aslan Usoyanın öldürülməsini niyə azərbaycanlı avtoritetin ayağına yazırlar?; Rusiyada tutulan qanuni oğru "Rüfət Gəncinski" şok etiraflar edib - təfərrüatlar

yazısı səh.12-də



*Ərəstun Oruclu:*

**"İndi mən elə bir şey deyəcəyəm ki, bu, çoxlarının xoşuna gəlməyəcək..."**

yazısı səh. 8 və 9-da



*Sərdar Cəlaloğlu:*

**"Əli Kərimli siyasətin primadonnasıdır?"**

yazısı səh.3-də



*Səxavət Soltanlı:*

**"Kimsə xəyanətkar sözünü özünə götürürsə, bu, İsa Qəmbərin problemi deyil"**

yazısı səh.6-da

**29-30 noyabr 2014**



**Müsavat Partiyasının başqanı Arif Hacılı vicdan məhbusu İntiqam Əliyevi doğum günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli İntiqam bəy!**

**Sizi doğum gününüz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, demokratik inkişaf uğrunda apardığınız mübarizədə uğurlar və tezliklə azadlığa qovuşmanızı arzulayıram.**

**Sizin Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra 1991-ci ildə ölkədə ilk hüquq firmalarından olan "Advokat Servis" hüquq şirkətini təsis edilməsində, 1999-cu ildə Hüquq Maarifçiliyi Cəmiyyətinin yaradılmasında xidmətləriniz ölkədə hüquq maarifçiliyi işinin yayılmasında mühüm rol oynayıb.**

**20 ildən artıq bir dövrdə vəkillik fəaliyyəti, əsasən insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşdığınızın nəticəsidir ki, Avropa İnsan Haqları Məhkəməsinə Siz tərəfdən ünvanlanan 300-dən artıq şikayətin xeyli hissəsi uğurla nəticələnib.**

**Pedaqoq kimi Xəzər, Qərb, Azərbaycan, Odlar Yurdu universitetlərində mülki, mülki-prosessual, qeyri-kommersiya hüququ, insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri fənlərini tədris etməyinizin nəticəsində Siz bir sıra beynəlxalq qurumların (ATƏT, Avropa Şurası, GTZ və s.) qanunvericilik və insan hüquqları məsələləri üzrə ekspert dərəcəsinə yüksəlmisiniz. Müəllifi olduğunuz 20-dən çox kitabda insan haqlarının qorunması ilə yanaşı, ölkədə keçirilən seçkilərdə yol verilən saxtakarlıqlara və qanun pozuntularına qarşı mübarizə üsulları da geniş yer tutur. Avropa İnsan Haqları Məhkəməsinə təqdim etdiyiniz şikayətlərin müsbət həllinin son mərhələsində Sizin şərlənərək həbs olunmağınız başladığınız bu işin yüksək professionallıqla yerinə yetirildiyini təsdiqləyir.**

**Hörmətli İntiqam bəy!**

**Sizi bir daha doğum gününüz münasibətilə ürəkdən təbrik edir, apardığımız müqəddəs mübarizəni sona qədər birlikdə davam etdirəcəyimizə əminliyimi bildirirəm".**

# Orxan Əyyubzadənin apelyasiya şikayətinə baxıldı

## Əvəz Zeynallının səhhəti ağır olaraq qalır; Pərviz Həşimlinin yaxınları ilə görüşünə manelər yaradılır



Orxan Əyyubzadə

**Havaların daha da soyuması həbsxanalarda istilik problemini daha da artırıb. Məhbusların səhhətinin günü-gündən pisləşməsi ilə bağlı həyəcanlı xəbərlər gəlməkdədir. Müsavat başqanının müavini Yadigar Sadıqovun yaxın günlərdə Apellyasiya Məhkəməsi olacaq. Bu barədə onun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah məlumat verdi: "Yadigar bəyin cəzasının qalan hissəsinin dəyişdirilməsi ilə bağlı şikayət vermişdik. Lakin məhkəmə rədd eləmişdi. Bu işdən apellyasiya şikayəti vermişik. Yaxın günlərdə baxılacağı gözlənilir. Onun ürəyində problemlər var. Dərmanlarını vaxtında çatdırırıq. Ailəsi müntəzəm görüşür. Siyasi prosesləri mətbuatdan diqqətlə izləyir".**

"Leyla Yunusun vəziyyəti günbəgün ağırlaşır. Artıq vəsiyyətini belə edən hüquq müdafiəçisi ölümlə çarpışır". Bunu deyən Vəkil Elçin Qəmbərov təcridxanaya sorğu göndərdiklərini bildirdi: "Həkim müayinəsindən keçməsini və analizlərin nəticələrini istəyirik. Görünən budur ki, sorğumuza cavabı uzadırlar. Mətbuatda yayılan xəbərlər tam həqiqətdir. Leyla Yunusu itirmək qorxusu günbəgün artır".

REAL Hərəkatının sədri İlqar Məmmədov hələ də tibb məntəqəsindədir. Səhhətində yaranan problemlər davam edir. **REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova** onunla telefon vasitəsilə danışdığını bildirdi: "Səhhəti əvvəlki günlərə nisbətən bir az yaxşı idi. Buna baxmayaraq hələ tibb məntəqəsindədir. Müalicəsi davam edir".

**Gənc siyasi məhbus Orxan Əyyubzadənin** isə apelyasiya şikayətinə baxılıb. Proses dekabrın 3-nə təxirə salınıb. Bu barədə musavat.com-a gənc fəalın anası Rəhimə Məmmədova məlumat verib: "Dekabrın 3-ü növbəti məhkəmə olacaq. Noyabrın 28-də onunla təcridxanada görüşdüm. Hər kəsə salam söylədi. Əhval-ruhiyyəsi yerində idi".

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının** sağlamlığında yaranan problem davam etməkdədir. **Onun həyat yoldaşı Məlahət Zeynalının** bildirdiyinə görə, baş redaktorun müalicəsi yalnız xaricdə mümkündür: "Mətbuata açıqlama verdikdən sonra Əvəzə diqqət ayırıblar. Amma bir mənası yoxdur. Çünki onun müalicəsi xaricdə mümkündür. Əks halda onun səhhəti daha da pisləşəcək".

**Pərviz Həşimlinin vəkili Bəhruz Bayramov noyabrın 27-də onunla görüşdüyünü söylədi:** "Çox güman ki, dekabrda apelyasiya şikayətinə baxılacaq. Çünki artıq Ali Məhkəmə qərar qəbul edib. Pərviz bəyin psixoloji problemləri var. Saxlanma şəraitindən şikayəti yoxdur. Sadəcə, görüşlərində müəyyən problemlər olur. Dekabrda veriləcək əfvə heç bir ümid etmir".

❑ **Cavanşir ABBASLI**



# İlham Əliyev Avropa Komissiyasının vitse-prezidentini qəbul edib

**Prezident İlham Əliyev dünən Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şevçoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Gunxeber.com-un AzərTAc-a istinadən verdiyi xəbərə görə, Maroş Şevçoviç Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq, bu əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu deyib. Ölkəmizlə enerji sahəsində əməkdaşlığın önəmini qeyd edən Maroş Şevçoviç "Cənub" qaz dəhlizi layihəsi ilə bağlı qəbul edilən qərarın strateji əhəmiyyət daşıdığını da söyləyib.**

Maroş Şevçoviçi Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti vəzifəsinə təyin olunması münasibətilə təbrik edən dövlət başçısı qısa müddət sonra onun Azərbaycana səfər etməsini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirib. Enerji sektorunda əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ölkəmizlə Avropa təsisatları arasında əlaqələrin fəal və dinamik şəkildə davam etməsindən məmnunluğunu bildirib.

Avropa Komissiyasının və Avropa İttifaqı Şurası prezidentlərinin Azərbaycana səfərlərinə toxunan dövlət başçısı əməkdaşlığımızın genişləndirilməsində yüksək səviyyəli səfərlərin önəmini qeyd edib. Azərbaycan ilə Avropa İttifaqı arasında artıq çərçivə Sazişinin və enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun mövcud olduğunu deyən prezident İlham Əliyev "Cənub" qaz dəhlizi ilə bağlı çoxlu işlər görüldüyünü vurğulayıb.

Bu layihəni əməkdaşlığın yeni formatı kimi dəyərləndirən prezident İlham Əliyev onun vaxtında icra edilməsi üçün səmərəli əlaqələndirmənin olmasının vacibliyini də qeyd edib.



# Keçmiş polis rəisi dələduzluq ittihamı ilə həbs olundu

**Daxili İşlər Nazirliyi (DİN) Oğuz rayon Polis Şöbəsinin keçmiş rəisi İmaməddin Abbasovun həbsi barədə məlumatları təsdiqləyib. DİN Mətbuat Xidmətinin rəisi Sadiq Gözəlov APA-ya bildirib ki, paytaxt sakini olan bir vətəndaş nazirliyə müraciət edərək İmaməddin Abbasovun onun külli miqdarda pulunu mənimsəməsi barədə məlumat verib:**

"Ramil Usubovun göstərişi ilə həmin müraciət üzrə xidməti təhqiqat aparılıb və müəyyən olunub ki, İmaməddin Abbasov daxili işlər orqanlarında xidmət etdiyi müddətdə etibardan sui-istifadə etmə və aldatma yolu ilə müxtəlif vaxtlarda ayrı-ayrı vətəndaşların pullarını mənimsəyib, onlara külli miqdarda ziyan vurub. Əməlində dələduzluq cinayətinin əlamətlərinin olması, "Daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksi"nin tələblərini pozub polis əməkdaşı adına ləkə gətirən hərəkətlər etməsi nəzərə alınaraq, İmaməddin Abbasov Daxili İşlər Orqanlarında xidmətdən xaric edilib".

S.Gözəlov həmçinin qeyd edib ki, İ.Abbasovun əməlinə hüquqi qiymət verilməsi üçün xidməti yoxlama materialları qanunvericiliyə uyğun olaraq Baş Prokurorluğa göndərilib.

Həmin materiallar üzrə Baş Prokurorluqda aparılmış prosessual araşdırmaların nəticələrinə görə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb və məhkəmə tərəfindən İ.Abbasov barəsində həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, İ.Abbasov əvvəllər Oğuz rayonunun polis rəisi olub.



# Dekabrda soyuq olacaq

**Dekabrda havanın orta aylıq temperaturu iqlim normasına yaxın olsa da, bəzi dövrlərdə normadan aşağı enəcəyi, havanın soyuq keçəcəyi gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi ərazilərdə isə iqlim normasından bir qədər çox olacağı ehtimal olunur.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına görə, Bakıda və Abşeron yarımadasında orta aylıq temperatur 4-7 dərəcə isti (gecələr 1-5 dərəcə isti, ayrı-ayrı günlərdə 0-4 dərəcə şaxta, gündüzlər 5-10 dərəcə isti, bəzi günlərdə 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti) olacaq. Bu da iqlim normasından bir qədər aşağıdır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 25-34 mm), bəzi yerlərdə bir qədər çox olacaq (contact.az)

# Gələn il dəhşətli zəlzələlər olacaq



**Türkiyədə alimlər dəhşətli zəlzələ proqnozları ilə gündəmə gəliblər. ANS PRESS-in məlumatına görə, İstanbul Texniki Universitetinin professoru, tanınmış alim, geofizik Ahmet Ercan bildirib ki, qarşıdan Türkiyədə və qonşu ölkələrdə çox güclü yeraltı təkanlar ola bilər. Alim bildirib ki, bu il ölkə ərazisində 229 yeraltı təkan qeydə alınıb. Həmin təkanların gücü 4 bal arasında dəyişib.**

Əsasən Muğla, Marmaris, Bodrum, Fethiye ve Rodos ərazilərindəki zəlzələ ocaqlarında aktivlik müşahidə olunur. Egle bölgəsindən Yunanıstan sərhəddinə qədər olan ərazilərdə də yeraltı təkanların aktivləşməsi müşahidə olunur. Bundan başqa, yeraltı təkanların Ankara üçün də təhlükə yaratdığı vurğulayıb.

Bu səbəbdən də, alim lazımi orqanlara məlumat verib ki, ölkə ərazisindəki tikililərin möhkəmliyi yenidən yoxlanılmalıdır. Türkiyə aktiv zəlzələ zolağında yerləşir. Həmin ocaqlarda böyük gərginliklər müşahidə olunur. Bu səbəbdən də, çox yaxın gələcəkdə böyük yeraltı təkanların olacağı istisna edilmir.

Alim həmçinin yaxın ölkələrdə də, aktiv zəlzələ zonalarında gərginlik müşahidə olunduğunu bildirib. Lakin alim beynəlxalq narazılıq yaranmasın deyə, konkret ölkələrin adlarını qeyd etməyib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# "Yeni Müsavat"ın 6000-ci sayı... qonaqlar, təbriklər və yola davam...

Və... gözlənilən tarix yetişdi. Noyabrın 28-də "Yeni Müsavat" qəzetinin 6000-ci yubiley sayı işıq üzü gördü. Bu əlamətdar tarixi redaksiya kollektivi öz iş yerlərində qeyd etdilər, təbii dostların və qonaqların əhatəsində...

**Səhər saatlarında redaksiyada yenə də müsahib vardı. Politoloq Ərəstun Oruclu bu əlamətdar tarixi təbrik etməklə yanaşı, son günlərin aktual olayları ilə bağlı müsahibə verirdi.**
**Günortadan sonra isə kollektiv çay süfrəsi arxasında bu tarixi qutladı.**
**"Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu dedi ki, 6000 rəqəmi ilk baxışda sıfırlarla görünsə də, əslində olduqca ciddi bir mübarizə xronologiyasıdır, gərgin əməyin, yuxusuz gecələrin göstəricisidir.**



Onun sözlərinə görə, indən belə bu qədər nüsxəmiz dərc edilsə, 16 il 4 ay gözləməliyik: "Bu, o deməkdir ki, bizim yaşımız 60-ı keçəcək. Burdakı cavanlar 40-ı haqlayacaq. Qəribə təsadüfdür ki, qəzetin bu cür əlamətdar tarixlərində bizə savaş açanlar, bizi söyən, üstümüzə gələnlər olur. Bu, bir qəzet üçün həyatdır, reaksiyadır, illərdir bu cür şərtlərlə qəzet çıxarmışıq, bu cür də yolumuza davam edəcəyik. Azərbaycanlılar televiziyaya baxmaq mədəniyyətini mənimsəyiblər. Bəyənmədikləri kanala baxmırlar. Daha söymək, tənqid yoxdur. Qəzetlə bağlı isə təəssüf ki, bu vərdişi mənimsəməmişik. Söyə-söyə oxumaqda davam edirlər. Amma bu da ötüb keçəcək".

R.Arifoğlu "Yeni Müsavat"ın bir ailə kimi yol getdiyini deyib, bu yolda hamıya uğurlar arzuladı.

**Qonağımız politoloq Ərəstun Oruclu** isə sosial şəbəkədə zarafatla onu "Yeni Müsavat"ın politoloq"u adlandırdıqlarını bildirdi. Onun fikrincə, qəzet çıxarmaq, oxucuya təqdim etmək indi çətin məsələdir: "Yeni Müsavat" ona nail oldu ki, cəmiyyətin bütün kəsimlərin mövqeyini əhatə edə bildi. Mətbuat əslində buna çalışmalıdır. Sizdə auditoriyanı genişləndirmək məqsədi uğurlu alınıb. Rauf bəyin bu işdə zəhməti var. Hər halda bütün fərqli münasibətlərə baxmayaraq, "Yeni Müsavat" hazırda ən oxunan qəzetdir. Bunun özü hər şey deyir".





"Yeni Müsavat"ın redaktoru Zahid Səfəroğlu kollektivə, oxuculara qəzetin 10 mininci sayını görməyi arzuladı.

Redaktor Nazim Sabiroğlu isə 6000 nüsxənin hazırlanmasında iştirak etdiyini, qəzetlə Rauf Arifoğlu adının birgə assosiasiya edildiyini qeyd edərək, bu təbriklərdən ən böyük payın baş redaktora düşdüyünü dedi. O, əməkdaşımız Kənan Rövşənoğlunun qəzetimiz barədə dediyi maraqlı bir sözü xatırlatdı: "Kənan bəy deyir ki, "Yeni Müsavat" Hollivud filmi kimidir - insanlar tənqid etsələr də, hər zaman baxırlar".

**Baş redaktorun birinci müavini Azər Ayxan** isə iki yerdə - evində və kollektivdə özünü çox rahat hiss etdiyini dedi: "Burda o qədər mehribanlaşmışıq ki, insan bəzən heç evə getmək istəmir. Saatlarla oturub işləyirik, çalışırıq. Hamı bu qəzetdə öz sözünü deyir. Bəzən bizi haqsız tənqid edənlər də olur. Amma nə etməli, bu da bizim işimizin, missiyamızın bir hissəsidir".

**"Yeni Müsavat"ın baş danışmanı, sabiq baş nazir Pənah Hüseyn** kollektiv haqda xoş sözlərini çatdırdı və 10000-ci sayı çıxarmağı arzuladı. Beləliklə, tort kəsildi, hərə öz payını götürüb iş başına döndü...

Gün ərzində isə "Yeni Müsavat"çıları təbrik etməyə xeyli qonaq gəldi. Onların arasında siyasi məhbus ailələri də vardı. Tofiq Yaqublunun qızı Nigar Yaqublu və Fərəc Kərimovun atası Raqif Kərimov da bu əlamətdar gündə kollektivin yanında oldu. Onlar da qəzetə məhbuslara, məhbus ailələrinə göstərdikləri dəstəyə görə "çox sağ ol" dedilər.

Axşam saatlarında isə Qarabağ Qazilər Birliyinin üzvü, tanınmış döyüşçü-jurnalist Rey Kərimoğlu və "Kəko Vahid" kimi tanınan Qarabağ qazisi redaksiyaya gəldi. R.Kərimoğlu qəzetdə çalışdığı dönəmdə yazdığı layihələr, reportajlardan danışıb, xatirələrinin "tozunu" təmizlədi. Kəko Vahid isə R.Arifoğlu ilə ön cəbhədə birgə vuruşduqları günlərdən xeyli hekayələr anlatdı. Ən maraqlı detal isə baş yazarla döyüş yoldaşı arasındakı bu dialoq idi:

- "Vahid, sənin soyadın necə idi?"

- "Kəko..."

Bununla da daha bir əlamətdar tarix yekunlaşdı... Biz 6000-ci sayımızı bu cür - oxucular, redaksiyanın qonaqları ilə birgə qeyd etdik. Qarşıda isə daha uzun bir yol var...

Necə deyərlər, uzun, çətin bir yol...

❑ **SEVİNC**

# "Əli Kərimli siyasətin primadonnasıdır?"

## Sərdar Cəlaloğludan AXCP sədri barədə sərt fikirlər, ittihamlar

**ADP sədri Sərdar Cəlaloğlu "Hürriyyət" qəzetinə geniş müsahibə verib. S.Cəlaloğlu müsahibəsində öncə dialoqla bağlı dövlət başçısı İlham Əliyevə yox, Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin Əli Həsənova müraciətlərinin səbəblərinə toxunub. Bildirib ki, YAP-ın qurultayında həm bu partiyanın, həm də hakimiyyətin siyasi partiyalarla dialoq üzrə komissiyasının sədri Əli Həsənov təyin olunduğu üçün müraciət ona göndərilib.**

Onun sözlərinə görə, dialoq baş tutarsa, siyasi məhbusların azad olunması, proporsional seçki sisteminin bərpası, ölkədə seçkilərin təşkilinin yaxşılaşdırılması, Dağlıq Qarabağ məsələsində iqtidar-müxalifət həmrəyliyinin yaradılması kimi məsələlər müzakirə oluna bilər. "Sizin dialoq təklifinizi hakimiyyətlə siyasi bazarlığa cəhd kimi qiymətləndirənlər oldu" sualına cavabda isə S.Cəlaloğlu bunu politologiya bisavadlığının nəticəsi adlandırıb: "Azərbaycanda bir neçə dəfə biz bunu etmişik. Bax, həmin Əli Kərimli, İsa Qəmbər, Etibar Məmmədov, Lalə Şövkət və mənim iştirakımla, Ananın, Elçinin təşəbbüsü altında, Əli Həsənov, Əli Əhmədov hökumət tərəfdən, bir neçə nəfər də deputat bir dəyirmi masa keçirdik. O vaxt vəziyyət olduqca pis idi. Təzə-təzə Əli Kərimli haqda biədəb şeylər qaldırırdılar, iqtidar-müxalifət arasında çox kəskin qarşıdurma vardı, onda biz də bu dialoqu təşkil etdik. Xeyir ola, onda Əli Kərimli dialoqda iştirak edirdi, indi əleyhinə çıxır?! Çünki onda Əli Kərimlinin məsələsi var idi".

**S.Cəlaloğlu müsahibəsində Ə.Kərimlinin ünvanına sərt ifadələr səsləndirib. ADP sədri deyib ki, Ə.Kərimli cəbhəsi özlərinin iştirak etdiyi, içində olduğu hər şeyin düzgün olduğunu, qalanların yanlışlığını müdafiə edir:** "Bu, gülünc bir şeydir. Sən kimsən axı?! Sən heç



Sərdar Cəlaloğlu

özünü idarə edə bilmirsən, gəlib məni idarə edə bilərsən? Sən kimsən qiymət verirsən?! İlhamə artistlərə ad verdiyi kimi Əli Kərimli də özünə belə bir missiya götürüb. Azərbaycanda siyasi partiyalara ad qoyur ki, Müsavat filandır, AMİP filandır, bunlar satqındır. A bala, sənə bu hüququ kim verib? Sən də siyasətin primadonnasısan? Belə şey olar?"

**ADP sədri eyni zamanda AXCP fəallarının sosial şəbəkədəki davranışlarına da toxunub. Deyib ki, u dialoqla bağlı onları ən pis küçə söyüşləri ilə təhqir edirlər:** "Bilirsiz ki, vaxtilə hökumət tərəfindən Əli Kərimlinin özünün ləyaqətini alçaldan çoxlu materiallar gedirdi, qəzetlərdə, internet saytlarında yazırdılar. İndi Əli Kərimli papağını qabağına qoyub fikirləşsin ki, o vaxt hökumətin onun əleyhinə bu üsulla apardığı təbliğat, siyasi mübarizə ədalətli və düz idisə, qəbul edirsə ki, iqtidar onun haqqında deyilənləri düz edirdi, bu şeyi davam etdirsin, mən razıyam. Yox, əgər düz deyilsə, qulbeçələrinin ağzını yığışdırsın, onları tərbiyə etsin. Siyasi partiyaların əsas vəzifələrindən biri vətəndaş tərbiyə etməkdir, pozğun küçə uşaqları tərbiyə etmək deyil. Sən uşaqları öyrədirsən, gedib otururlar internetdə, analarının-bacılarının oxuduğu sosial şəbəkələrdə ağızlarına gələn küçə söyüşləri yazırlar, tərbiyəsizlik edirlər. Ola bilsin, heç uşaqlar deyil, böyüklərdir, amma hər halda qoy bilsin ki, vaxtilə onun özünə qarşı iqtidar belə bir kampaniya aparıb, onda biz Əli Kərimlini müdafiə edirdik. Bu gün Əli Kərimli sosial şəbəkələrdə həmin üsul və metodlarla bizə qarşı mübarizə təşkil edib, bunu düşünsün".

❑ **NƏZRİN**

# "Molodes", satqınların banisi, Əli Kərimli...



Elşad MƏMMƏDLİ
elshad1978@gmail.com

## Yaxud AXCP sədri ermənipərəstlərdən nə qədər pul alıb ki...

**...Ötən köşəmdə yazmışdım ki, Batumidə keçirilən forumla bağlı haqlı bildiyimiz və faktlara söykənən yazılarımıza görə kim böhtan atsa, təhqirə yol versə, payını beşqat alacaq. Çünki bu adamlar anormaldırlar, insan dilində başa düşmürlər, onlara özlərinin başa düşdüyü dildə cavab vermək lazımdır. Maraqlı tipdirlər; özlərini elə təqdim etməyə çalışırlar ki, sanki bir "mələk"dirlər, ta qalan hamı "xəyanətkar"dır, "satqındır". Bu korazehinlər başlarını kola elə həvəslə soxublar ki, çöldə qalan ayıblarından xəbərləri də yoxdur...**

Batumidə keçirilən forumda açıq-aşkar ermənilərə canıyananlıq edən, onlara köməklik göstərən "People in Need" (PIN) təşkilatının bu missiyasını sözün əsl mənasında darmadağın etdik. Faktiki olaraq bu, həmin forumda hoqqabazlıq edən erməni nümayəndə heyətinin və onlara dəstək olan qurumun üzərində qələbə çalmağımız idi. Özü də bu qələbə bizim yox, Azərbaycanın adına olan qələbə idi. Ancaq bir dəstə təfəkkürü xarab AXCP adlı qurumun rəhbəri Əli Kərimlinin kölgəsinə və partiya orqanı olan qəzetinə sığınaraq PİN-i az qala dədə-nənələri kimi müdafiə edirlər. Niyə? Səbəbi bəllidir; bu oyunbazlar PİN-dən pul qoparırlar. Pul da bunlar üçün elə əziz və şirindir ki, dövlət, millət maraqlarını da unudurlar. Ermənipərəstliyini açıq-aşkar nümayiş etdirən bu qurumu müdafiə etmək işinə qollarını çırmayıb girişən, daha dəqiq bu prosesdə dirijorluq edən adam şəxsən Əli Kərimlidir. "Azadlıq" qəzetində çalışan adamlardan əldə etdiyim məlumata görə, hazırda PİN-in müdafiəsinə həsr olunan, "Yeni Müsavat"ı və onun baş redaktorunu təhqir edən yazıların əksərini Əli Kərimli özü yazır. Qəzetin ötən sayında üfunət iyi verən və açıq-aşkar PİN-ə "pulumuzu artır" mesajı verilən yazını da AXCP sədri özü hazırlayıb.

Yazdıqlarından anlaşılan budur, adam təxminən bu düşüncədədir ki, hakimiyyəti tənqid etmək üçün ermənilərlə işbirliyi də qurmaq olar, xarici kəşfiyyat orqanları ilə əməkdaşlıq da etmək olar. Bizə də bunu tövsiyə edir. Elə bilir biz də bunun korazehin azsaylı çevrəsindəki adamlar kimiyik, dövlət maraqları nədir qanmırıq və mütləq bunun kimi düşünməliyik. Özlərinin bütün fəaliyyəti qara-qura yollarla, əcnəbi patronlarından pul almaqdır, ona görə də hesab edirlər ki, dövlət maraqlarını müdafiə etməklə, biz də hakimiyyətdən alqış umuruq.

Fakt isə ondan ibarətdir ki, Əli Kərimli vaxtı ilə "Yeni Müsavat"dan qovulmuş, indi də erməni ilə birlikdə qoşa imza qoyan şəxsi də qanadının altına alaraq, daha doğrusu onlardan öz maraqları üçün istifadə edərək, PİN-in müdafiəsinə qalxıb. Neynək, 2002-ci ildən bəri heç bir yerdə işləməyən, bir manat rəsmi gəliri olmayan Əli Kərimli də ermənipərəstləri dəstəkləməklə paralara sahib olmaq istəyir. Babat məbləğ alır yəqin... Allah xeyir verməsin, amma qara-qura mənbələrdən qidalanan birinin məqamında dövlət maraqlarını müdafiə edən qəzeti "iqtidara işləməkdə" suçlamaq cəhdi gülməlidir. Bəli, qanında Azərbaycan türkü qanı axan hər bir kəs siyasi mövqeyindən asılı olmayaraq ermənilərin planını pozanlara təşəkkür etməlidir. Bu təşəkkürü bir YAP-çı da edibsə, Əli Kərimlinin ondan "fakt" kimi yararlanmaq cəhdinə ancaq "molodes, Sem dayının uşağı" demək qalır...

**Və sonda; bu ölkədə partiyanı iqtidara satmağın ənənəsini birmənalı şəkildə Əli Kərimli qoyub. (2000-ci ildə). Müxalifətin, demokratik düşərgənin belinin sındırılması üçün təxribatçılıq edən də o olub. (2005-ci il noyabrın 26-da). Müxalifət düşərgəsindən iqtidar düşərgəsinə gedənlərin də 95 faizi Əli Kərimlinin ətrafındakılar olub. İndi də ermənipərəstlərin müdafiəsindədir. Xülasə, bu adamı "satqınların banisi" adlandırmalı olduğumuz halda, o, hansı üzlə bu mövzularda danışır, yəqin heç özü də bilmir.**

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014



# Əlif Hacıyevi "qatil" sayanların dostları

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Batumi qalmaqalı olmasaydı, yəqin ki, "People in Need" adlı təşkilatın varlığından çoxları, o cümlədən bizlər xəbər tutmazdıq. "Pin"in bəzi xeyirxah, humanitar fəaliyyətinin arxasında ölkəmizə münasibətdə natəmiz niyyətlərindən bixəbər qalardıq. Ən önəmlisi, həmin qurumla uzun illər "çaşka-lojka" olub sırf şəxsi mənfəətlər güdmüş burdakı "demokratiya və ədalət mücahidləri"nin fəaliyyətindən məlumatsız olardıq.**

Az qala hər gün yeni, maraqlı, şok effektli faktlar ortaya çıxır bu qurumla ilgili. Demə, təşkilatın faktiki, ikinci sahibi olan Yaromir Ştetina ad-soyadlı şəxs nəinki ermənipərəst, hətta ermənidən iki çömçə artıq imiş. Sən demə, adamın xain qonşularımıza rəğbəti o dərəcədə güclüdür ki, rusca da erməni ləhcəsi ilə danışır.

Ləhcəsi cəhənnəm, adam gör xocalıları, Xocalı şəhidlərini Azərbaycanın əfsanəvi Milli Qəhrəmanı Əlif Hacıyevin timsalında necə təhqir edib. Vaxtilə Xocalı (Xankəndi) aeroportunun komendantı olmuş, neçə-neçə dinc sakini, qadını, uşağı, qocanı erməni qaniçənlərinin pəncəsindən qurtarmış bu şəxs haqda görün nə deyir. Sitat: "O, əsl qatil idi. Mənə demişdi ki, axşamlar adam ovuna çıxıram. Onun belə hobbisi vardı. Ona görə də onun ölüm xəbəri məni təəccübləndirmədi, axır ki, ermənilər onu tapıb güllələdilər..." Davamı da var: "Mən əminəm ki, bütün bunları (yəni "əzabları" - Z.S.) yaşayan arsaxlıların müstəqil dövlət qurmaq haqları var".

Başqa daha nə dəlil-sübut istəyirsiniz indi? Bu, nəinki ermənipərəstlik, hətta erməniliyin kvadratı, kubudur. Eyni zamanda "PiN" haqda dolğun təsəvvürə malik olmaqdan ötrü qiymətsiz testdir. Dəniz suyunun dadını bilmək üçün onun hamısını başa çəkməyə gərək yox ki...

Yaxşı, hesab edək ki, bu, bir qədər uzaq tarixdə baş vermiş hadisədir. Amma günah əməllərin dünəni-bu günü, təzəsi-köhnəsi, "srok"u olmaz ki. Günahı yumaq, ləkəni gec də olsa təmizləyib-təmizləməmək məsələsi var sadəcə.

Odur ki, qoy bu allahsız ittihamın müəllifi ortaya çıxsın, yanlışını etiraf eləsin, Azərbaycan xalqından, Xocalı camaatından, Milli Qəhrəmanın yaxınlarından, Əlif Hacıyevin qismində Qarabağ uğrunda canlarından keçmiş bütün azərbaycanlı qəhrəmanlardan, o sırada Mübariz İbrahimovun ruhundan üzr istəsin. Eyni zamanda erməni separatçılığını dəstəkləmədiyini, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını nala-mıxa vurmadan, birmənalı bəyan eləsin. Edərmi, bacararmı?

Bir daha qırmızı xətlə aşağıdakı fikrin altını cızaq ki, belə etiraflar, üzrxahlıqlar olmayınca, ilkin şərt kimi ölkəmizin ərazi bütövlüyü dəstəklənməyincə, hansısa təşkilatın Azərbaycana münasibətdə humanitar fəaliyyətinin qara qəpiklik dəyəri də olmayacaq. Özlərini yormasınlar.

Bu işdə xüsusi məsuliyyət payı isə Milli Qəhrəmanınızı "quldur" hesab edən bir təşkilatın müdafiəsinə qalxan azərbaycanlıların üzərindədir. Günahkarı müdafiə eləmək də ki, günaha şərik olmaq deməkdir - buyurur dinimiz. Əgər indiyədək bixəbər olublarsa da, qoy bundan sonra mövqe ortaya qoysunlar...

****

Son olaylardan hasil olan bir mühüm qənaət də var. Bəlli olur ki, Ermənistanın arxasından Rusiya çəkilsə belə, dünyada Qarabağ məsələsində Rusiya qədər Azərbaycana problem yarada biləcək, demokratiya mantiyası geymiş ermənipərəst qurumlar yetərincədir. Problem həm də ondadır. Problem həm də maddi maraqlar naminə onlara züy tutan "özümüzünkülər"dədir.

Problemdən qaçmaq üçünsə öncəliklə hər kəsin "olduğu kimi görünməsi və ya göründüyü kimi olması" lazım. Bəli, biz də Azərbaycanın demokratikləşməsini, ölkədə bircə siyasi məhbusun də olmamasını, əhalimizin rifaha qovuşmasını, seçkilərin azad və ədalətli keçməsini, söz-ifadə azadlıqlarının oturuşmasını cani-dildən istəyirik. Təkcə istəmirik, buna çalışır, bunun uğrunda mübarizə aparırıq. Amma birilərindən fərqli olaraq işimizi təmənnasız şəkildə, Azərbaycanın köklü maraqlarına, o sırada ərazi bütövlüyümüzə zərrəcə xələl gətirmədən görürük və görəcəyik.

Əlif Hacıyevi "qatil" sayanların dostları, Azərbaycana bilərəkdən, ya da bilməyərəkdən badalaq vuranlar, erməni dəyirmanına su tökənlər, öz adını başqasına qoyanlar isə nə qədər gec deyil, günah yoldan çəkilsələr yaxşıdı. Özləri bilər. Amma sonra gec olacaq.

**Sonra maskalar daha pis yırtılacaq...**

# ABŞ-ın Azərbaycana səfir təyinatının ləngiməsinin sirri

## Respublikaçılar prezident Obamadan Bakıya daha təcrübəli diplomat, "demokratiya desantı" göndərməsini tələb edir, əks halda səfir təyinatı ləngiyəcək

**ABŞ-ın Azərbaycandakı səfiri mövzusu yenidən düyünə düşə bilər. Bu barədə "Yeni Müsavat"a diplomatik mənbələrdən məlumat daxil olub. Məlumatda qeyd olunur ki, son seçkilərdən sonra Konqresdə üstünlük qazanan respublikaçılar Azərbaycana səfir təyinatında prezident Barak Obamaya təzyiq göstərirlər. Belə ki, respublikaçılar prezidentdən Azərbaycana daha nüfuzlu və təcrübəli "demokratiya desantı" göndərməsini istəyirlər.**

Məsələ burasındadır ki, bu ilin iyul ayında prezident Obama ABŞ-ın Azərbaycandakı səfiri postuna Robert Frensis Cekutanın (Robert Francis Cekuta) namizədliyini irəli sürüb. Ancaq hələlik ABŞ Senatı Cekutanın səfir vəzifəsini müzakirəyə çıxarmayıb. Bunu Senatın iş qrafiki ilə əlaqələndirirlər və hazırda yeni səfirin nə zaman təsdiqlənəcəyi haqda məlumat yoxdur. Bir qədər əvvəl ABŞ-ın müvəqqəti işlər vəkili Derek Hoqan "Amerikanın Səsi" radiosunun Bakı bürosuna bildirib yeni səfir Robert Sekutanın təsdiq olunacağı gün haqda xəbərsizdir. Sitat: "Biz də bunu səbirsizliklə gözləyirik."

**ABŞ-ın Azərbaycandakı səfirliyinin mətbuat xidmətinin əməkdaşı Mehdi Hüseynquliyev** bizimlə söhbətində səfirin təsdiqlənməsi Senatdan asılıdır dedi ki, səfirlik bu müzakirələrin nə zaman baş verəcəyindən xəbərsizdir. Səfir təyinatı ilə bağlı respublikaçıların hökumətə yeni təkliflərinin və tələblərinin olması ilə bağlı suala isə M. Hüseynquliyev araşdırma aparıb dəqiqləşdirdikdən sonra cavab verə biləcəyini bildirdi.

Qeyd edək ki, Robert Frensis Cekuta hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin müavinidir. Daha əvvəl isə ABŞ-ın Əfqanıstan, Yaponiya və Almaniyadakı səfirliklərində müxtəlif vəzifələrdə çalışıb.

Bizə çatan məlumata görə, Senatdakı respublikaçılar Cekutanın təyinatından narazıdırlar və yeni səfirin təyinatı bu səbəbdən gecikir. Eyni zamanda bildirilir ki, respublikaçılar Azərbaycana daha fəal bir səfir təyin olunmasını istəyirlər. O da bildirilir ki, prezident Obama daha əvvəl Metyu Brayzanın təyinatında olduğu kimi Azərbaycana səfiri prezident səlahiyyətlərinə əsas Senatın başı üzərindən bir ilik müddətə təyin edəcək. Yəni böyük ehtimalla səfir Cekuta da Azərbaycanda bir il fəaliyyət göstərə biləcək.



Robert Frensis Cekuta

**Maraqlıdır ki, respublikaçılar Azərbaycana təyin olunacaq yeni səfirin enerji sahəsindən olmamasını, Bakıya daha çox təzyiq göstərə biləcək diplomat olmasını istəyirlər.** Respublikaçı senatorlar hesab edir ki, Amerikanın Azərbaycandakı nüfuzunu bərpa etmək üçün daha fəal bir diplomat təyin olunmalıdır. Eyni zamanda Azərbaycanda fəaliyyəti dayandırılmış institutların, o cümlədən Beynəlxalq Respublikaçılar İnstitutunun fəaliyyətinin yenidən bərpa etməsi tələb olunur. Xatırladaq ki, Beynəlxalq Respublikaçılar İnstitutu 2010-cu ilin aprelində fəaliyyətini dayandırıb. Milli Demokratiya İnstitutu isə bundan bir il sonra fəaliyyətini dayandırıb.

**ABŞ Respublikaçılar Partiyasına yaxın mənbə iddia edir ki, hazırda Konqresdə möhkəmlənən respublikaçılar Barak Obamanın bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda yerli hakimiyyətlə güzəştli rəftarına görə qınayır.** Qeyd edək ki, son illərdə ABŞ-ın Azərbaycanda fəaliyyəti xeyli dərəcədə passivdir. Yerli QHT-lərin, o cümlədən Amerika təşkilatları ilə əməkdaşlıq edən bir sıra ictimai təşkilatların fəaliyyəti qadağan olunub, əməkdaşlarına qarşı cinayət işi açılıb. Eyni zamanda Bakıda anti-Amerika əhval-ruhiyyəsi zaman-zaman yüksəlib. Bir vaxtlara yerli demokratik qüvvələrlə yaxından əməkdaşlıq edən, ictimai prosesləri dəstəkləyən ABŞ səfirliyinin fəaliyyəti nəzərəçarpacaq qədər sönükləşib.

Ancaq Vaşinqtonda tamamilə başqa ab-hava var və Azərbaycandakı vəziyyət ara-sıra Vaşinqtonda müzakirə olunur və Azərbaycanın ünvanına sərt tənqidlər səsləndirilir. Sonuncu dəfə oktyabrın 27-də Freedom House və Açıq Cəmiyyət Fondu (Open Society) Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyətin pisləşməsi ilə bağlı Vaşinqtonda müzakirələr keçirib. Vaşinqtonda siyasi dairələrdə Azərbaycanda insan haqlarının vəziyyəti, siyasi və söz azadlıqları mövzularında ciddi tənqidlər olsa da, bu mövqe Bakıdakı səfirliyin fəaliyyətində hiss olunmur. Bizə verilən məlumatda o da qeyd olunur ki, respublikaçılar məhz bu siyasətin dəyişməsini və bunu aparacaq təcrübəli diplomatın Bakıya göndərilməsini tələb edir.

**Ancaq müşahidələr onu deməyə əsas verir ki, hələlik Vaşinqton Bakı ilə danışıq dilini dəyişməyə hazırlaşmır. Məsələ burasındadır ki, hazırda ABŞ Yaxın Şərqdə İŞİD terroruna qarşı müharibəyə cəlb olunub. İndi Vaşinqton üçün müsəlman ölkələri hökumətləri ilə əməkdaşlıq xeyli dərəcədə mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də eyni regionda yerləşən Azərbaycanla münasibətləri daha da gərməyə çalışmayacaq.**

❑ Kənan RÖVŞƏNOĞLU

**Ölkədə siyasi həbslər davam edir. AXCP fəalı Asif Yusifilinin həbsi, jurnalist Turxan Qarışqanın saxlanılması iqtidar-müxalifət münasibətlərinin hər an partlaya biləcəyini deməyə əsas verir.**

**Siyasi institutların zəif inkişaf etdiyi ölkələrdə bir anın içində xaos baş verə bilər. Azərbaycan kimi sistemsiz siyasi kurs həyata keçirilən ölkələrdə proqnoz vermək son dərəcə çətin və ağlasığmazdır. Bunun bir səbəbi var - Azərbaycan hakimiyyəti sistemsizdir. Bu onun başlıca problemidir.**

Azər RƏŞİDOĞLU



# Proseslər küçələrə transfer edə bilər

İlk baxışdan son dərəcə qətiyyətli görünən hakimiyyətin "sərtlik limiti" artıq tükənmək üzrədir və iqtidar artıq anlayır ki, daha aşırı radikal idarəçilik fəsadlar verə bilər. Odur ki, hakimiyyət xarici və daxili təzyiqlər fonunda geri çəkilmək zorundadır. Bu baxımdan, ehtimal etmək olar ki, yaxın aylarda siyasi məhbusların bir qismi azad olunacaq. Lakin heç kəs zəmanət vermir ki, azadolunan məhbusların yeniləri ilə əvəz olunması ilə sonuclanmayacaq. Yəni, siyasi məhbus problemini aradan qaldıran amillər mövcud olduqca yeni siyasi məhbus siyahıları da tərtib olunmaqda davam edəcək. Bu baxımdan, yeni siyasi məhbus kimi tanınmış jurnalist və ya siyasətçilərin həbs oluna biləcəyi ehtimalı xeyli dərəcədə böyükdür.

Bu, iqtidara lazımdırmı? Sistemli kurs həyata keçirən hakimiyyət belə metodlara əl atmaz. Lakin sistemsiz siyasi qüvvələrdən nə mənasız addımlar da gözləmək mümkündür.

**Bu gün Azərbaycan cəmiyyəti islahatların aparılması və korrupsiyanın, məmur özbaşınalığının aradan qaldırılmasını arzulayır.** Ölkədə hələ də korrupsiya tüğyan etməkdədir. Ekspertlər hesab edirlər ki, Azərbaycanda korrupsiyaya qarşı fundamental səviyyədə tədbirlər planı həyata keçirmək lazımdır.

**Ərəb ölkələrində əhalinin narazılığının əsasən korrupsiyadan olmasını nəzərə alsaq, Azərbaycandakı proseslərində bu məcraya yönələ biləcəyini ehtimal edə bilərik.** Bu baxımdan, "Yaxın Şərdəki hadisələr bizdə də yaşana bilər" deyənlər haqlı görünürlər. Ölkədə korrupsiya o hədə çatıb ki, insanların etirazı qısa bir zamanda geniş vüsət ala bilər. Elə "Azərbaycanda Ukrayna prosesləri təkrarlana bilər" deyənlər də bu amilə söykənirlər.

**Bir sözlə, ölkənin siyasi rəhbərliyi iki seçim qarşısında durur - ya sosial dayağı kimi bəzi rüşvətxor məmur kütləsindən istifadə etməli, ya da onlardan xilas olaraq, xalqın etirazına səbəb olan məmurları istefaya göndərməli, islahatlara başlamalıdır.** Əlbəttə, bu, islahatlar və əllərində böyük maliyyə vasitələri olan məmurların maraqlarının zərbə alması, həmin təbəqənin siyasi hakimiyyətə qarşı çıxması ilə sonuclana bilər. İstənilən halda siyasi hakimiyyət belə bir riskə getməli və əhalinin yumşaq desək, nifrət elədiyi məmurlardan azad olmalıdır, əks halda ölkədə sosial partlayışlar baş verə bilər ki, artıq bu qarşısıalınmaz fəsadlar törədə bilər. Görünür, bunu hakimiyyətdə də dərk edirlər. Lakin korrupsiyalaşmış məmurlar ordusuna qarşı real mübarizə aparmaq riskinə getmək istəmirlər. Odur ki, iqtidar korrupsiyaya qarşı mübarizənin imitasiyasını yaratmaqla kifayətlənir. Bu gün Azərbaycanda korrupsiya idarəetmə formasına çevrilib, odur ki, antikorrupsiya cəhdlərinin real nəticələrinə ümid bəsləmək sadəlövhlük olardı. Ekspertlərin hesabatlarında göstərilir ki, Azərbaycanda korrupsiya yalnız məmurların rüşvətxorluğu ilə məhdudlaşmır. Ölkənin iqtisadi resursları üzərində korrupsiya hakimdir və bu amil iqtisadi islahatları mümkünsüz edir. Baxmayaraq ki, ölkədə antikorrupsiya ilə bağlı qanunlar mövcuddur, siyasi iradə olmadığından bu qanunlar adi kağız parçasından başqa bir şey deyil.

**Ölkədə vəziyyət ürəkaçan deyil. Ağırdır. Hər an proseslər küçələrə transfer edə bilər...**

❑ Azər RƏŞİDOĞLU

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014

## Hakimiyyətlə "köhnə qitə" arasında yeni gərginlik

# Parlamentdə Avropaya savaş açıldı - skandal

### Avropa Parlamentinin prezidenti Martin Şultsun son fikirləri Milli Məclisdə qəzəb doğurdu, rəhbərlik və deputatlar sərt danışdılar; **Oqtay Əsədov:** "O təşkilatlara bel bağlayan belsiz qalar"; **Bahar Muradova:** "Gözü çıxan qardaşların vəziyyəti bizə dərs olmalıdır"

**Milli Məclisin 28 noyabr iclasının gərgin keçəcəyi, Avropaya ünvanlı təpkilərin olacağı əslində gözlənilən idi və bu, baş verdi. Parlament sədri Oqtay Əsədov özünün etiraf etdiyi kimi, o qədər əsəbiydi ki, hətta gündəliyin səsə qoyulması prosedurunu unudaraq birbaşa Avropa Parlamentinin prezidenti Martin Şultsun ünvanına sərt ittihamlar yağdırmağa başladı.**



Əslində iclasda 2015-ci ilin büdcə zərfi ilə bağlı son müzakirələrin keçirilməsi nəzərdə tutulmuşdu və hökumət üzvləri də parlamentdəydi. Yeri gəlmişkən, parlamentin iclası gedərkən Qarabağ qaziləri və şəhid ailələrini təmsil edən bir neçə yüz nəfər Milli Məclisin qarşısında toplaşmışdı. Bu zaman əraziyə xeyli polis cəlb olunmuşdu. Sonradan bir sıra deputatların, Aqil Abbas, Vahid Əhmədov, Qənirə Paşayeva və digərlərinin şikayətçiləri şəxsən dinləməsi nəticəsində hər hansı gərginlik yaşanmadı.

**İclasın gedişində isə gərginlik aşkar şəkildə hiss olunurdu. Spiker M.Şultsun Avropa Parlamentin noyabrın 26-da Strasburqda keçirilmiş plenar iclasında Azərbaycanla bağlı səsləndirdiyi fikirlərə sərt reaksiya verdi:** "Bunların başqa iş-gücləri yoxdur. Avropada 5-6 müsəlman ölkəsi var, ancaq onlarla məşğuldurlar. Cənab Şults deyir Azərbaycana qrup göndərmək istəmişik, amma razılıq verilməyib. Tam yalandır, nə Milli Məclisə, nə də Azərbaycan hökumətinə müraciət olunub. Biz necə münasibət görürük, elə də münasibət bəsləməliyik. Soyuq münasibətə soyuq münasibət olmalıdır". O. Əsədov deputatları bütün bu qərəzli münasibəti nəzərə almağa çağırdı. Ancaq hökumət üzvlərinin zalda gözlədiyi nəzərə alıb 2015-ci ilin dövlət büdcəsi ilə bağlı qanun layihəsinin müzakirəsinə keçməyi təklif etdi.

**Hökumətə ünvanlanan təkliflərlə bağlı öncə maliyyə naziri Samir Şərifov çıxış etdi.** Nazir dedi ki, elm xərclərinin 8 milyon manat məbləğində artırılıb və bu da cari illə müqayisədə 2,5 faiz çoxdur. Parlamentdəki siyasi partiyaların maliyyəsi ilə bağlı xahiş də nəzərə alınıb. S.Şərifov dedi ki, 2014-cü ildə 250 min manat obyektiv səbəbdən bölüşdürülməmiş qalıb. Ona görə də bu vəsaitin 2015-ci ilin büdcəsində istifadə edilməsi məqbuldur. Nazir qanuna düzəliş etməklə siyasi partiyalara ayrılan vəsaitin tam məbləğdə siyasi partiyalar arasında bölüşdürülməsinə hökumətin razı olduğunu bildirdi. Hökumət 2015-ci ildə QHT-lərin xərclərinin daha 600 min manat artırılması təklifini də qəbul edib. Bələdiyyələrə dotasiyanın artırılması ilə bağlı təkliflərə də baxılıb. S. Şərifov dedi ki, hökumət bələdiyyələr birbaşa maliyyə yardımı ayrılmalı deyil, amma bələdiyyələrə daha yaxşı imkanlar yaradılmalıdır ki, gəlirləri artsın. Beləliklə, bələdiyyələr maliyyəni vətəndaşlardan alacaq. Hökumət Milli Məclisin xərclərinin əlavə olaraq 450 min manat artırılmasını məqsədəuyğun sayıb. Beləliklə, 2015-ci ildə Milli Məclisin xərcləri 23 milyon 807 min manata çatdırılacaq. Bununla da hökumət son variantı təqdim etdi. Büdcə layihəsinin əleyhinə 3, lehinə 93 nəfər səs verdi.

**Deputat Vahid Əhmədov** Qarabağ əlilləri və şəhid ailələrinin sığortası ilə bağlı ötən iclasda da qaldırdığı məsələyə diqqət çəkdi: "Bu məsələni həll etmək lazımdır. Konstitusiya Məhkəməsi səhv edibsə, bunun əziyyətini niyə Milli Məclis çəkməlidir? Bu pulu haqqı çatan ailələrə ödəmək lazımdır. Şəhid ailələri üçün ödəniləcək sığortanın məbləği 11 min manatdır. Bu, elə də çox vəsait deyil. Maliyyə Nazirliyi bunun ödənilməsini təmin edə bilər. Xahiş edirəm bu məsələ həll olunsun. Əgər ehtiyac varsa, dövlət başçısı səviyyəsində məsələnin birdəfəlik həllini xahiş edirəm".

**Siyavuş Novruzov** da Qarabağ əlilləri və şəhid ailələrinin sığorta problemindən danışdı: "Elə adamlar var ki, 21 ildir haqlarını ala bilmir. Qarabağ əlilləri indi də bəyan etdilər ki, torpaqların azadlığı uğrunda hər an savaşa qatılmağa hazırdır. Onların hamısı prezidentin ətrafında sıx birləşib. Dövlət Sosial Müdafiə Fondunun sədrindən xahiş edirəm ki, şəhid ailələrinin qaldırdığı problemləri diqqətdə saxlasınlar və həlli üçün addımlar atsınlar. Qanunvericiliklə bu məsələni həll edək, o insanlar bir daha əziyyət çəkib gəlməsinlər".

**Oqtay Əsədov** dedi ki, bu məsələni maliyyə naziri həll etmir: "Bu məsələ həllini tapacaq. Xahiş edirəm bu məsələdən narahat olmayın. Konstitusiya Məhkəməsi bununla bağlı qərar qəbul edib. Məhkəmə bizə məktub da göndərib ki, Milli Məclis bununla bağlı qərar qəbul etsin. Biz də məsələni araşdırıb hökumətə məktub göndərəcəyik".

Müzakirəyə çıxarılan Əmək Məcəlləsində edilən dəyişikliklərdə cərimələrdən əmək müfəttişlərinin əmək haqqına 25 faiz artırılmasını nəzərdə tutulurdu. **Deputat Musa Quliyev** Əmək Müfəttişliyinin cərimələrinin yalnız 42 faizinin ödənildiyini qeyd etdi.

**Çingiz Qənizadə** özəl sektor və ticarətlə məşğul olan şəxslərin böyük əksəriyyətinin həftəlik iş saatından iki dəfə çox işlədiyini bildirdi: "Əmək Müfəttişliyinə üz tuturam, xahiş edirəm axşam saat 6-dan sonra bəzi nazirliklərin də qapısını döyün, soruşun ki, oradakı işçilər niyə orda oturub?"

**Qənirə Paşayeva** da bu sahədə ciddi addımlara ehtiyac olduğunu bildirdi: "Əmək müqaviləsi olmadığı üçün kimi istəyirlər işdən çıxarırlar, istehsalatda bədbəxt hadisə olur təzminat ala bilmirlər. Əmək Müfəttişliyinin 263 müfəttişi var. Bu qədər cüzi ştatla bütün ölkədəki iş yerlərinə nəzarət etmək mümkün deyil".

**Şəmsəddin Hacıyev** dedi ki, bu təkliflərin əksəriyyəti səbəbə yox, nəticəyə yönəlib: "Səbəb nədir ki, işə götürən işçilərin sayını azaldır və əmək haqqını aşağı həddə göstərir? Deməli, bu vergiyə görədir. İşə götürülən hər kəsə görə verilən 100 manatlıq əmək haqqının 40 manatı vergiyə cəlb olunur. Ona görə də vergilərlə bağlı məsələ üzərində ciddi işləmək lazımdır".

**Zahid Oruc** əmlak özəlləşməsi ilə bağlı problemlərin indiyədək qaldığını bildirdi: "Bu problemi, nəhayət, həll etmək lazımdır.

**Qüdrət Həsənquliyev** çıxışında dedi ki, "Bakıelektrikşəbəkə", "Azəriqaz", "Azərsu" təcili özəlləşdirilməlidir: "Bəzi xarici ölkələrdə hətta həbsxanalara özəl şirkətlər nəzarət edir. Bir sıra hallarda bu qurumlara qarşı yönələn tənqidlər dövlətə qarşı yönəlir. Özü də burda özəlləşməyə yalnız Azərbaycan vətəndaşları qatıla bilər. Lazım olsa, qanunlara da dəyişiklik etmək mümkündür. Dünyanın heç bir ölkəsində bu qədər elektrik enerjisi itkilərinə yol verilmir. Elektrik enerjisini hansısa özəl şirkət satsa, burda heç bir itki olmayacaq, şəffaflıq da təmin olunacaq".

**Çingiz Qənizadə** insanlara reyestrdən çıxarışların artıq səyyar formada verilməsi işinə başlanılmasının yerlərdə təqdir olunduğunu bildirdi: "Bizdə belə bir fikir formalaşıb ki, dövlət bunu gətirib qapımda verməlidir. Bəzən biz öz üzərimizə düşən vəzifələri həll etməkdənsə, dövlətin həll edəcəyini gözləyirik. Müəyyən sənədlərin tələb olunması əslində yaxşıdır. Çünki sonradan məhkəmə çəkişmələrində problemlər yaranır".

Bu müzakirələrdən sonra Milli Məclisdə son vaxtlar Azərbaycana qarşı təzyiq kampaniyası, xüsusilə də Avropa Parlamenti rəhbərliyinin tənqidlərinə qarşı müzakirəyə əlahiddə vaxt ayrıldı.

**Zahid Oruc** məscidlərlə bağlı baş verənləri, ölüm hadisələrini diqqətə çəkdi, Sumqayıt və Qaraçuxur məscidlərində baş verənlər, hətta Qız Qalasındakı intiharın təsadüf olmadığını vurğuladı. Bütün bunlarla bağlı dövlətin müvafiq qurumlarını ayıq-sayıq olmağa çağırdı: "Bu, az qala Soçi olimpiadasından öncə Rusiyada baş verənləri xatırladır".

**Fazil Mustafa** Avropa Birliyinin Azərbaycandakı əsas məsələlərə münasibətdə obyektiv olmadığını bildirdi: "Biz vertolyot olayında da bunun şahid olduq. Ermənistanın bir vertolyotunun bizim ərazimizdə vurulmasına bu cür münasibət olduğu halda 1991-ci ilin 20 noyabrında dövlət xadimlərinin olduğu vertolyotun vurulmasına heç xatırlayan olmadı. Bu günlərdə çox qəribə hadisələr baş verir. Ola bilsin ki, dini icmaların təmsilçiləri bir-biri ilə yola getməyib. Amma Azərbaycanda məscidi yandırmaq ənənəsi sovet dövründə belə olmayıb. Qaraçuxur məscidində baş verən hadisə onu göstərir ki, Azərbaycanla bağlı ciddi planlar hazırlanır. Məscidlərdə kamera quraşdırmaq, polis postları qoymaq olar".

**Çingiz Qənizadə** Avropa Parlamentinin rəhbəri Şultsun və ondan əvvəlki digər açıqlamaların bir mərkəzdən idarə olunduğunu bildirdi: "Təəssüf ki, bu açıqlamalarda 5-6 adamın adı çəkilir ki, dövlət hansısa addımları atmağa məcbur olsun. Qanun hamı üçün qanundur və heç kəs ayrı-seçkiliyə məruz qala bilməz. 15-20 nəfər tanınmış şəxsin həbsdə olduğu halda, əsasən bir-iki nəfərin adı davamlı çəkilir. Sanki vaxtilə bunlar onlara xidmət edib, indi onlar bunlara xidmət edirlər".

**Siyavuş Novruzov** da Azərbaycanla bağlı ədalətsiz qərarların qəbul olunduğunu bildirdi. O, Batumidəki tədbirdə baş verən qalmaqal erməni lobbisinin təsirinin göz qarşısında olduğunu bildirdi. S.Novruzov Emin Millinin adını "Emin qeyri-milli" yazmağa çağırdı: "Heç bir dövlətin Azərbaycanın daxili işlərinə qarışmağa ixtiyarı yoxdur. Biz hər dəfə bir addım atdıqca bu təşkilatlar bizim üstümüzə gəlirlər. Təsəvvür edin, Allah eləməmiş Amerikada öldürülən uşaq Azərbaycanda öldürülsəydi, bunu gücə-gündüz telekanallarda şərhsiz yayardılar".

**Sabir Rüstəmxanlı** dedi ki, Avropada dəbdəbəli adlar altında fəaliyyət göstərən anti-Azərbaycan hücumları təəccüblü deyil, Yaxın Şərqə, İslam dünyasına qarşı kampaniyanın tərkib hissəsidir: "Ən qorxulusu budur ki, Avropa bu təzyiqləri "Avropa dəyərləri" altında ikili standartlarla həyata keçirir. Ermənistanın davranışlarını görməzliyə vurur, Azərbaycana qiymət verməyə çalışır. Bu, böyük mənada əslində Səlib yürüşünün davamıdır. Bu gün 92 ölkədə gizli fondların təşkilatları var ki, dövlət içində dövlət qururlar. Azərbaycan elə də böyük dövlət deyil, böyük problemi var, bundan istifadə edirlər. Gələn il Avropa Oyunlarının Bakıda keçirilməsi və "erməni soyqırımı"nın 100 illiyi ilə bağlı bu təzyiqlər bir az da artacaq. Biz isə hətta Türkiyədə də ermənilərin tədbirlərinə təsir göstərə bilmirik. Ona görə dövlət orqanlarının xalqla, gəncliklə, mətbuatla daha ehtiyatlı olması, təzyiqləri azaltması lazımdır. Kənar bizim dövlətə, biz də öz vətəndaşımıza təzyiq edirik. Bunun qarşısı alınmalıdır".

**Qüdrət Həsənquliyev** isə dedi ki, insan haqları heç bir ölkənin daxili işi deyil: "Əgər o tənqidlərdə hansısa haqlı tərəflər varsa, çalışıb onları həll etməliyik. Amma əminəm ki, bu tənqidlər səmimiyyətdən irəli gəlmir. Avronestdə də qətnaməni səsləndirdim və bəyan etdim ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib, 20 min insan qətlə yetirlib, 30 min nəfər yaralanıb, 1 milyon insan yurdundan didərgin salınıb, buna əhəmiyyət vermirsiniz, ancaq Azərbaycanda 5-6 nəfərin həbs olunmasına etiraz edirsiniz. Bu gün Qərbdən tam asılı vəziyyətdə olan Ukraynanın nümayəndələri belə məni orda müdafiə etməyə çəkindi. Bu gün Avropada islamofobiya var və onlar Ermənistanın təcavüzünə göz yumurlar. Adətən insanlar əlində olanları itirəndən sonra onun qədrini bilir. Odur ki, bu gün biz ölkədəki sabitliyi göz bəbəyi kimi qorumalıyıq".

**Vitse-spiker Bahar Muradova** bildirdi ki, bu təzyiqlərin önündə dayanılmalıdır: "Bəzən deyirlər ki, Azərbaycanda bizim tərəfdaşımız azadlıqda qalmayıb. Sizin tərəfdaşlarınız Azərbaycanda yalnız Leyla Yunus, ya onun kimi məqsədlərə xidmət edən 5-6 nəfərdir? Xahiş edərdik ki, onlar tərəfdaşlıqla bağlı mövqelərini sərf-nəzər etsinlər, biz də işimizi bilək. Biz heç kəsə təzyiq göstərmirik. Hər kəs törətdiyi əmələ görə cəzasını almalıdır. Kimsə hesab edirsə ki, dövlətin mənafeyini satıb həyatını sürəcək, biz buna imkan verməyəcəyik". B.Muradova vəziyyətin həssaslığına da diqqət çəkdi: "Gözü çıxan qardaşların vəziyyəti bizə dərs olmalıdır".

**Oqtay Əsədov** dedi ki, mötəbər saydığımız təşkilatların mötəbərliyi, müstəqilliyi yoxdur: "Ona görə də "mötəbər təşkilatlara" bel bağlamaq olmaz. Bir "STOP" komandası ilə hərəkət edirlər. Bu mənada dövlətlərlə ələqə qurmalıyıq. O təşkilatlara bel bağlayan belsiz qalar. Avronestin, Avropa Parlamentin adı var özü yox. Biz bunlara niyə işləməliyik? Bizə təzyiqlər çox olacaq. Bunun da səbəbləri çox dərindir".

**Əli Hüseynli** isə Şultsun ölkəmizi təhqir etdiyini vurğuladı: "Onun rəsmi saytdakı bəyanatında Azərbaycan hökuməti deyil, Azəri hökuməti ifadəsi əksini tapıb, bu da onun münasibətini göstərir". Amma Ə.Hüseynli sərt ritorikadan çəkinməyə, beynəlxalq qurumları islah etmək üçün əməkdaşlığı davam etdirməyə çağırdı.

**Yevda Abramov isə sərt danışdı:** "Mən bura gələn nümayəndələri Qırmızı qəsəbəyə aparıram, onlara yəhudi icmasının necə rahat şəraitdə yaşadığını əyani şəkildə göstərirəm, özümün parlamentdə təmsil olunduğumu bildirirəm, gedəndə də necə lazımdır yola salıram, amma yenə də qayıdandan sonra öz bildiklərini deyirlər".

❑ **Elşad PAŞASOY,**
**musavat.com**

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014



# Avropa ilə döyüşə-döyüşə...

Xalid KAZIMLI

**Dünən Milli Məclisin plenar iclasında parlament rəhbərliyi də, deputatlar da Avropaya sərt etiraz bildiriblər. Səbəb klassikdir: Avropa təsisatları nəyə görə insan haqlarına dair pozuntularla bağlı Azərbaycana irad bildirir.**

Azərbaycanlı deputatlar hesab edirlər ki, bu haqsızlıqdır, qərəz göstəricisidir, ayrı-seçkilikdir, bu davranışın alt qatları var, əslində Avropanın qarnının ağrısı başqa şeydir və sair və ilaxır.

Siyavuş Novruzova görə, ölkəmizə qarşı bu yanaşma "Azərbaycanın inkişafını gözügötürməzlikdən başqa bir şey deyil" Deputat məsələni yenə "bir qrup erməni lobbisinin təsiri"nə bağlayıb, sonra da deyib ki, "biz ciddi şəkildə onlara qarşı mübarizə aparmalıyıq".

Eyni sözü parlamentin sədri Oqtay Əsədov da dilə gətirib, deyib ki, mötəbər təşkilatların heç birində müstəqillik yoxdur, onlara bel bağlamaq olmaz, Avronest, Avropa Parlamentinin adı var, özü yoxdur və onlar kiçik məsələlərlə Azərbaycana təzyiq göstərməyə çalışırlar.

Deputat Çingiz Qənizadə də, Qüdrət Həsənquliyev də Avropanın Azərbaycanı tənqid etməsinin arxasında qeyri-səmimi məqsədlərin dayandığını bildiriblər. Vitse-spiker Bahar Muradova isə vurğulayıb ki, Azərbaycan bu təzyiqlərin qarşısında dayanmalıdır.

Bir sözlə, deputatlarımız qos-qoca Avropanı yerdən-yerə vurublar, bəs deyincə pisləyiblər, qınayıblar, ona qarşı dirənməkdə, Avropa təsisatları ilə döyüşməkdə davam etməyi məsləhət biliblər.

Parlamentdə haray-həşirlə ölkədə insan haqları ilə bağlı problemlərin olmadığı bildirilən zaman internet mediasında belə bir xəbər yayılmışdı ki, AzadlıqRadiosunun müxbiri Turxan Kərimov evindən çıxarkən iki naməlum şəxs tərəfindən saxlanılıb və özünü təqdim etməyən qoluzorlu şəxslər onu qara maşına basıb harasa aparıblar.

İctimai-siyasi fəallar belə hadisələri həmişə gözlədiklərinə görə dərhal vəkil axtarışına çıxmış və münasib vəkil tapmışdılar. Bir neçə saatdan sonra məlum oldu ki, sosial şəbəkədə Turxan Qarışqa kimi tanınan maarifpərvər gənc fəal sərbəst buraxılıb. Onu küçədən hop götürənlər isə bir başqası deyilmiş, hüquq-mühafizə orqanlarının əməkdaşlarıymış.

Ancaq işə baxın ki, Turxan Qarışqanın gözlənilməz həbsi yox, azadlığa buraxılması təəccübə səbəb oldu. Niyə? Ona görə ki, son illərdə küçədə saxlanılan, qara maşınlara basılıb naməlum istiqamətə aparılan şəxslər bir qayda olaraq, ən azı inzibati həbs cəzasına məruz qalırlar.

Belə olduğu halda, ölkədə insan haqlarıyla bağlı problemin olmadığını necə iddia etmək olar? Siyasi motivlərlə həbsə alınmış, məhkum olunmuş, həbs cəzası kəsiləcəyi gözlənilən onlarla dustağın varlığını necə danmaq olar? Mümkün deyil.

Az qala hər gün ictimai-siyasi fəalların həbs olunması, təzyiqə məruz qalmasına dair xəbərlər gəlir. Sosial mediada haqlı olaraq "ölkədə 37-ci il küləyi əsir" deyə ifadələrə rast gəlinir. Bunlar havayı söhbətlər deyil, bu cür iddiaların əsası var.

Ölkədə aşağı-yuxarı, 100-ə yaxın siyasi məhbusun olduğu bildirilir. Hətta bu rəqəmin yarısını belə kənara qoysaq, 50 nəfər siyasi motivlərlə həbs edilmiş şəxsin varlığı danılmazdır və bu, Avropa təsisatlarının diqqətini çəkməyə bilməz.

Beynəlxalq təşkilatlarla höcətləşərək ağac-ağaca durmaqdansa, problemin mövcudluğunu etiraf etmək və onun həlli istiqamətində çalışmaq lazımdır.

Azərbaycan hakimiyyəti qurunun oduna yaşı yandırmağı, əlinə düşən hər bir bəhanədən öz siyasi rəqiblərinə qarşı yararlanmağı sevir. Ancaq siyasi rəqiblərlə bu cür sərt davranmağın bir əndazəsi də olmalıdır, bir balaca fəallıq göstərən funksioner və sıravilər tutulacaqsa, onlara fəaliyyət imkanı verilməyəcəksə, siyasi partiyaları birdəfəlik bağlamaq daha məqsədəuyğun olar.

Bir də Avropa ailəsinin üzvüyüksə, ya özümüzü bu ailənin qanun-qaydaları çərçivəsində aparmalıyıq, ya da coğrafi baxımdan Avropaya aid olmadığımız kimi, siyasi (eləcə də mədəni) baxımdan da Avropadan uzaqlaşıb, üzümüzü Şərqə, Asiyaya tutmalıyıq. Bu məkanda bizdən insan haqlarına riayət, demokratiya, azad seçki tələb edən olmayacaq.

**Yox, bu bizə sərf etmirsə, alverimizə, biznesimizə uyğun deyilsə, onda içəridə olan siyasi dustaqları azad etmək, yenilərini həbs etməmək lazımdır. Əks təqdirdə, Avropa ilə döyüşə-döyüşə uzağa getmək olmaz.**

# "Müsavat daxilində bu müzakirələr davam edəcək, çünki..."

## Səxavət Soltanlı: "Kimsə xəyanətkar sözünü özünə götürürsə, bu, İsa Qəmbərin problemi deyil"

**"Müsavat Partiyasında Sədrlər Şurasının toplantısı keçirilib, müvafiq tapşırıqlar verilib. Eyni zamanda rayon təşkilatlarının toplantıları təşkil olunub və siyasi məhbuslara azadlıq tələbi ilə keçiriləcək mitinq müsbət təşəbbüs kimi qarşılanıb. Hazırda partiyada buna hazırlıq gedir və vicdan məhbuslarının ailəsinə qovuşmasını istəyən hər bir kəs mitinqə dəstək verə bilər".**



Səxavət Soltanlı

Bu sözləri **Müsavat başqanının müavini Səxavət Soltanlı** "Yeni Müsavat"a açıqlamasında deyib. Onun sözlərinə görə, partiyanın dekabrın 14-də keçirəcəyi mitinqlə bağlı digər siyasi təşkilatlara rəsmi dəvət göndərilməsi nəzərdə tutulmayıb. S.Soltanlı hesab edir ki, mitinqin şüarını dəstəkləyən hər bir vətəndaşın tədbirdə iştirak hüququ var. O, Milli Şura ilə birgə mitinqlərin təşkili problemini əvvəldən qarşı tərəfin yaratdığını bildirib:

"Müsavatın birgə mitinq keçirmək kimi problemi yoxdur. Bundan əvvəl partiyamızın bu istiqamətdə təşəbbüsləri olub. Hətta NİDA üzvlərinin son məhkəməsindən əvvəl belə bir təklif irəli sürüldü və Milli Şura rəhbərliyi buna isti yanaşmadı. Cəmil Həsənli ilə də əlaqə saxlanıldı və birlikdə mitinq təşəbbüsü qaldırıldı.

Ancaq Müsavat Partiyasından asılı olmayan səbəblərdən mitinqə dəstək verilmədi. Bizim partiyamızın 4 üzvü həbsdədir və ölkədə 100-ə yaxın siyasi dustaq var. Bu halda partiyanın yaranmış vəziyyətə biganə qalması mümkün deyil. Bu günlərdə mitinq komitəsi toplaşacaq, geniş müzakirə aparılacaq, mətbuata daha ətraflı məlumat veriləcək".

**S.Soltanlı partiyadakı qurultaydan narazıların da mitinqdə iştirakını gözləyir:** "Partiyada qurultaydan narazı qalanlar var. Amma bunu qarışdırmaq olmaz. Onlar müsavatçı olaraq siyasi məhbusların azadlığa çıxması üçün dəstək verəcəklər. Hər halda biz belə gözləyirik".

**Partiyanın Məclis üzvü Vurğun Əyyubun ittihamlarına cavab verən başqan müavini qeyd etdi ki, İsa Qəmbər noyabrın 23-də keçirilən ümumrespublika müşavirəsindəki çıxışında xəyanətkar ifadəsi işlədərkən konkret şəxsləri nəzərdə tutmayıb:** "Kimsə bu sözü özünə götürürsə, bu İsa Qəmbərin problemi deyil. Sadəcə, o çıxışı yaxından izləyən biri kimi deyə bilərəm ki, İsa bəy partiyanı qurultaydan sonra böhrana sürükləmək istəyənlərə cavab verərək bildirib ki, bunu edənlər partiyaya xəyanət etmiş olurlar.

Ümumiyyətlə, Müsavat daxilində bu müzakirələr davam edəcək. Həmişə belə olub və 2001, 2005, hətta reytinq sorğusu ilə bağlı 2006-cı illərdə gərginliklər yaşanıb, ağır ittihamlar səslənib, müzakirələr səngiməyib.

Amma bu, Müsavatın parçalanmasına, demokratik mübarizədə iştirakına problem yaratmayıb. Ona görə də bu müzakirələrin yekunlaşacağını gözləmək olmaz. Çünki partiya daxilində demokratik ab-hava var, hər bir müsavatçı fikrini ifadə etmək, təkliflər irəli sürmək, tənqidlər səsləndirmək hüququndan istifadə edə bilir".

❑ E.SALAMOĞLU

# Yeni ildə böyük əfv gözlənilir

## Pərviz Həşimlinin həyat yoldaşı İşçi Qrupuna müraciət edib; məhbus ailələri də təzə ilə böyük ümidlərlə baxırlar

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlər ciddi xarakter almağa başlayıb. İndiyədək hər il bu bayram əfvə olan ümidləri artırır.**

Siyasi məhbus ailələri də Yeni ilə böyük ümidlərlə baxırlar. Xüsusilə İnsan Haqları üzrə Birgə İşçi Qrupunun fəaliyyətinin bərpa edilməsi bu inamı artırır. Artıq İşçi Qrupu siyasi məhbusların azadlığa çıxması istiqamətində işə başlayıb.



Novella Cəfəroğlu

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu** görülən işlərdən danışdı: "Hazırda İşçi Qrupu məhbusların sənədlərini toplayır. Xəstə məhbusların siyahısı hazırlanır. Hələ ki, məhbusların çoxu bizə müraciət etməyib. Bazar ertəsi İşçi Qrupunun növbəti toplantısı olacaq. Önəmli məsələlərin müzakirəsi gözlənilir. Dekabrda əfvə olacaq ümidlərimiz çoxdur. İşçi Qrupu məhz bundan ötrü yaranıb. Hər əfvdə 4-5 nəfər buraxılır. Hesab edirəm ki, bu dəfə daha geniş əfv olacaq. Sadəcə, buna ümidliyik. Əsas diqqət ayıracağımız məsələ xəstə məhbuslarla bağlı olacaq. Onların səhhətindən çox narahatıq. Xüsusilə Leyla Yunus və İntiqam Əliyevin səhhəti çox ağırlaşıb. İşçi Qrupunda danışmalı məsələlər çoxdur. Yaradılan gündən bizə çoxlu sayda ərizələr gəlib. Araşdırdığımız zaman məlum olub ki, günahsız yerə həbsdə olan çoxlu sayda dustaq var. Bu işlərin hamısına qısa zamanda baxmaq mümkün deyil. Hüquqları pozulan adi insanların müraciətləri əsasında biz onların işini diqqətdə saxlayırıq. Adi insanların belə ərizələrinə baxılır".

**Novella Cəfəroğlu Pərviz Həşimlinin həyat yoldaşının İşçi Qrupuna müraciət etdiyini də qeyd etdi:** "Bizə müraciət edənlərin arasında çoxlu sayda tanınmış məhbuslar var. Pərviz Həşimlinin həyat yoldaşı bizə müraciət edərək Pərviz bəyin sənədlərini təqdim etdi. Onun məsələsini daim gündəmdə saxlayırıq. Müraciət etməyən insanlar olsa belə, biz onların məsələlərinə baxacağıq. Biz hüquq müdafiəçiləriyik. Ərizə əsasında insan haqları qorumuruq. Ölkəmizdə daim insan haqlarının qorunmasına çalışmışıq. Ərizə gəldi-gəlmədi, insanların işlərinə baxırıq".

**Hüquq müdafiəçisi İşçi Qrupu bərpa ediləndən olan hücumlara da toxundu:** "20 ildir ki, Azərbaycanda qara "piar" kampaniyası aparılır. Daim belə kampaniyalar olub. Bildiyimiz kimi, İşçi Qrupu yaradılan vaxt belə hücumlar olmuşdu. Nəticədə o zaman fəaliyyətimizi dayandırmağa məcbur olduq. Nəticəsi nə oldu? İndi də əllərindən nə gəlirsə, etsinlər. Bunlara artıq öyrənmişik - həm iqtidar, həm də müxalifət tərəfindən. Hər şeyə rəğmən, işimizlə məşğuluq. "Qızıl amnistiya" təşəbbüsü ilə çıxış etmişik. Nəticəni zaman göstərəcək".

❑ Cavanşir ABBASLI



Fərəc



Sirac

# Müsavatçı gənclər Kərimli qardaşlarının ailəsini ziyarət etdilər

**Noyabrın 27-də müsavatçı gənclər həbsdə olan Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin ailəsini ziyarət ediblər. Gənclər hər zaman Kərimli qardaşlarının ailəsinin yanında olduqlarını və mənəvi dəstəklərini əsirgəməyəcəklərini bildiriblər.**

Ziyarət barədə musavat.com-a Müsavat Gənclər Təşkilatının sədrliyinə keçiriləcək seçkilərlə bağlı yaradılan təşkilat komitəsinin sədri Səma Qabulova məlumat verib. Komitə sədri gənclər olaraq Azərbaycanda günahsız yerə həbsxana həyatı yaşamağa məcbur edilən bütün siyasi məhbusları daim diqqətdə saxladıqlarını qeyd edib: "Bizi sanki Fərəc və Sirac gəlmiş kimi qarşıladılar. Çox təsirli anlar yaşadıq. Kərimli ailəsi ləyaqətli və mübarizdir. Hər birimizin nümunə götürəcəyi ailədir. Maddiyat yox, ləyaqət davası aparırlar. Siracın övladları Atilla və Əminə ata yolu gözləyirlər. Hər qapı açılanda Siracın gəldiyini zənn edirlər. Azyaşlı uşaqlara bu əzabı verənlər gec-tez cavab verəcəklər. Fərəc və Siracın atası Raqif bəyin özünü təmkinli, qürurlu aparması bizə mənəvi güc verdi. Raqif bəy Siracın övladlarına həm atalıq, həm də babalıq edir. Qardaşların anası Əminə xanımın gözlərindən bala həsrəti çəkdiyini anlamaq heç də çətin deyil. Şərlənərək həbs olunmuş Fərəc və Sirac Kərimli qardaşlarının simasında bütün günahsız yerə həbsdə olan məhbuslarımıza azadlıq tələb edirik".

**Fərəc Kərimli iyulun 23-də həbs edilib. Onun həbsindən bir həftə əvvəl qardaşı Sirac Kərimli həbs olunub. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi şəkildə narkotik maddələr əldə etmə, saxlama və satma) cinayət işi açılıb. Onları bu maddə üzrə 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Oktyabr ayında qardaşların həbs müddəti 3 ay artırılıb.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014

**Demək olar ki, hər gün müxtəlif sahələrdə insan hüquq və azadlıqlarının pozulmasının şahidi oluruq. Hesab edirəm, insan hüquqlarının pozulmasının əsas səbəbi ifadə azadlığının pozulmasıdır və beləliklə, bu da öz növbəsində digər hüquq pozuntularının inkişafına təkan verir. Hüquq ictimaiyyətinin bu məsələyə münasibətini araşdıranda tamamilə fərqli bir yanaşmanın şahidi oldum. İctimaiyyətdə çoxları ifadə azadlığı hüququnun pozulmasının əsas səbəbkarı kimi dövləti görür. Bu fikrə qatılıram, lakin hesab edirəm ki, heç də həmişə bu hüququn pozulması dövlət qurumları, məmurlar tərəfindən törədilmir.**

**Həcər ABBASLI**
**Ümid Partiyası Gender Bərabərliyi şöbəsinin müdiri**



# Hüququmuz niyə pozulur?

## Tələbə rüşvət verməklə öncə təhsilin yüksəldilməsini tələb etmək hüququnu itirir, müəllimlər isə rüşvət almaqla əmək haqlarının artırılmasını tələb edə bilmir...

**Bildiyimiz kimi, insan dünyaya gəlir, müxtəlif mərhələləri keçərək böyüyür, təhsil alır, özünü dərk etməyə, cəmiyyətdə yerini tapmağa başlayır.** Bütün bu mərhələlərdə insan fikir ifadə etmək, özünü müdafiə etmək, tənqid etmək bacarıqlarını mənimsədiyi bir halda bu imkanlardan istifadə edə bilmir.

Öncə hər birimizin uşaq olarkən qarşılaşdığı, lakin buna bir o qədər də əhəmiyyət vermədiyimiz məqamları vurğulamaq istərdim. Hər birimiz uşaq olarkən mentalitetə uyğun olaraq valideynlərimizin bizi necə susdurduğunu, fikrimizi ifadə etmək, özümüzü müdafiə etmək istəyərkən "sus", "kəs səsini", "sənə nə qədər demişəm belə etmə", "sən uşaqsan bunu bilməzsən", "böyük danışanda kiçik susar, yerini bilər" ifadələri ilə susdurulduğumuzun şahidi olmuşuq. Təsəvvür edin ki, ailə bir dövlətdir, ata dövlətin qanunverici , ana isə icraedici orqanıdır. Övladlar isə sadə vətəndaşlardır. Belə olduğu təqdirdə, atanın müəyyən etdiyi qanunlar ana tərəfindən icra olunur, övladlar isə bu avtoritar rejimin qurbanına çevrilib, psixoloji olaraq daim bu kimi təsirlərin altında qalır. Uşaq yanlış bir şəkildə hər hansı bir hərəkət etdikdə və ya dəcəllik edib nəyisə sındırdıqda, onu cəzalandırmamışdan əvvəl üstünə qışqırır və ya döyür, özünü müdafiə etməyə və ya üzr istəməyə şərait yaratmır, səhvini anlamağa imkan vermirik. Bu da uşağa mənfi təsir göstərərək gələcəkdə özünü ifadə etməkdə çətinlik çəkməsinə, böyüklərin səhvlərini bildiyi halda deməkdən çəkinməsinə gətirib çıxarır. Nəticədə səhv hərəkətlərə qarşı tənqidi yanaşılmır və ailədə demokratik bir mühitin yaranmasına mənfi təsir göstərir. Bu kimi halları sadalamaqla bitirmək olmaz. Nəzərə alsaq ki, övladlarımız ilk öncə vərdişlərə ailədə yiyələnir, daha sonra məktəbdə, universitetdə, iş həyatında, cəmiyyətdə həmin vərdişləri möhkəmləndirərək hüquqlarını tələb etməyə, qorumağa başlayırlar, o zaman gəlin övladlarımızın ifadə azadlığı hüququnu pozmadan onları tərbiyə edək. Çünki yalnız bu yolla azad vətəndaş yetişdirməyə nail olmaq mümkündür.

**İfadə azadlığımızı pozan digər bir məsələni də qeyd etmək istərdim.** Hər birimiz təhsildə korrupsiyanın olduğunu bilərək bunun pis olduğunu ifadə edir, lakin rüşvət verməyi, rüşvət almağı davam etdirərək ifadə azadlığı hüququmuzu itiririk. Deyə bilərsiniz ki, əmək haqqı yüksək olarsa müəllim niyə rüşvət alsın? Dövlət öncə əmək haqlarını qaldırsa müəllim rüşvət almayacaq, tələbələr məcbur olub oxuyacaq. Tələbə rüşvət verməklə ilk olaraq təhsilin yüksəldilməsini tələb etmək hüququnu itirir (buna görə bir çox gənclər ifadə azadlığı hüququndan istifadə edə bilmir, sərbəst toplaşıb öz fikirlərini sərbəst ifadə etmir), müəllim rüşvət almaqla əmək haqqının çox aşağı olması ilə bağlı fikirlərini ifadə edə bilmir, tələb irəli sürmür. Çünki "alan razı, verən razı" prinsipi daha işləkdir, nəinki tənqid etmək, hüquqları tələb etmək, səhvləri söyləmək və s. Çox maraqlıdır ki, bütün bunları bilərək, niyə hələ də bu kimi səhvləri davam etdiririk? Övladlarımızdan oxumağı tələb etməli olduğumuz halda, niyə onları rüşvətlə oxutdurur, qonşunun övladı universitetə daxil olduğu üçün, övladımızı pul gücünə universitetə düzəltdirir, övladlarımızı peşə seçimində sərbəstlik yaratmırıq. Bunlar hamısı dolayısı ilə ifadə azadlığı hüququmuzu pozur, çünki "nə desəm də xeyri yoxdur, dinləməyəcəklər", "mənim sözümü saymırlar, öz bildiklərini edirlər" və s. fikirlər daha üstünlük təşkil edərək fikri ifadə etməkdə, hər bir məsələyə tənqidi yanaşmaqdan hər birimizi uzaqlaşdırır.

**İş həyatına gəldikdə, yuxarıda göstərdiyim mərhələlərin təsirindən ifadə azadlığının necə pozulduğunu görə bilərik.** Təhsilini rüşvətlə başa vuran bir tələbə lazım olan bilik və bacarığa sahib olmadığı üçün hər hansı bir müəssisəyə də rüşvət və ya tapşırıq yolu ilə qəbul olunub, işləməyə başlayır. Müəssisədə özünə və ya iş yoldaşlarına qarşı olan hər hansı haqsızlıqla üzləşdiyi zaman fikrini ifadə edib həmin hərəkətə qarşı tənqidi yanaşdıqda "xoşun gəlmir, ərizəni yaz çıx" kimi ifadələrlə üzləşir. Düzdür, bu təkcə yuxarıda qeyd olunan şəkildə işə qəbul olunan işçilərə qarşı edilən hərəkət deyil, həm də öz bacarığı və biliyi ilə işə qəbul olunan işçilərə qarşı da edilən hərəkətlərdir. Rüşvət və tapşırıq gücünə işə qəbul olan şəxslərin hesabına digər şəxslər əziyyət çəkir, belə şəxslərin üstünlük təşkil etdiyini nəzərə alsaq, bir nəfərin öz fikrini ifadə etməsi, xoşagəlməz halları tənqid etməsi ilə cəmiyyətin düzələcəyini, hüquqlarını anlaya biləcəyini deyə bilmərik. Buna görə hər birimiz hüquqlarımızı bilməli və öyrənməliyik, sonra isə haqqımızı tələb etməliyik.



# Ümid rəhbərliyi toplantı keçirdi



**Noyabrın 28-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiyanın sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi, müavinlər və şöbə müdirlərinin iştirakı ilə toplantı keçirildi. Toplantıda ölkədə, regionda və dünyada baş verən siyasi proseslər, bələdiyyə seçkiləri, namizədlərin irəli sürülməsində yaranan problemlər, qeydiyyata alınmış namizədlərin təbliğatı və digər məsələlər müzakirə olundu.**



Partiya sədri, millət vəkili İqbal Ağazadə Rəyasət Heyətinin üzvlərinə tapşırıq və tövsiyələrini verdi.





YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014



# Antaqonist ziddiyyətlər

Zamin HACI
zaminhaci@mail.ru

**Dünən bir kitab oxuyurdum, SSRİ vaxtında çap edilib, bunun mündəricatında ənənəvi olaraq leninizmin dünyada inkişafı, imperializmin çürüməkdə davam etməsi haqda səfeh cümlələr var idi. Lakin orda bir ifadə gördüm, çox sevindim. Sanarsan adam hansısa qiymətli üzüyünü itirir, sonra onu şkafın altından tapır - bax, o vəziyyətdə idim. Gərək biz belə qiymətli ifadələri unutmayaq, unutduqca təzədən başımıza gəlir. Uzun sözün qısası, ifadə belə idi: "burjua dünyasındakı antaqonist ziddiyyətlər".**

Bəh-bəh... Ləzzət elədi, vallah. Dünəndən bəri bu "antaqonist ziddiyyətlər"i ürəyimdə təkrar edirəm. İndiki uşaq-muşaqlar bu ifadənin necə qiymətli olduğunu bilməzlər. Bu ifadədə "doktorski kolbasa"nın dadı, Baykal-Amur-Magistralı, canım sənə desin, Çarlz Hayderin 220 günlük aclıq aksiyası yatır. Bu ifadə məni pioner qalstukuma qaytardı. Elə bildim yenidən kluba yığışan camaat üçün "Çalışırıq, vuruşuruq, Lenin baba yolunda!" şeirini səsləndirəcəyəm, rəhmətlik Qulu müəllim də müharibə xatirələrini danışıb tarixi səhvini yenidən səsləndirəcək: "Arzu edirəm siz gənclərin başının üstündən qara buludlar əskik olmasın!"

Əlbəttə, burjua aləmindəki antaqonist ziddiyyətlər hal-hazırda işini görməkdədir, misal üçün, ABŞ-ın 47 ştatında etiraz aksiyaları keçirildi, camaat küçəyə çıxıb dedi ki, nə üçün polis zənci Mayklı vurub öldürübdür. Əli Həsənov, Ramiz Mehdiyev ABŞ-ı tənqid edəndə nə qədər haqlı idilər... (Nə qədərini əlaqədar orqanlara deyə bilərəm - keçən dəfə bəzi məbləğləri açıq yazdım, yanlış anlaşıldı).

Bizim sosialist respublikamızda belə hal mümkündürmü? Qətiyyən. Bizim də zəncilərimiz var, onlar jurnalistlərdir. Polis o jurnalistlərə nəinki atəş açır, əksinə, qara maşına mindirib idarəyə aparır, təhsili, ev-eşiyi, yazıları ilə maraqlanırlar, deyirlər bir az ehtiyatlı yazsın, xarici düşmənlərimiz çoxdur, respublikamızın iqtisadi uğurları da artmışdır.

Halbuki, bizim də burjua-antaqonist ziddiyyətlərimiz olan vaxtlar var idi. Hardasa 19-cu əsrin əvvəllərində Azərbaycanda Qaraqoyunlu-Ağqoyunlu cütlüyü hakimiyyətdə ikən jurnalistləri blokda vurub öldürür, başına torba keçirdib döyür, ayağının üstündən maşınla keçir, şikəst edib göl qırağına atırdılar. İndi isə, şükürlər olsun, profilaktik söhbətlər aparılır, daha başına torba keçirdib oğurlamaq yoxdur.

Yüksək şəraitdir. Dünən belə bir jurnalisti küçədən apardılar polisə, rəis onun sünnət edilib-edilmədiyini, sevgilisi ilə hansısa aşk probleminin olub-olmadığını, asudə vaxtlarında "Qarabağ"ın, yoxsa "Neftçi"nin oyunlarına baxdığını, saçlarının anadangəlmə qıvrım olduğunu, yoxsa sonradan burdurduğunu, toyuq dönəri, yoxsa mal dönəri sevdiyini və sairə ümummilli, hüquq-mühafizə orqanlarının səlahiyyətinə aid məsələləri soruşub. Halbuki, yenə yazıram, Amerikada beləsinə küçədə "qaç görüm, ə!" komandası verir, sonra arxadan güllə vururlar. Nə yaxşı biz Amerikada doğulmadıq!

Hərçənd, ola bilər heç jurnalisti yarım saatlığına aparan idarə polis deyilmiş. Nə biləsən... Ölkəmizdə əsrarlı idarələr çoxdur, bunun hətta bir ara verilişini də qayırırdılar, "Gizli Azərbaycan" adlanırdı. Misal üçün, srağagün Bakının mərkəzində "Əli və Nino" kitab dükanı, "Anadolu" restoranı daxil çoxlu dükan-bazarın tanınma lövhəsini bir qrup qara paltarlı adam söküb aparmışdı, kimsə bilmirdi onlar hansı qalaktikadan gəliblər. Bakı ŞİH, polis, JEK, bələdiyyə, prokurorluq, AzTV, qaz idarəsi, sirk, pensiya fondu, vergilər, siçan-pişik idarəsi və sairə - hamı boynundan atırdı.

**Əgər paytaxtın mərkəzini sökə-sökə gedənləri heç bir dövlət idarəsi tanımırsa, bunun adı antaqonist ziddiyyətdir. Deyəsən bizi təzədən burjuaziya dövrünə aparmaq istəyirlər.**



# "İndi mən elə bir şey deyəcəyəm ki, bu, çoxlarının xoşuna gəlməyəcək..." - Ərəstun Oruclu

## Tanınmış politoloq "Yeni Müsavat"ın yazarlarına ölkənin siyasi rentgenini çəkdi: "Özünü söyüşlə, şantajla, təhqirlə ifadə eləyənlərə ruhi pozuntusu olan insanlar kimi baxıram"

**"Şərq-Qərb" Araşdırmaları Mərkəzinin sədri, politoloq Ərəstun Oruclu "Yeni Müsavat"ın qonağı olub ölkəmizin daxilindəki proseslər, beynəlxalq aləmlə münasibətlər, qarşıdakı dövrdə gözlənilən proseslərlə və digər aktual məsələlərlə bağlı suallarımızı cavablandırdı. Ərəstun Oruclu olduqca informasiyalı şəxs kimi çox ciddi və sensasiya sayılacaq açıqlamalar, təhlillər verdi. Onunla müsahibənin birinci hissəsini təqdim edirik. Ə.Oruclunun redaksiyamıza gəlişi "Yeni Müsavat" qəzetinin 6000-ci sayının işıq üzü gördüyü günə təsadüf etdiyindən tanınmış politoloq öncə qəzetin baş redaktoru və kollektivini təbrik etməklə başladı.**

- Mən sizləri "Yeni Müsavat" qəzetinin 6000-ci sayının çap edilməsi münasibətilə təbrik edirəm. 6000-ci dəfə çap edilməsi qəzet üçün böyük uğurdur. Çünki bu yolda hansı çətinliklər olduğunu məndən yaxşı bilirsiniz. Bütün çətinliklərə baxmayaraq bu gün "Yeni Müsavat" davam edir və ölkədə ən oxunan qəzetdir. Bu, faktdır. Bəzən insanlar mediadan daha çox şey tələb edirlər. Bunlar da ölkədə söz azadlığının yetərli səviyyədə olmamasından qaynaqlanır. Bilmək lazımdır ki, media siyasi mübarizə vasitəsi deyil. Medianın konkret funksiyaları var. Təəssüf ki, bəzən qəzetdən yanlış olaraq siyasi mövqe tələb edirlər. Halbuki siyasətçilərin, siyasi partiyaların funksiyalarına daxil olan işi qəzetdən tələb etməməlidirlər...

***- Ərəstun bəy, 25 illik demokratiya mücadiləsindən sonra cəmiyyətin gəldiyi nöqtə bumu?***

- Yox. Nöqtələrdən biri budur. Bunu sınma nöqtəsi adlandıra bilərik.

***- Azərbaycan insanının, həm də səviyyəli bir oxucusunun mediadan, bir sıra hallarda isə konkret siyasi fiqurlardan tələblərinin bu dərəcədə yüksək olmasının səbəblərini nədə görürsünüz? Həm də bu tələblər bir sıra hallarda aqressiv ifadə olunur...***

- Buna məncə, ilk növbədə ictimai psixologiya və siyasi psixologiya rakursundan baxmalıyıq. Bu yaxınlarda biz Kənan Rövşənoğlu ilə bu mövzuya toxunmuşduq. Azərbaycan cəmiyyətində bir uğursuzluq sindromu yaranıb. Bütün kəsimlər daxil, cəmiyyətin böyük bir hissəsi uğursuzluq sindromu yaşayır. Yəni insanlar özünü ifadə eləyə bilmir, hədəflərinə, məqsədlərinə çata bilmir, səs verir səsi sayılmır, zəhməti layiqincə dəyərləndirilmir, qiymətləndirilmir. Bunların hamısı son nəticədə gəlir uğursuzluq sindromunun cəmiyyətdə kök salmasına səbəb olur. İndi bu mərhələni yaşayırıq. Yeri gəlmişkən, bir çox cəmiyyətlərdə bu olub. Məsələn, götürək 1920-30-cu illərin Almaniya cəmiyyətini. Almanlar getdi Reyman respublikasını seçdi, reformalaşdırdı və burada elə bir müxtəliflik yarandı ki, hətta Reyxstaqda oturan partiyalar öz aralarında anlaşa bilmədilər. Onlar o qədər çox idi, o qədər pərakəndə idilər ki, faktiki olaraq siyasi xaos yarandı. Bu ona gətirdi ki, cəmiyyət marginallaşdı, kiçik hissələrə, maraq qruplarına bölündü və başladı bir-biri ilə mübarizə aparmağa. Birdən aşırı bir siyasi cərəyan meydana çıxdı. Milli sosialistlər-nasistlər Adolf Hitlerin rəhbərliyi altında ortada göründü. Onlar mübarizənin həm ideoloji bazasını hazırladılar, həm siyasi mübarizənin nəzəri fundamental əsaslarını ortaya qoydular. Hitlerin "Mayn kamf" kitabı həmin o mübarizənin nəzəri trafareti idi. İnkişaf bu xətt üzrə getdi. Təbii ki, bu, sonda

### "Cəmiyyətin böyük bir hissəsi uğursuzluq sindromu yaşayır"



### "Artıq partiyalararası deyil, iqtidar-müxalifət arası mübarizə deyil, partiyalardaxili mübarizələr, parçalanmalar gedir"

bəşəriyyət üçün də, almanların özləri üçün də acınacaqlı nəticə verdi. Amma eyni zamanda başqa ölkələrdə müsbət tendensiyalar da olub. Harada ki, cəmiyyət parçalanıb marginal qruplara bölünəndən sonra başqa bir səfərbərlik yaradan pozitiv siyasi qüvvə meydana çıxıb orada müsbət tendensiyalar gedib. Biz bax, həmin o marginallaşma mərhələsini yaşayırıq. Diqqət yetirin, artıq partiyalararası deyil, iqtidar-müxalifət arası mübarizə deyil, partiyalardaxili mübarizələr, parçalanmalar gedir. Bax, bu sıfır nöqtəsinə gəlib çatmaqdır. Kiçik qrupların böyük maraqları ola bilməz. Kiçik maraqların pərakəndə şəkildə toqquşduğu bir mərhələdəyik. Bunun arxasınca inkişaf fəlsəfəsi o yeni gücü meydana gətirəcək. O yeni güc mövcud güclərin içindən də çıxa bilər, kənardan da, cəmiyyətin özünün içindən də çıx bilər.

***- Bunun işartıları varmı ki, kim olacaq o güc?***

- Yox. Bu hələ yoxdur. Ona görə ki, müəyyən qurulma prosesinin başlanması üçün dağılma başa çatmalıdır.

***- Sizin bu nəzəri sistemdə neqativ yekun olsa da, Adolf Hitler dağılmış Almaniyanı toparladı, gücə çevirdi...***

- Başa düşdüm. Siz demək istəyirsinizsə ki, xaos bir qədər də dərinə gedə bilərmi; mən düşünürəm ki, xeyr, onun yeri yoxdur. Proses müəyyən mərhələdə dayanmalıdır. Çünki inkişaf fəlsəfəsi bunu deyir.

***- "Nifrət dili"nin də səbəbi budurmu? Hamı bir-biri ilə izah olunmaz dərəcədə aqressiv danışır.***

- Aqressiyanın səbəbləri var. Aqressiyanın başlıca səbəbi həmin uğursuzluğun yaşanmasıdır...

***- Bəs, dil, nifrət dili?***

- Bu da həmin uğursuzluqdan yaranan aqressiyanın ifadəsidir...

***- Onda buraxaq bizi söysünlər?***

- Onsuz da uğursuzluq sindromu altında olanlar söyürlər. Məsələn, məni söyürlər - heç vaxt reaksiya vermirəm. Özünü söyüşlə, şantajla, təhqirlə ifadə eləyənlərə ruhi pozuntusu olan insanlar kimi baxıram. Mən həkimlik oxumuşam, həkim işləmişəm. Həkim olaraq "pasiyentə" aqressiya ilə yanaşacağamsa, onda başqa vətəndaşa mən hansı nümunəni verirəm. Bunu buraxmaq lazımdır öz axarı ilə getsin. Çünki söyüş, şantaj dili getdikcə özü-özünü məhdudlaşdırır. Diqqət yetirin, məsələn, "kim mənimlə razı deyilsə, o hakimiyyətə işləyir" deyənlər bu gün özləri nə qədər qalıblar? Bir dəfə birinə zarafat elədim. Dedim ki, mən də hakimiyyətə işləyirəm, amma nə üçünsə nankorlar mənim maaşımı sənə verirlər... Bu, bir kompleksdir. Yəqin ki, bu masa ətrafında əyləşənlərin hamısı Freydi oxuyub. Freyd vaxtında hər şeyi analiz edib ortaya qoyub. Psixoanaliz deyir ki, insanlar özlərində olan qüsurları daim bir xof kimi içində gəzdirir və düşünür ki, kənardan bu görünə bilər, nə vaxtsa görünəcək. Ona görə də öndəngəlmişlik edərək, eyni qüsurlarda başqalarını ittiham edir, düşünür ki, sabah bu üzə çıxsa "mən vaxtında demişdim", deyərəm. Bu natamamlık kompleksidir. Hesab edirəm ki, buna reaksiya vermək, cavab verib gündəmə gətirmək əslində o sindromu yaşatmaq, onun ömrünü uzatmaqdır. Onu buraxmaq lazımdır öz axarı ilə getsin. Biz keçən ilki vəziyyəti bu ilki ilə müqayisə eləsək, görərik ki, dairə daralıb, o dairəni ciddi qəbul eləyənlərin sayı da çox azalıb. Bir kiçik kəsim qalıb və həmin kəsim də "kim bizdən deyilsə, satqındır, bizə qarşıdır" ab-havası yaradır. Artıq aqressiya fəlsəfəsinə inananların sayı azalır. Marginallaşma dediyimiz budur. Bilməyənlərə arayış üçün deyim ki, "marginal" ifadəsi Çikaqo sosioloji məktəbi tərəfindən yaradılıb. Azərbaycanda da kifayət qədər təhsilli sosioloqlar, psixoloqlar var. Onlar mütləq işə qarışacaqlar. Mən hələ üç ya əvvəl bir xanım psixoloqa təklif elədim ki, birgə bir mövzu işləyək...

***- Siz bir qrup yaradıb siyasətdəki marginallaşmış xəstələri müalicə edə bilməzsiniz?***

- Mən təbabətdən 15 ildir uzaqlaşmışam. Təəssüf ki, ixtisasca da psixiatr olmamışam, reanimatoloq olmuşam...

***- Bəs, həmin xəstələrə psixoterapiyanı necə həyata keçirmək olar?***

- Bunun üçün Azad İsazadəyə müraciət edin. Çünki Azərbaycanda ən tanınmış psixoterapevt odur. Mən reanimatoloq olmuşam. Təəssüf ki, proseslərə müəyyən reanimasiyalar eləmişəm və sonra peşman olmuşam. Artıq siyasətdə reanimatoloq kimi fəaliyyət göstərmək istəmirəm.

***- Belə bir krizis dövründə, cəmiyyətin bütün qruplarının, təşkilatlarının daxildən bölündüyü bir dönəmdə ortaya sanki bir mərkəzləşdirmə ideologiyası çıxıb. Bunu bəzən görməzdən gəlirik. Amma vəhhabizm bəlasını görməmək mümkün deyil. Gələn məlumatlar göstərir ki, bu illət çox sürətlə yayılır. Bunu necə önləmək olar? Vəhhabizmin radikal İŞİD-çi qanadına heç bir əks-təbliğat təsir etmir. Artıq hər yeri bürüməkdədirlər. Cəmiyyət buna necə müqavimət göstərsin?***

- Təhlükəli tendensiyadır. Yadınızdadırsa, Suriyada döyüşən azərbaycanlıların sayı ilə bağlı ilk dəfə mediaya açıqlama məndən gəlmişdi. Ona qədər Azərbaycanda bu haqda susmağa üstünlük verirdilər. Amma o açıqlama veriləndə biz məsələnin bir çox tərəflərini alman jurnalist dostlarımızın köməyi ilə araşdırmışdıq. Ümumiyyətlə, Suriya prosesində ən ciddi dönüş Almaniyanın ictimai kanalı olan "Doyçe Velle"nin bir məqaləsindən başladı. Həmin məqalədən sonra Qərbdə Suriya prosesinə baxış 180 dərəcə dəyişdi. Buna qədər Bəşər Əsədə qarşı silah qaldıran hər kəs Suriya müxalifəti kimi qəbul edilirdi. Amma həmin məqalədə göstərilirdi ki, azad Suriya ordusu deyilən hərbiləşmiş müxalifət tərkibində döyüşənlərin 95 faizi xarici muzdlulardır. Hətta o göstərilirdi ki, ümumiyyətlə, indiyə qədər nə Əfqanıstanda, nə İraqda bu sayda muzdlu olmayıb. Bu məqalə Qərbdə ictimai rəyi əsaslı surətdə dəyişdi. Hər şey bundan başladı. Məqalədə alman kəşfiyyat mənbələrinə istinad olunurdu. Məqaləni oxuyanda mən gördüm ki, müəlliflərdən biri mənim Nauman Fondunda fəaliyyətim dövründə tanıdığım jurnalistdir. Müraciət edib xahiş elədim ki, azərbaycanlılarla bağlı mənə məlumat versin. Təxminən bir aydan sonra azərbaycanlıların oraya hansı yolla, hansı marşrut üzrə getmələri, təxmini sayları haqqında informasiyalar verdi. Mən rəqəmlərə baxanda dəhşətə gəldim. Həmin məqalədə ilkin rəqəm olaraq Suriyada döyüşənlər içərisində 5500 xarici muzdlu olduğu göstərilirdi. Jurnalist araşdırma apardıqdan sonra mənə yazdı ki, muzdlular sırasında təxminən 250-400 nəfər azərbaycanlı var. Bu təxminən 5-10 faiz deməkdir. Mən bu rəqəmdən ona görə şoka düşdüm ki, Azərbaycan İslam dünyasının təxminən 0,5 faizidir. Suriyada döyüşən azərbaycanlıların sayı isə göründüyü kimi 10 dəfə artıqdır. Bu qədər azərbaycanlını oraya çəkib aparan nədir, axı Azərbaycandan qat-qat uğursuz və sosial baxımdan problemli müsəlman ölkələri var? Ərəblər millət olaraq aqressiv sayılır, amma azərbaycanlılar sülhpərvərdirlər. Bəs nədən muzdluların 5 faizi azərbaycanlılardır? Bütün bunları araşdıranda məlum oldu ki, Azərbaycanda xüsusi şəbəkə işləyir. Bu şəbəkə insanları seçir, Suriyaya göndərir. Əvvəlcə insanı müəyyən şəbəkə qurub oraya cəlb edirlər, sonra seçib, təlimləndirib göndərirlər. Yəni burada konkret olaraq kəşfiyyat prinsipi üzrə iş gedir. Bu gün də gedir. Hakimiyyət bu gün verdiyi bəyanatlara, apardığı həbslərə rəğmən bu prosesin qarşısının alınması istiqamətində ciddi tədbir görməyib.

***- "Ciddi tədbir" deyəndə nəyi nəzərdə tutursunuz ki?***

- Həmin o şəbəkəni dağıtmağı.

***- Bəs, onda niyə dağıtmırlar? O qədərmi ciddi qüvvələr tərəfindən qurulub ki, dağıtmırlar?***

- Bəli, bu ehtimal çox yüksəkdir.

***- Maraq nədir? Azərbaycanı vəhhabiləşdrimək, yoxsa radikal əhval ruhiyyəliləri buradan kənara yönləndirmək məqsədi güdülür?***

- İndi mən elə bir şeyi deyəcəyəm ki, bu çoxlarının xoşuna gəlməyəcək. Azərbaycan hakimiyyətinin özündə də xeyli insanlarda bir anti-şiə ruhu görünür. Məsələn, Azərbaycan ənənəvi olaraq şiələrin dominantlıq təşkil elədiyi məkandır. Bunun tarixi səbəbləri var. Yeri gəlmişkən, bəzən İslam haqqında fikir söyləyəndə müəyyən kəsimlər var başlayırlar ki, bəy sən İslamdan danışma çünki İslamı bilmirsən. Sanki bu, özü İlahiyyat Akademiyasını bitirib. Halbuki, gedib hansısa məsciddə bir səfeh, MTN agenti olan mollanı dinləyib. Amma danışmalıyıq. Çünki bu məsələ artıq cəmiyyətin real problemidir. Şiəliyə münasibət ögeydir...

***- Hakimiyyət tərəfdən, yoxsa cəmiyyətin müəyyən sivil qüvvələri tərəfindənmi?***

- Siyasi partiyaları filanı qoyaq kənara. Çünki bunlar ictimai-siyasi proseslərə ciddi təsir imkanı olmayanlardır. Götürək hakimiyyəti. Məsələn, bu yaxınlarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyir ki, Azərbaycan əhalisinin 60 faizi şiədir... İnam, etiqad elə bir şeydir ki, bu insanın pasportunda yazılmır, heç kəs yaxasından lövhə asıb gəzdirmir. Mən sual verə bilərəm ki, Mübariz müəllim, bu 60 faiz rəqəmini haradan götürmüsünüz. Məsələn, parlamentin komitələrindən birinin sədri bir xarici diplomatla avtomobildə gedir və Əbubəkr məscidinin yanından keçəndə deyir ki, əsl İslam budur. Üzrlü hesab edin ad açıqlamayacağam...

***- Cinsi açıqlayarsınızmı?***

- Kişidi. Ən azı, formal olaraq belədir. Onun diplomata dediyi artıq ögey münasibətin təzahürləridir. Bu, hardan gəlir, nədən qaynaqlanır? Bunu deməyə çətinlik çəkirəm. Bəlkə, ola bilər ki, şiələr çoxluqdur deyə ondan qorxurlar, bəlkə İran amilindən qorxurlar? Bəlkə, bizim bilmədiyimiz başqa səbəblər var? Amma məsələn, biz bu gün dünyaya baxsaq görürük ki, Qərbin İrana münasibəti necə kardinal şəkildə dəyişir. Bu, gözlənilən idi. Bizim qapalı bir ekspert dairəsi var. Orada amerikalılar, almanlar, israillilər, rusiyalılar var. Orda bizim amerikalı ekspert dostlarımızdan biri mənim elektron ünvanıma maraqlı bir təhlil göndərmişdi. Deməli, 22 ekspert ABŞ administrasiyası üçün müsəlman ölkələrindəki təriqətlərlə bağlı geniş bir hesabat hazırlamışdılar. Həmin hesabatda İran haqqında, ümumiyyətlə şiəlik haqqında çox maraqlı yanaşmalar var idi. Məsələn, qeyd olunurdu ki, ABŞ-da sırf İrana görə şiəliyə neqativ münasibət var, əslində isə şiəliyin filan-filan üstünlükləri var. O hesabatı oxuyanda məndə fikir yarandı ki, ABŞ-İran münasibətləri düzəlməyə doğru gedir. Bundan sonra məlum oldu ki, amerikalılar Oman sultanının vasitəsilə il yarımdır İranla danışıq aparırlarmış. Mən hesab edirəm ki, bu bizim üçün sevindirici haldır...

***- Nələr sarıdan sevindirici haldır?***

- ...

*(davamı gələn sayımızda)*

**❑ Etibar SEYİDAĞA**
**Fotolar: C.ABBASLI**

### "Rəqəmlərə baxanda dəhşətə gəldim, göstərilirdi ki, Suriyada döyüşənlər içərisində 5500 xarici muzdlunun 250-400 nəfəri azərbaycanlıdır"

### "Müəyyən qurulma prosesinin başlanması üçün dağılma başa çatmalıdır"



### "Kiçik qrupların böyük maraqları ola bilməz"

# 20 il komediya ilə tragikomediya arasında....



Hüseynbala SƏLİMOV

**Bu həftə bir hadisə səssiz, elə bir diqqət çəkmədən sovuşub keçdi-düz 23 il bundan əvvəl Azərbaycan parlamenti Dağlıq Qarabağın muxtariyyətini ləğv etmişdi.**

Demirik ki, bu hadisə sonradan Dağlıq Qarabağ probleminin bütün gedişini müəyyən etdi, yox, belə olmadı. Amma o, hər halda bu mövzuda düşünmək və müəyyən nəticələr çıxarmaq üçün bir presedent yaratdı.

O vaxtkı radikallığa bu gün bəraət qazandırmaq mümkündürmü? Nəzərə alanda ki, indi Azərbaycan rəsmilərinin ən çox sevdiyi fikir Dağlıq Qarabağa dünyada təsadüf edilən ən böyük statusu verməkdir, görürsən ki, bu, bir o qədər də zəruri deyildi...

Ötən bu zaman ərzində Dağlıq Qarabağ özünə ən yüksək statusu əldə etdiyini düşünür, Azərbaycan isə bu bölgəyə heç bir status vermədiyini, onu sıfır muxtariyyət səviyyəsində saxladığını düşünür...

Prinsipcə, hər iki tərəfdən radikallar razı qala bilər. Amma məsələ də bundadır ki, radikalların mövqeyi heç vaxt münaqişələrin siyasi həllinə gətirib çıxarmır, radikallar prosesi münaqişəyə gətirib çıxarır və sonra da siyasi səhnədən çəkilirlər...

Amma ən maraqlısı bilirsiniz nədir? Bu Qarabağ probleminin bir əsrlik yaşı var. Dağlıq Qarabağın muxtariyyəti haqqında qanun ilk dəfə Azərbaycanın Ali Soveti tərəfindən hələ 1981-ci ildə qəbul olunmuşdu. Həmin qanun Qarabağa geniş səlahiyyətlər verilməsini nəzərdə tuturdu...

Biz bu səlahiyyətlərə diqqət yetirdik. Onların içində belə bir məqam da vardı ki, Dağlıq Qarabağa həm də müdafiə sahəsində səlahiyyət verilirdi...

Bəs bu nə demək idi? O vaxt, yəni hələ sovet dövründə, 1981-ci ildə kiçik bir vilayətin müdafiə səlahiyyətləri nəyinə lazım idi? Onlar bu səlahiyyətlə nə edəcəkdilər?

Təbii ki, bu suallara 1981-ci ildə cavab verilməli idi. Amma hələ də bu məsələnin üstündən sükutla ötüb keçirlər. İndi baxıb görürsən ki, Dağlıq Qarabağın erməni əhalisinin indiki tələblərində hətta müəyyən məntiq var.

Bu bölgənin hələ 80-ci illərdə çox geniş səlahiyyətləri olub. Ona görə də onlara Azərbaycan rəsmilərinin indiki bəyanatları və vədləri o qədər də maraqlı görünmür.

Əgər bu bölgənin hələ 1981-ci ildə müdafiə sahəsində belə geniş səlahiyyətləri var idisə indi onların müəyyən hərbi strukturlara malik olması təəccüblü görünməlidirmi?..

Bir hüquq müdafiəçisi bizə belə bir epizod danışmışdı. Seminarların birində ona bir Ermənistan vətəndaşı yaxınlaşıb deyibmiş ki, Azərbaycan Dağlıq Qarabağa nəzarətini hələ 70-ci və 80-ci illərdə itiribmiş...

Faktlara baxanda, o dövrün məmurlarının dediklərini araşdıranda görürsən ki, həmin Ermənistan vətəndaşı müəyyən mənada haqlı imiş...

Amma bu, hələ hamısı deyil. Tragikomediyanın finalı hələ irəlidədir. İndi Azərbaycan Dağlıq Qarabağa hansı səlahiyyətləri vəd etmir? Hətta bir neçə il bundan əvvəl, Heydər Əliyevin dövründə bu bölgəyə Tatarıstanın statusu vəd edilmişdi. Dağlıq Qarabağ və Ermənistan buna razı olmadı...

Bir neçə il sonra İlham Əliyev həmin bölgəyə Avropada təsadüf edilən ən yüksək muxtariyyətləri vəd etdi. Amma Ermənistan və Dağlıq Qarabağ yenə də razı olmadı...

Elə bu səbəbdən 23 il bundan əvvəlki hadisəni, Dağlıq Qarabağın muxtariyyətinin ləğvini düşünəndə adam burada bir məntiq tapa bilmir. Belə qəbul etmək olar ki, o vaxt bu, impulsiv qərar olub, axıra qədər düşünülməyib...

Amma kiçik bir ekskurs Azərbaycanın on illər ərzində Dağlıq Qarabağ uğrunda apardığı mücadilənin bütün palitrasını sərgiləmək iqtidarındadır. Bu nəsil özündən sonrakılara nə deyəcək? Deməyə söz varmı?

Nəzərə alanda ki, bu ölkədə nəsillər hesabat verməyi xoşlamır, bir o qədər də qorxulu bir şey yoxdur. Amma bu günün siyasi konyunkturası əbədi deyil və dərindən fikirləşəndə nəsillər qarşısında da hesabat var, tarix qarşısında da...

Amma indi nə edirlər? Telekanallar 1993-cü ilin iyununa qədər işğal olunmuş rayonları xatırlayırlar. Amma sonradam işğal olunan altı rayon haqqında tamam sükutdur, sanki onlar heç olmayıb, sanki Azərbaycanın heç belə bölgələri olmayıb...

**Təbii ki, bu, indiki siyasi konyunkturanın məntiqi və tələbidir. Amma o, heç də əbədi deyil. Vaxt gələcək çox şey dəyişəcək - 1981-ci il də yada düşəcək, 1993-cü ilin payız ayları da...**

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014



# Heç kimə bənzəməmək mərəzi

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Bu ilin mart ayının sonlarında Türkiyədə bələdiyyə seçkiləri keçiriləndə Qaziantep şəhərinə müalicəyə getmişdim. Universitet xəstəxanasında cərrahi əməliyyat öncəsi müayinədən keçirdim. Bu ucqar əyalət şəhərində məni hər cür qayğı ilə qarşılayan dostlarım canıyananlıqla mənə dedilər: “Mahal bəy, bu üç günü hoteldə keçirin, şəhəri gəzin, biz ölkədə bələdiyyə seçkiləri keçirilir”. Hansı telekanala baxırdın - bu seçki ilə bağlı coşqu yaşanırdı. Sanki yaşamaq, mövcudluq uğrunda böyük savaş gedirdi. Seçki başa çatdı, həyat əvvəlki axarına qayıtdı.**

“Nədən bələdiyyə seçkilərinə bu qədər önəm verirsiniz?” - deyə dostlarıma sual verdim. Onlar bu şəhərdə həyatın daha çox bələdiyyələrdən asılı olduğu ilə bağlı bütün bilgiləri mənə çatdırmağa çalışdılar... Mən onda bildim ki, təmizliyinə, səliqə-sahmanına heyran qaldığımız bu ucqar şəhərdə əsas qayğılar məhz bələdiyyələrin çiyninə düşürmüş. Üstəlik də məhz bələdiyyə seçkiləri ölkədəki siyasi partiyaların nüfuzunun əsas göstəricisi idi. Məhz bələdiyyə seçkisi ölkənin taleyində açar rolu oynayır...

Bələdiyyələrin tamamilə mənasız bir qurum olduğu ölkədən gələn kəs üçün bütün bunlar qeyri-adi görünürdü...

Yeri gəlmişkən sizə bir sual verim: neçə dəfə bizim ölkədə bələdiyyə seçkisi keçirilib və onlar nə ilə yadda qalıb. Yaşadığınız şəhərdə, eldə-obada bu qurumun varlığını hiss edirsinizmi?

Bəlkə də ölkə parlamentində qəbul olunan qanunların sayına görə bələdiyyələrə göstərilən “qayğı” birinci yerdə durur. Elə hey eşidirik ki, bələdiyyələrin səlahiyyəti artırılır, onlar yerlərdə daha böyük ixtiyar sahibi olurlar. Gerçək durumda isə bu qətiyyən hiss olunmur...

Yadınızdadırmı, bələdiyyə qurumlarının yaradılması Avropa dəyərlərinə qovuşmaq yolunda mütləq şərtlərdən biri idi. Hakimiyyət dairələri də bu şərtləri qəbul edib, tələm-tələsik seçkilər keçirdi. Artıq 15 ildən çoxdur ki, bu qurum fəaliyyət göstərir, heç kimin maraq dairəsində olmayan seçkilər üçün dövlət büdcəsindən vəsait ayrılır. Daşı isə düşdüyü yerdən tərpətmək mümkün olmur.

Bircə dəfə də normal parlament, prezident seçkisi ölkədə tam səlahiyyətli bələdiyyə seçkisi keçirmək mümkün idimi? Yaxud bircə istisna nə ilə nəticələnərdi? Avtoritar idarəçiliklə insanların sayıb-seçdiyi bələdiyyələrin fəaliyyəti bir araya sığardımı?

İndi nədən bələdiyyələr oyuncaq, karikatur bir quruma döndü, deyirik? Bunun bircə cavabı var - onun mövcudluğu üçün gərəkli olan şərtlər avtoritarizmlə bir araya sığmır. İstənilən halda korrupsiyanın bütün dövlət institutlarından üstün tutulduğu bir ölkədə bu şərtlərdən kənarda, istisna kimi hansısa ictimai qurum mövcud ola bilməz. Dövlət idarəçiliyinin formatı dəyişməyənə qədər bələdiyyələrin bizim istinad yerimiz olacağına bel bağlamayın... O, beləcə dekorasiya rolu oynayacaq...

Bir məsələ isə illər boyu havadan asılı qalıb: niyə ölkə əhalisinin az qala yarısının məskunlaşdığı meqapolisdə - Bakıda böyük şəhər bələdiyyəsi yoxdur? Zaman-zaman bunun zəruriliyi qeyd olunsa da hakimiyyət dairələri qulaq ardına vurub. Məsələ ondadır ki, Bakı artıq çoxdan hakimiyyətdə olan ailə və nazir oliqarxlar arasında gəlirli sahələrə görə bölünüb. Heç kim istəmir ki, bu məkanda əl-ayağa dolaşan əlavə bir ictimai qurum yaransın...

Rayon bələdiyyələri icra başçılarının əlində manipulyasiya vasitəsi olub. Kəndlərdəki bələdiyyələr isə yerlərdə hakimiyyətin irəli sürdüyü qadağaların icrasına nəzarət edirlər.

Az qala bir aydan sonra növbəti bələdiyyə seçkiləri keçiriləcək. Ötəri bir sorğu keçirin - toplumun bundan xəbəri varmı və kimlərin bələdiyyə üzvü seçilməyini istəyir. Lap seçki günü məntəqələri də göz altına alın - barmaqla sayılacaq qədər seçən və seçilən görəcəksiniz.

Ölkə KİV-ləri də bu mənasız seçkiyə diqqət göstərmirlər. Nə telekanallar, nə xəbər portalları, nə qəzetləri təbliğat ab-havası yaratmaq istəmirlər. Elə rəsmi dövlət qurumlarının da yadına düşmür. Əsas odur ki, bu prosedur baş tutsun. Parlament, prezident seçkiləri kimi....

**Niyə bir coğrafi məkanda məskunlaşan qurum kimi bu qədər laqeydlik axarına düşdük? Niyə bir addım qabaqda bizi gözləyən sınağa indidə hazırlaşmırıq? Bütün atributlara görə Azərbaycan doğrudan da analoqu olmayan ölkədir.**

---

**Bilirsən ağlıma nə gəldi? Düşündüm ki, mən həm də bu günə qədər "qara siyahıda" olan mediada yazdığına görə xəcalət çəkən, bu qaraçı dəstəsinin əlində girinc qalan həmkarlarıma; APA-da, "Yeni Müsavat"da, “Teleqraf” layihələrində işləyən kompleksli adamlara pulsuz terapiya seansları təşkil edirəm. Öz yazılarımla. Deyirəm ki, "Bundan sonra əzilməyin.**

Əli ƏKBƏR



# Elnur Astanbəyliyə açıq məktub

Müxbirsənsə müxbirliyini et, yazarsansa adam kimi yaz, maraqlı yaz, informativ yaz, zövq formalaşdır, oxucu kütləsi hədəflə və əgər sənin bir qiymətin varsa, oxucu səni harda olsan izləyəcək. Qonorar da hardan gəlir, bu səni maraqlandırmamalıdır, çünki sən bir işçi olub rüşvət və korrupsiyanın zığ vurduğu şirkətdə, holdinqdə fəhlə işləsən, dürüstlüyün sorğulanmaz."

Sən, dostum Elnur, "Seymuru itirmişik" yazırsan. Çünki Seymur "jalə şirəsində yazır"mış. Özü də bunu kultura.az-dan edirsən, sağ ol. Azadlıq qəzetində etməyəcək qədər nəzakətli və alicənab adamsan. İstehza etmirəm - səni yaxşı tanıyıram, münasibətimiz var, tərsliyin də olmasa, çox "cool" adamsan. Mən də bir zamanlar bu stereotipləri daşıyırdım, Seymur isə indiyə qədər daşıyır - "kimi və nəyi, haradan vurmaq olar ki, yanlış yozulmasın". Ona görə "Qrantyeyənlərin dağılan tifağı"nı kultura.az-da verdim, "Yeni Müsavat"da yox. Çünki sənin dostların, əzizim Elnur, hürüşəcəkdilər.

Halbuki mənim hədəflədiyim nədir? Çox oxunmaq, çox qıcıqlandırmaq, auditoriyamı genişləndirmək. Yəni hər yazar nə istəyirsə, o. Azərbaycanın gənc intellektuallarının, fədakarlarının sahib olduğu və sözün həqiqi mənasında heç kəsə aid olmayan, "yiyəsi" olmayan, analoqu olmayan, unikal, avara və kefkom portal Kultura.az-da yazımın çıxmasına peşman deyiləm, amma sənin yazının nə üçün "Azadlıq"da getmədiyini anlamıram. Sən kultura.az-ın hər zaman sevimli yazarı, orada ev yiyəsisən, amma sənin ora yazmağın, təkcə portala reytinq qazandırmaq arzundan doğmayıb. Düz başa düşmüşəm?

Hələ mən Seymura verdiyin yersiz sualı demirəm. Biz sənin dostlarınıq, bir-birimizi yaxşı tanıyırıq. O hansı davadır ki, sənə dostlarını publik qınama haqqı verir? Sən hər yoldan keçən deyilsən deyə, tənqidini dəyərli sayıb (Seymurun da cavab verməyəcəyini bilərək), "söhbətə" qarışıram. Sən axı 22 yaşlı, əyalətçi çılğın radikal deyilsən. Sən zatən məclislərdə danışdığın açıqlıqda və səmimilikdə köşələrini də yaza bilsən, sənin qiymətin olmaz.

Bütün hallarda sənin "next"in vurulmalıdır qardaş, bunu çox istəyirəm, sənə arzulayıram və necə deyərlər, bunları publik yazdığım üçün də üzr istəyirəm. Sənin bu bəzən, adamı çərlədən direşmişliyin, belə çox dözülməzdir. Mən buna dözə bilmirəm.

Güman edirəm ki, qəzetinə sənin də sualların var. Bunları publik səsləndirə bilirsənmi? Bilmirsənsə, aramızdakı fərq nədir? Maraqlanmalı olduğun o qədər suallar var ki, dostum, bəlkə də onlar sənə əzab verir, amma sən o sualları köşənə daşımaqda acizsən. Sənin hipertfrofik ədalət hissinə bələdəm deyə, o qəzetlə nə təzadlar yaşadığını bilirəm. Axı sən vicdanlı adamsan. Mən isə bu təzadı yaşamıram, təsəvvür et. Heç Seymur da yaşamır "jalə şirəsində" üzməklə.

Bir zamanlar mən də xora qoşulub indi yazdığım qəzeti söyürdüm, amma əsas olan nədir, bilirsənmi? Müqaviləyə əsadət. Müqavilə əsadır, iş sahibi ilə işçi üçün anayasadır. Təbii ki, yazılı olması şərt deyil, şifahi də bəs edir. Mən buna hər zaman sadiq qalındığını görmüşəm. Dəqiqlik və dürüstlük görmüşəm. Sənin yazdığın qəzetdə isə bu dürüstlük yoxdur və sən də bunu gözəl bilirsən.

Rauf Arifoğlu ilə ömrümdə bircə dəfə görüşüb söhbət etmişəm. Bu hadisə də baş verib Zürich şəhərində. Qırx dəqiqəlik görüş idi, ordan-burdan danışdıq. İlk və son canlı ünsiyyətimiz oldu. Masada bir dostumuz da vardı. Bir əhvalat danışdım, Rauf Arifoğlu soruşdu ki “Bunu yazmaq olarmı?” Baxmayaraq ki, dövlət sirri deyildi, dəhşətli bir fakt heç deyildi, mən yenə də “məsləhət deyil” dedim, amma gördüm ki, çox məyus oldu. Dedi “Mən xəbərçiyəm, bu, refleksivdir. Dayana bilmirəm, mütləq ötürməliyəm”. Dedim “mümkünsə ötürməyin”. Dedi “çox çətinliklə, istəməyərək ötürməyəcəm, ok.”

Gördüm ki, mənə belə şeyləri anlamaq çətindir. Bu, xəstəlikdir. Necə yəni oturmusan məclisdə, hər şeyə, hər eşitdiyinə xəbər, material gözü ilə baxırsan? Yəqin ki, media adamı belə də olmalıdır. Deməli, mən heç vaxt media adamı olmayacam, əgər media adamı belə olmalıdırsa.

Hiss etdiyim bilirsən nə oldu? Rauf Arifoğlu dosdoğmaca qardaşı Azər Ayxanla yol gedən yerdə, iraq olsun, Azəri maşın vursun, Rauf əvvəl telefonunu çıxarıb yerdə yatan qardaşının şəklini çəkər, onu qəzetə ötürər, üç cümləlik xəbər də əlavə edər və yalnız bundan sonra təcili yardım çağırar, təşvişə düşər.

Mübaliğəm sinik və yersiz görünə bilər, amma mən situasiyanı ancaq bu cür təsvir edə bilərdim. Qırx dəqiqəlik görüşdən anladığım budur. Odur ki, Batumidən nə çəkdi, niyə çəkdi, niyə tez ötürdü, şərh verdi filan - bu sualların cavabı sadədir - ürəyi belə istədi. Və bunlar biz yazarları heç bağlamaz. Etirazı olan varsa, adam kimi etirazını bildirsin, yazısını yazıb yollasın, münasibət göndərsin ora. Yeni hərəmizin üstünə bir tərəfdən düşməyiniz, böyük haqsızlıqdır. Mən bu söhbətlərə heç girişməzdim, konkret adlar çəkilərək "Yeni Müsavat"da niyə yazırlar?" sualı gündəmə oturmasaydı. Bu terrordur və madam ki, hamı başını salıb aşağı sizin qınamalarınız altında əzilir, bundan belə onların hüquqlarını mən müdafiə edəcəm (pafosa görə üzr istəyirəm).

Nə isə Elnur, vaxtını çox almayım. Bilirəm ki, səni narahat edən, bəlkə də dost məclislərində xumarlanıb (adətimiz üzrə) üsyan etdiyin məsələlər var. Son olaraq, icazə ver, onları mən sənin yerinə səsləndirim və sənin üslubunda.

Prezident seçkilərinə iki ay qalmış “Azərbaycan saatı” peykin vurulması(!) bəhanəsi ilə niyə susdu? Hökumətdən susmaq müqabilində pul alındımı? Qarşılığında həm də partiyaya qərargah tutmağa izn verildimi? Niyə seçkilərdən 2-3 ay sonra TV təzədən qayıtdı? Bilmirsiniz ki, hökumətə atanda adamın qərargahına bomba qoyub partladarlar?

Hansısa bir partiyada gənclər təşkilatına rəhbərlik edən adam, xüsusi xidmətlə əlaqəli olsaydı, yenə eynən bu cür susardınmı?

Özünü şiəliyə vurmuş müəllifiniz, partiya mətbuat sözçünüz Tiflisdə sülənib Avropaya çıxış axtarırsa, bir ona deyə bilmirsənmi bir qədər kirisin, Avropada yaşayanlarla işi olmasın? Axı onun da son sığınacaq yeri deyəsən buradır (ABŞ-da qala bilmədi, futbolladılar okeanın bərisinə).

Dostun Xədicə İsmayıl sənin baş redaktoruna Avropada qrant almaqda kömək edibmi? Bu, nə qrantıdır və hesabatı verilibmi? Dostun Xədicə çətin vəziyyətdə qalmayıb, avropalılarla üz-göz olmayıb ki? Dostun da sapına qədər yurdçudur, ay Elnur. Qrantı da özününkü üçün tapır, görürsən? "Özününkü" pul məsələlərində, yumşaq desək, çox punktual olmasa belə, tapır.

Ümumiyyətlə, Elnur, sənə bütün bunlardan, babat məbləğlərdən, bir qara qəpik çatdımı? Özü on yeyəndə, sizə heç olmasa üç-beş verirmi? Əminəm ki, yox. Elə həmin məhrumiyyətlər, borc-xərc, məişət, əsəb, stress, düz deyirəm?

Can qardaş.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



Yeni Müsavat
N 292 (6001) 29 noyabr 2014

# Sərkisyanın impiçmenti haqda layihə Ermənistan parlamentində

## O vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunur; ölkədəki iqtisadi vəziyyət və helikopter olayı Ermənistan prezidentinə qarşı etirazları artırıb

**Ermənistan prezidenti postunu tutan Serj Sərkisyan vəzifə səlahiyyətlərini aşıb. Bu barədə "Erməni Millli Konqresi"dən deputat Nikol Paşinyan tərəfindən hazırlanaraq parlamentə təqdim olunan "Ermənistan prezidenti postunu tutan Serj Sərkisyanın impiçmenti haqqında" qərar layihəsində deyilir. Layihə "Aykakan Jamanak" qəzetində dərc edilib.**





**Sənədə görə, prezidentin səlahiyyət həddini aşmasının təzahürlərindən biri 2009-cu ilin iyununda Sərkisyan tərəfindən 2008-ci ilin 1-2 mart hadisələri üzrə faktların toplanması üzrə Qrupun buraxılması barədə əmr imzalanmasıdır.**

Qərar mətnində göstərilir ki, Sərkisyan, həmçinin dövlətə xəyanət edərək 2009-cu il oktyabrın 10-da Sürixdə Ermənistanla Türkiyə arasında protokol imzalayıb. Protokol tarixi sənədlərin və arxivlərin öyrənilməsi məqsədilə ikitərəfli hökumət komissiyasının yaradılmasını nəzərdə tuturdu. Layihədə deyilir ki, beləliklə, Sərkisyan "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanınmasının qarşısını almaq üçün vasitə əldə etməkdə Türkiyəyə xidmət göstərdi.

**Deputat hesab edir ki, 2011-ci ilin ortalarında Rusiya Ermənistan üçün qazın qiymətini artırsa da, Sərkisyan bu barədə istehlakçılara məlumat verməməklə də öz vəzifə səlahiyyətlərini aşıb.** Paşinyanın fikrincə, 2013-cü ildə Sərkisyanın öz səlahiyyətini aşması ağır nəticə verib. Belə ki, Ermənistan hökuməti yığılan borcun müqabilində "ArmRosQazprom" şirkətindəki 20 faizlik payı Rusiyaya verib ("virtualaz.org").

S.Sərkisyanın impiçmenti ilə bağlı qərar layihəsinin Ermənistan parlamentində qəbul olunacağı o qədər gözlənilən olmasa da, hər halda son vaxtlar bu ölkədəki vəziyyət erməni prezidentin durumunun heç də yaxşı olmadığını göstərir. Son dövrlər Ermənistanda ona qarşı ciddi etirazlar var. Bu etirazlar xüsusən də Ermənistanın Rusiyanın proyekti olan Avrasiya İqtisadi Birliyinə daxil olmasından sonra daha da artıb. Son bir neçə ayda "Çiçəklənən Ermənistan", Erməni Milli Konqresi və "İrs" partiyalarının yaratdığı "Parlament üçlüyü" adlanan müxalif birlik ardıcıl olaraq kütləvi aksiyalar keçirərək ökədəki iqtisadi vəziyyətə, Sərkisyan hakimiyyətinin siyasətinə və Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulmasına etirazlarını bildiriblər.

Onlar S.Sərkisyanı istefa verməyə çağırıblar. Sərkisyana müxalif qüvvələr hesab edirlər ki, onun hakimiyyətinin yanlış siyasəti, ölkədəki korrupsiya və rüşvətxorluq ucbatından yaranmış cəhənnəm həyatı nəticəsində Ermənistan batan gəmiyə çevrilir.

**Son vaxtlarda bu ölkədə başlayan sürətli bahalaşma və dolların kursunun qalxması, dramın kursunun isə düşməsi ermənilərin hakimiyyətdən konkret olaraq, S.Sərkisyandan narazılığını daha da artırır. Ona müxalif qüvvələr isə mümkün qədər bu vəziyyətdən yararlanmaq istəyirlər.**

**Xüsusən də, noyabrın 12-də cəbhənin Ağdam istiqamətində Azərbaycan ordusunun mövqelərinə hücum edən Ermənistana məxsus hərbi helikopterin vurulmasından sonra Sərkisyan hakimiyyətinin Qarabağ münaqişəsi ilə bağlı mövqeyindən də ciddi narazılıq var.** Ermənilər bu hadisəni atəşkəs dövrü başlayandan bəri ən ciddi itki hesab edirlər. Sərkisyan hakimiyyəti isə bir sıra populist bəyanatlarla cəmiyyətdəki etirazları yatırmağa çalışır.

Qeyd edək ki, həmin hadisə zamanı üç erməni pilot ölüb.

Yeri gəlmişkən, Ermənistanın hərbi helikopteri Azərbaycan ərazisində vurulandan sonra ilk günlər ərzində bir sıra beynəlxalq dairələrdən buna etirazlar bildirilsə də, artıq beynəlxalq səviyyədə bu hadisənin ermənilərin təxribatı nəticəsində baş verdiyi qeyd olunur.

ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri və ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza Ermənistan hərbi helikopterinin Azərbaycan əsgərləri tərəfindən vurulması hadisəsinə münasibət bildirərkən deyib ki, helikopterlərin həmin ərazidə uçuşu düzgün deyil: "Bu, provokasiyadır. Mən bilmirəm, bu hadisədən əvvəl orada nələr baş verib. Ermənistan tərəfində və Azərbaycan tərəfində nə baş verdiyini dəqiq deyə bilmərəm, ancaq onu bilirəm ki, gərginlik yaşanan zonada uçmaq olmaz. Əlbəttə, yaxşı olardı ki, Azərbaycan əsgərləri helikopteri vurmayaydı, amma bu ərazi müharibə zonasıdır. Belə təxribat törətmək olmaz. Gərgin bir vaxtda orada hərbi təlim keçirilməsi də düzgün deyil. Ukraynada baş verənlərdən sonra çoxları elə düşünə bilər ki, bu, Rusiyanın işidir və Moskva istəyir ki, Ermənistan və Azərbaycan arasında destabilizasiya yaratsın. Fikrimcə, indi sakitlik lazımdır".

**M.Brayza helikopterin məhv edilməsindən sonra Ermənistanın atəşkəsi daha tez-tez pozmasının gözlənilən olduğunu vurğulayıb:** "Əgər biz sülh və qardaşlıq içində - cənnətdə yaşasaydıq, təbii ki, Azərbaycan bu helikopteri vurmazdı. Aydındır ki, bundan sonra Ermənistan Azərbaycan ərazilərini atəşə tutacaq. Bu, çox təhlükəli vəziyyətdir. Mən ona görə dedim ki, yaxşı olardı ki, Azərbaycan tərəfinin helikopterə reaksiyası olmayaydı. Mən bunu məntiqi nöqteyi-nəzərindən belə deyirəm. İndi Minsk Qrupunun qarşısında duran ən başlıca məsələ vəziyyəti düzəltmək üçün iki ölkə arasında yeni etibar tədbirləri görməkdir. Bu istiqamətdə girovların dəyişdirilməsi bir addım olardı. Sonda isə Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etmək olar. Bu görüşə ABŞ, Fransa, Rusiya prezidentləri də cəlb etmək mümkündür, lakin düzünü desəm, mən Rusiyanın buna hazır olduğuna şübhə edirəm".

**M. Brayza Fransa prezidentinin Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etdiyini xatırladaraq bunun sadəcə, bir addım olduğunu söyləyib:** "Putinin təşkil etdiyi Soçi görüşü isə böyük şou idi. Prosesdə dönüş üçün ABŞ prezidentinin və dövlət katibinin öz fransalı həmkarları ilə birgə fəallığı lazımdır. Bu fəallığa onların rusiyalı həmkarları da qoşula bilər. Lakin indi Rusiyanın Ukraynada elədiklərindən sonra mən şübhə edirəm ki, Rusiya Azərbaycan və Ermənistan arasında münasibətlərdə stabillik istəsin".

# Ukrayna mətbuatı Azərbaycanın müharibə hazırlığından yazdı

## Bu ölkənin XİN-i isə Ukrayna jurnalistlərini Azərbaycan qanunlarına hörmətlə yanaşmağa çağırdı

**Ukraynan Xarici İşlər Nazirliyi (XİN) ölkə jurnalistlərini nazirliyin tövsiyələrinə qulaq asmağa və Azərbaycan tərəfinin Dağlıq Qarabağa giriş qaydalarına hörmətlə yanaşmağa çağırıb. Bu barədə Ukrayna XİN-in mətbuat katibi Yevgeni Perebiynis "1+1" kanalının "15 respublika" verilişinin yayımı ilə bağlı Azərbaycan səfirliyinin Ukraynaya nota təqdim etməsinə dair "Ukrinform"a şərhində bəyan edib: "Biz, əlbəttə, Azərbaycan tərəfini məlumatlandırmışıq ki, saytımızda (proqramda) barəsində söhbət gedən regionlara səfər etmək üçün Azərbaycanın müvafiq orqanlarına müraciətin vacibliyi barədə aydın şəkildə yazılmış tövsiyələr var. Və biz daim bütün jurnalistləri həmin normalara dəqiq əməl etməyə çağırırıq".**

O qeyd edib ki, jurnalistlər tərəfindən Azərbaycan Respublikasının qaydaları pozulub, eləcə də Ukrayna XİN-in özünün tövsiyələrinə etinasızlıq göstərilib: "Bu, özəl kanaldır, biz əlbəttə ki, özəl kanallara hansısa göstərişlər verə bilmərik. Lakin istənilən halda biz bütün jurnalistləri həmin normalara əməl etməyə çağırırıq. Müvafiq olaraq, biz öz mövqeyimizi bir daha kanal rəhbərliyinə çatdıracağıq".

Qeyd edək ki, noyabrın 26-da Azərbaycanın Ukraynadakı səfirliyi öz saytında Ukrayna XİN-ə jurnalistlərinin Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa səfər etməsi və "1+1? televiziya kanalının Azərbaycanın əleyhinə veriliş hazırlaması ilə əlaqədar nota göndərilməsi barədə məlumat verib.

Notada Azərbaycan səfirliyi qeyd edib ki, bu proqram "Azərbaycan Respublikasının ictimai-siyasi sistemini ləkələyir, müstəqillik illəri ərzində əldə olunan uğurlar və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və səbəbləri təhrif edilir". Proqramın Ukrayna və Azərbaycan arasında dostluq və strateji əməkdaşlıq münasibətlərinə ciddi ziyan vurduğu qeyd edilir.

Qeyd edək ki, son vaxtlarda Ukrayna mətbuatının Qarabağ münaqişəsinə marağı artıb. Bu ölkənin müxtəlif media qurumları bu mövzuya dair materiallar verirlər.




Məsələn, parlament dövlət büdcəsini təsdiqləyəndən sonra Azərbaycan hərbi xərclərə ayrılan vəsaitin məbləğini artırmasını əsas götürən ukraynanın Trust.ua portalı bunu müharibəyə hazırlıq kimi qiymətləndirir.

Anspress-in məlunmatına görə, saytın bununla bağlı hazırladığı məqalədə qeyd edilir ki, prezident İlham Əliyevin tapşırığına əsasən Azərbaycan ordusuna gələn il 5 milyard dollar xərclənəcək. Məqalədə bu növbəti rekord göstərici kimi təqdim olunur və bildirilir ki, üstəlik bu məbləğ Ermənistanın ümumi büdcəsindən 2 milyard dollar çox olacaq.

Nəşr qeyd edir ki, Azərbaycan regionda hərbi idxalı 150 faizdən yuxarı çoxaldan yeganə ölkədir. 85 faiz silahını isə Azərbaycan Rusiyadan alır, təkcə 2013-cü il üçün Azərbaycan Rusiyadan 3,5 milyard dollarlıq silah alıb.

2013-cü ildən etibarən Rusiya ilə quru qoşunları hərbi texnikası üzrə müqavilələr silsiləsi isə təəccübləndirməyə bilmir. Buraya 94 ədəd T-90C tankları, 100 ədəd pyadalar üçün hərbi vasitələr BMP-3, 18 ədəd özüyeriyən "Msta-C" artileriya qurğuları, 18 "Smerç" reaktiv atəş sistemləri, 18 ədəd özüyeriyən "Vena" artileriya qurğuları o cümlədən 6 ədəd "Buratino" yeni modifikasiya sistemli TOS-1A "Solnsepek" ağır odsaçan artilleriya sistem alayı daxildir.

Nəşrin qeyd etdiyinə görə, 2015-ci il üçün Azərbaycan Ermənistanın hərbi xərclərindən 10 dəfə çox orduya pul ayıraraq səbr kasasının dolduğu mesajını verir.

**Qeyd edək ki, Azərbaycanın hərbi büdcəsini 5 milyard dollara çatdırması Ermənistanda da ciddi narahatlıq yaradıb. Azərbaycan cəmiyyətində isə bu ordumuzun daha da güclənməsi üçün çox vacib bir amil kimi qiymətləndirilir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ



# Müdhiş antiheroin əməliyyatından 5 ay ötdü

## 2 ton 790 kiloqramlıq heroin müəmması isə davam edir...

**Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) antiheroin əməliyyatından 5 ay ötdü. İyulun 11-də baş tutan əməliyyatdan sonra sərgilənən susqunluq bu gün də davam edir. Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroin Azərbaycan ərazisinə necə daxil olması və ölkə sərhədlərini aşması faktı sanki olmayıb.**

Gürcüstan DİN-in yaydığı rəsmi məlumatda maye heroinin maye halında olan sabun adı altında 30 litrlik 93 çəlləkdə daşındığı bildirilirdi. Qeyd olunurdu ki, əməliyyat zamanı 2 Gürcüstan və 1 Türkiyə vətəndaşı saxlanıb. Sonrakı məlumatlarda yükün son çatdırılma nöqtəsi kimi Moldova göstərilirdi. Bu günə qədər yükün Azərbaycan ərazisinə necə daxil olması haqda rəsmi məlumat yoxdur.

Qeyri-rəsmi məlumatlara görə, 3 tona yaxın heroin olan yük maşını Astara Gömrük-Keçid Məntəqəsindən ölkəyə daxil olub və 500 kilometrlik yolu qət etməklə Qazaxdakı gömrük-keçid məntəqəsindən çıxmaqla sərhədlərimizi aşıb. Məlum əməliyyatdan 5 ay ötür. Lakin rəsmi qurumlar ictimaiyyətə sərhədlərimizi asanlıqla aşan beynəlxalq narkomafiyanın bəd əməlinin hansı şəraitdə baş tutması haqda məlumat verməyə tələsmirlər. Avqustun 29-da "Yeni Müsavat"a Astaradan belə bir məlumat daxil olmuşdu ki, məlum əməliyyatdan sonra Astara Gömrük-Keçid Məntəqəsinin qaçaqmalçılıq şöbəsində çalışan 4 məmur işdən çıxarılıb. Gömrükçülər Azərbaycandan keçən və Gürcüstanda tutulan 3 ton heroin əməliyyatına görə vəzifədən kənarlaşdırılıblar. Qaynağımız iddia etmişdi ki, işdən qovulan gömrükçülərdən biri Astara sakinidir, digərləri isə başqa bölgələrdəndir. Onların adları açıqlanmasa da, mənbənin sözlərinə görə, işdən çıxarılan gömrükçülər məhz Gürcüstanda saxlanılan 3 ton herion, ardınca da "Qırmızı körpü" sərhəd-keçid məntəqəsində saxlanılan 60 kiloqram heroin əməliyyatlarının qurbanı olublar. Qaynağımız iddia edirdi ki, gömrükçülər məsuliyyətsizlikdə təqsirli bilinərək gömrük sistemindən kənarlaşdırılıblar: "Bu əməliyyatı ört-basdır etmək üçün Astara gömrüyü "günah keçi"si axtarıb və tapıb. Nəticədə 4 gömrükçü işindən uzaqlaşdırılıb. Gürcüstanda saxlanılan 3 ton heroinin məhz bu məntəqədən Azərbaycana keçməsi barədə məlumatlar var.

Qeyd edək ki, 3 ton heroinin tutulması əməliyyatını ABŞ kəşfiyyatının Gürcüstan hüquq-mühafizə orqanları ilə birgə həyata keçirdiyi bildirilirdi. İddia olunurdu ki, heroinin Azərbaycan ərazisində hərəkəti, o cümlədən məxfi bir yerdə saflaşdırılması əməliyyatı ABŞ kəşfiyyatı tərəfindən lentə də alınıb. Azpolitika.info bir qədər əvvəl heroinin Azərbaycan ərazisinə necə daxil olması və çıxarılması ilə bağlı çox ciddi istintaq başlaması xəbərini yaymışdı. Həmin xəbərdə qeyd edilirdi ki, onlarla adam istintaqa cəlb olunub, xeyli saxlanılanlar var. Yollarda quraşdırılmış müşahidə kameralarının incələnməsindən sonra "yük" Azərbaycan ərazisinə daxil olandan sonra onu müşayiət edən avtomobillər müəyyənləşdirilərək kimlərə məxsus olduğu aydınlaşdırılıb, kamera görüntüləri sayəsində içindəki şəxslər saxlanılıb. Bundan başqa, telefon siqnalları və danışıqların təhlili də ciddi ipucları verib. Gömrük sənədlərinin araşdırılması zamanı məlum olub ki, yükün ümumi dəyəri cəmi 5 min dollar göstərilib, lakin qəribədir ki, 5 min dollarlıq "mal"a görə 8 min dollar "rüsum" alınıb. İstintaq qrupu üzvlərinin, eyni zamanda Gömrük Komitəsinin rəhbər şəxslərinin bu işlə bağlı Gürcüstanda ezamiyyətdə olduqları da bizə verilən məlumatlar sırasındadır.

**Təəssüf ki, ölkədaxili araşdırma aparılması ilə bağlı məlumatların nə dərəcədə həqiqət olmasını müəyyən etmək imkanlarımız xaricindədir. Gürcüstan hüquq-mühafizə orqanları da məlumat yaymağa həvəsli görünmürlər. Gürcüstan DİN-in yaydığı son məlumatda heroinin daşınmasında istifadə olunan avtomaşının sürücüsü Quram Sxaldzenin azad edildiyi bildirilib. Amma bu qədər heroinin Azərbaycan ərazisindən necə keçməsi açıqlanmayıb.**

❑ E.MƏMMƏDƏLİYEV

# "Rövşən Lənkəranski" yenə hədəfdə

## "Ded Xasan"ın qətlini niyə azərbaycanlı avtoritetin "ayağına yazırlar?"; iddia: "onun öldürülməsinə daha çox marağı yezidi kürdlərin kriminal dəstələri göstərir"




**Yanvarın 16-da Rusiya kriminalının əfsanəsi olan Aslan Usoyanın("Ded Xasan") qətlinin iki ili tamam olur. 2013-cü ilin yanvar ayının 16-da Moskvada naməlum killerin açdığı atəşlə öldürülən "Ded Xasan"ın qatilləri ilə bağlı indiyədək dəqiq bilgi yoxdur. Hüquq-mühafizə orqanlarının əməliyyat-istintaq hərəkətləri də heç bir nəticə verməyib.**

**Hadisə yerindən tapılan gilizlərin laboratoriya araşdırması göstərib ki, bu gilizlər 9 növ silaha aid ola bilər.** "Ded Xasan"ın öldürüldüyü "Val" adlandırılan xüsusi avtomatda əl izləri isə o qədər cüzi olub ki, genetik ekspertiza nəticələri tam dəqiqliklə verə bilməyib. Tələb olunan bütün zəruri istintaq tədbirləri həyata keçirildiyinə və heç bir nəticə əldə edilmədiyinə görə yeni dəlillər ortaya çıxana qədər cinayət işinin istintaqı dayandırılıb.

"Ded Xasan" klanı indiyədək bu qətlin icraçıları və sifarişçisi kimi birbaşa ad çəkməyiblər, amma nədənsə, bu qətldə ən çox adı hallanan azərbaycanlı "qanuni oğru" Rövşən Canıyev ("Lənkəranski") olub. Məlumat üçün deyək ki, qətldə "Ded Xasan" klanı ilə münasibəti pis olan gürcü "qanuni oğru"ların da adı keçir...

**Bir neçə gün əvvəl milliyyətcə "Ded Xasan" kimi yezidi kürdü olan Zaxari Kalaşov ("Şakro Molodoy") İspaniyadakı 7 illik həbsxana həyatından sonra Moskvaya qayıdıb.** O, "Ded Xasan"ın qəbrinə gedərək and içib ki, "qan yerdə qalmayacaq". Bu səbəbdən də Rusiya kriminalında "Ded Xasan"ın qətli mövzusu yenidən aktuallaşıb və bu işlə bağlı yeni qanlı hesablaşmaların olacağı gözlənilir.

"Ded Xasan"ın qətlində adı hallanan gürcü "qanuni oğrular"- Tariel Oniani("Taro") və "Merab Suximski" kimi tanınan Merab Canqveladzedən hazırda həbsdədirlər. "Ded Xasan" klanının "qara siyahı" sında olanlar sırasında azadlıqda olan yeganə şəxs "Rövşən Lənkəranski" olduğundan indi əsas diqqətdə yenə onun üzərində cəmlənib.

Noyabrın 28-də Azərbaycan saytları Rusiya KİV-lərinə istinadən "Ded Xasan"ın qətli ilə bağlı məlumat yayıblar. Həmin məlumatlarda deyilir ki, "Rüfət Gəncinski" adıyla tanınan Ülfət Tağıyev həbs edilib və o, müstəntiqlərə "Ded Xasan"ın qətli ilə bağlı mühüm məlumatlar verib. "İstintaq zamanı Ülfət Tağıyevin "Ded Xasan"ın ölümü ilə bağlı bəzi informasiyalara sahib olduğu bəlli olub. Bundan əlavə, qanuni oğrunun 16 yanvar 2013-cü ildə "Ded Xasan"ı öldürən killerin qaçma planını da hazırladığı müəyyən olunub. Mənbə həmçinin bu işi sifariş verən şəxsin adını çəkməkdən imtina edib" deyə, məlumatda bildirilir.






Əvvəla, məlumat üçün deyək ki, "Rüfət Gəncinski" bir neçə ay bundan əvvəl həbs edilib. Məlumatlara görə, o, 2012-ci ildə Dubayda 15 nəfər avtoritetlə birlikdə R.Canıyev tərəfindən "oğru" adı alıb. "Ded Xasan"ın qətlindən sonra Rusiyanın hüquq-mühafizə orqanları "Rufo"nun öldürüldüyü haqda məlumat yayıb. Həmin məlumatda deyilirdi ki, killerlər "Rufo Gəncinski"ni küçənin ortasında gülləyiblər və cəsədini maşının yük yerinə qoyaraq naməlum istiqamətə aparıblar. Xəbərdə bildirilirdi ki, bu qətli "Ded Xasan"ın qruplaşmasına daxil olan digər məşhur azərbaycanlı kriminal avtoritet, hazırda həbsdə olan "Lotu Quli" ləqəbli Nadir Səlifovun adamları həyata keçirib.

**Həmin məlumatlarda o da deyilirdi ki, "Rufo Gəncinski" "Rövşən Lənkəranski"nin adamı kimi "Ded Xasan"ın qətlinin təşkilində də əsas rola malik olub.** O, "Ded"in qətldən sonra snayperi hadisə yerindən qaçırdıb. "Rufo"nun öldürüldüyü barədə informasiyaların yayılmasına baxmayaraq əməliyyat kanalları ilə müəyyən edilib ki, o, əslində sağdır. Bu xəbərlərin yayılmasından sonra arxayınlaşıb və hətta Moskvanı da tərk etməyib. Onun yeri müəyyən edildikdən sonra əməliyyat planı hazırlanıb və avtoritet bir neçə ay əvvəl həbs edilib.

**Hələ o zaman da "Rufo Gəncinski"nin "Ded Xasan" öldürülməsində əlinin olub-olmadığı araşdırılırdı.** O, həmçinin Usoyanın klanına daxil olan avtoritet İlqar Cəbrayılovun qətlində də şübhəli bilinirdi. Əməliyyatçıların fikrincə, "Rufo Gəncinski" 2012-ci ili aprel ayında Rusiya paytaxtında "Danabaş" ləqəbli kriminal avtoritet İlqar Cəbrayılovun qətlini təşkil edib.

Dünən yayılan məlumatda isə deyilir ki, "qanuni oğru" "Ded Xasan"ı öldürən killerin qaçma planını da hazırladığı müəyyən olunub.

Köhnə xəbərlərin "yenilənməsi" onu göstərir ki, Rusiyanın hüquq-mühafizə orqanları kriminal aləmdə xüsusi nüfuzu olan azərbaycanlı avtoritet "Rövşən Lənkəranski"nin hədəfə çıxarılmasında maraqlıdırlar.

Yeri gəlmişkən, "Ded Xasan"ın aradan götürülməsində Rusiyanın hüquq-mühafizə orqanlarının əli ola biləcəyi ilə bağlı versiyalar da var.

**Rusiyanın tanınmış sosioloqu, kriminal aləm barədə əsas araşdırmaçılardan biri sayılan Vladimir Kireyev** bu yaxınlarda "Bizim Yol" qəzetinə müsahibəsində "Rövşən Lənkəranski"nin "Ded Xasan"ın qətlində əlinin olub-olmaması ilə bağlı maraqlı məqamlardan danışmışdı. O demişdi ki, "Lənkəranski"nin "Ded Xasan"ın qətlini sifariş verməsinə inanmır: "Məndə olan məlumata görə, Rövşən o zaman başqa problemlərin həlli ilə məşğul idi. Bəzi mənbələr qeyd edir ki, onun vətənində hüquq-mühafizə orqanları ilə problemləri vardı və ümumiyyətlə, "Ded Xasan" öldürüləndə "Lənkəranski" Azərbaycanda olub. Məncə, onu sadəcə olaraq, "podstavit" ediblər. "Ded Xasan"ın öldürüləcəyi barədə söhbətlər çoxdan gəzirdi. Onu elə mənsub olduğu yezidi-kürdləri sifariş edə bilərdilər". Jurnalistin "nə məqsədlə " sualına Vladimir Kireyev "məqsəd Rövşənin aradan götürülməsi idi. Çoxları başa düşürdü ki, yaşlı "Ded Xasan"dan sonra kriminal aləminin kralı məhz Rövşən ola bilərdi. Amma imkan vermədilər. Maraqlıdır ki, onun öldürülməsinə daha çox marağı yezidi kürdlərin kriminal dəstələri göstərir. Amma onun Azərbaycanlı kriminallar tərəfindən öldürüldüyünü eşitsəm, təəccüblənmərəm" deyə, cavablandırıb.

❑ Xəbər xidməti

# "Kapital bank" sədri qanunsuzluqda ittiham olundu

**"Kapital bank" ASC-nin 2 saylı Səbayel filialının kassiri Rizvan Hüseynov heç bir əsas olmadan işdən qovulub. Bu haqda "Yeni Müsavat"a danışan hüquq müdafiəçisi Bəxtiyar Məmmədov deyib ki, R.Hüseynovun hüquqlarının bərpa olunması üçün dəfələrlə "Kapital bank" ASC-nin sədri Rövşən Allahverdiyevə yazılı müraciətlər edib:**

## Bəxtiyar Məmmədov bank sədrinin prezidentin apardığı daxili siyasətə qarşı çıxdığını deyir



"Lakin nə Rövşən Allahverdiyev, nə də ki, digər aparıcı əməkdaşlar müharibə veteranı, şəhid ailəsi olan Rizvan Hüseynovun işdən çıxarılmasının səbəbini qanun çərçivəsində bildirmədilər. Halbuki Rizvan Hüseynov həmin bankın 8 il müddətində işçisi olub. Onu bu illər ərzində rəhbərlik qiymətli hədiyyələrlə və fəxri fərmanlarla təltif edib. O, illərlə işlədiyi "Kapital bank"dan kredit götürərək maşın, mənzil alıb. Hazırda "Kapital bank"a 50 min manatdan çox kredit borcu vardır".

**Hüquq müdafiəçisi bildirib ki, "Kapital bank" ASC-nin sədri Rövşən Allahverdiyevdən və müavinlərindən R.Hüseynovun atası Əli Hüseynovu qəbul etmələrini xahiş edib:** "Lakin müxtəlif bəhanələr gətirilərək bu günə qədər şəhid atası nə qəbul olundu, nə də ki, işdən çıxarılmış övladı Rizvan Hüseynov işə bərpa edildi. Ölkə başçısı bütün nazirlərin, komitə sədrlərinin mütəmadi olaraq regionlara göndərərək vətəndaşları yerindəcə qəbulunu təmin olunmasını və insanların pozulmuş hüquqlarının yerindəcə öz həllini tapmasını tapşırıb. Əlalxüsus da müharibə veteranlarının, məcburi köçkün ailələrinin, əlil və şəhid ailələrinin problemlərinin, pozulmuş hüquqlarının bərpa olunması barədə şəxsən göstəriş verib. "Kapital bank" ASC-nin sədri Rövşən Allahverdiyev prezident sarayının təxminən 3-4 km-liyində işləyir, ölkə başçısının daxili siyasətinə açıq şəkildə kölgə salır. O, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 78-ci maddəsinin 2-ci bəndinə tamamilə zidd olaraq, yəni şəhid ailəsinin üzvlərinə, müharibə iştirakçılarına, öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanlara, məcburi köçkün, onlara bərabər tutulan şəxs və qaçqın statusu olan şəxslərə hörmətsizlik etməklə qeyd olunan maddəni pozur. Müharibə şəraitində olan bir ölkədə şəhid atasının "Kapital bank" ASC-nin sədri Rövşən Allahverdiyev tərəfindən qəbul edilməməsi, övladı, müharibə veteranı Hüseynov Rizvan Əli oğlunun pozulmuş hüquqlarının bərpa olunmaması birbaşa ölkə başçısı İlham Əliyevin apardığı daxili siyasətin tam ziddinədir. Hazırda şəhid atası Əli Hüseynov keçirdiyi stressdən yataq xəstəsi olub və həyatına təhlükə yaranıb. Məlumat üçün bildirirəm ki, Ağdam döyüşlərində şəhid olan Rabil Hüseynovun adını atası Əli Hüseynov Rizvan Hüseynovun övladına qoymaqla özündə təskinlik tapıb. Çox təəssüflər ki, Rövşən Allahverdiyev kimi məmurların səhv addımları şəhidimizin adını daşıyan 14 yaşlı Rabil Hüseynov atasının əvəzinə əgər belə getsə uzun müddət borc ödəməli olacaq".

**Hüquq müdafiəçisi deyib ki, əgər Ə.Hüseynovun başına gələcək hər hansı bir hadisəyə görə "Kapital bank" ASC-nin sədri Rövşən Allahverdiyevi məsuliyyət daşıyır.**

**❑ E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Qarşı tərəfin də mövqeyini dinləməyə, dərc etməyə hazırıq.*

# Türk teatrı Bakıda qalmaqal yaratdı

**Ankara Dövlət Teatrının Türkiyə Mədəniyyət Günləri çərçivəsində Akademik Milli Dram Teatrında göstərilən "Nereye" tamaşası etiraz doğurub.**



Gənc aktyor, rejissor Elvin Adıgözəl tamaşadan olan bir səhnəyə etiraz olaraq mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə açıq məktubla müraciət edib.

**Müraciətdə deyilir:** "Cənab Əbülfəs Qarayev! Azərbaycanda keçirilən Türkiyə Mədəniyyət Günləri çərçivəsində Akademik Milli Dram Teatrında göstərilən tamaşaya baxmağa getdim. Bu tamaşaya baxarkən çox pis oldum və Azərbaycan millətinin təhqir olunmasının şahidi oldum.

Sanki Ankara Dövlət Teatrı Azərbaycana məhz bu milləti təhqir etmək üçün gəlmişdi. Tamaşa zamanı səhnədə olan aktyor "Abi, biz azərileri yanımızda ucuz işçi kimi işlədirik, deməli, bizi də xaricdə elə işlədəcəklər?"; "Abi, bizə görə hansı millətlər ikinci kateqoriyadır? Bizdən şərqdə olanlar... Azərilər, iranlılar və s." kimi cümlələrdən istifadə etdi.

Hətta bununla da kifayətlənmədilər. Tamaşa zamanı aktyor yüksək səslə dedi ki, "güc kimdədirsə, o üstündür". Yəni "minən var və əzilən var" mənasında".

Müraciətin sonunda gənc rejissor nazirdən sənəti inkişaf etdirmək istəyən gənclərə dəstək olmasını istəyib.

**Nazirliyin mətbuat katibi İntiqam Hümbətov** məktubdan xəbərsiz olduğunu söylədi: "Azərbaycan və Türkiyə arasında sıx dostluq və qardaşlıq münasibətlərinin nəticəsidir ki, 500 nəfərədək nümayəndə heyəti, keçirilən mədəniyyət günlərində sərgi, tamaşa, film və s. tədbirlərdə təmsil olunub, paytaxtın mədəni həyatını canlandırıblar. Ankara teatrının sözügedən tamaşası da yüksək səviyyəli, bəşəri mövzusu və ideyası olan bir tamaşadır. Mən də, nazirliyimizin əməkdaşları da bu fikirdədir. Elvin Adıgözəl nə yazıb, bilmirəm. O məktub nazirliyə gəlib çıxanda baxarıq".

**Tamaşanı izləmiş teatrşünas Vidadi Qafarov** tamaşada milləti aşağılayan, milli heysiyyətə toxunan hansısa məqamı sezmədiyini söylədi: "Tamaşada qoyulan qaçqın problemi dünya üçün, xüsusən bizim üçün aktual problemdir. Tamaşa müxtəlif səbəblərdən ölkələrindən Avropaya qaçmaq istəyən insanlardan bəhs edir. Bunların hamısı bir yük maşınının içində toplanıb. Səbəblər, rastlaşdıqları zorakılıqlar müxtəlif olsa da bu insanları eyni faciə birləşdirir. Sonda qaçqın qadınlardan birinin uşağının ölməsi onların hara üz tutsalar da faciədən qurtula bilməməsini göstərir. Əsas vurğu insan faciələrinin üzərindədir. Tərtibatı da gözəl idi. Sözügedən milliyyəti aşağılayan ifadələr mənim diqqətimi çəkməyib, mən tamaşaya o gözlə baxmamışam. Deyilən cümlələr də yadıma gəlmir. Tamaşa ümumbəşəri bir problemi diqqətə gətirir. Tamaşada deyilir ki, biz Suriyada, İraqda baş verən hadisələrə televizorda futbola baxdığımız kimi baxırıq. Bundan acı problem olarmı?" (lent.az).

# Məscid yandırmaq istəyənlərin hədəfi



**Kənan RÖVŞƏNOĞLU**

## Azərbaycanı İraqa və Suriyaya çevirmək istəyənlərə qarşı nə etməliyik

**Noyabrın 25-də Qaraçuxur məscidini yandırma cəhdi heç şübhəsiz ki, təxribat hadisəsi idi. Bu hadisəni kimlərin etməsi, sifarişçisinin kim olması hələ məlum olmasa da, təxribat olduğu aydındır. Bunu artıq rəsmi qurumlar da etiraf edib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Siyavuş Heydərov deyib ki, Azərbaycanda sünni-şiə qarşıdurmasında maraqlı ola biləcək qüvvələr var.**

Məsələ onadır ki, bu ilk hadisə deyil. Yayda Sabirabadda saqqal təxribatı baş verdi, onun ardınca Müşfiqabad qəsəbəsində məsciddə dindarlar arasında qarşıdurma yaşandı. Ötən həftə isə Sumqayıtda məscidə təhqiramiz şüar yazıldı. Fərqli hadisələr olsa da, bir məqsəd aydın görünür: bütün bunlar Azərbaycanda dini zəmində gərginlik, məzhəblər arasında münaqişə yaradır və nifrəti artırır.

Bir şey aydındır ki, maraqlı qüvvələr ölkəni qarışdırmağa çalışırlar. Azərbaycan Şimali Qafqaza ən yaxın müsəlman ölkəsidir. Yüzlərlə Azərbaycan vətəndaşı hazırda Suriyada, İraqda, Əfqanıstan və Pakistanda fəaliyyət göstərən radikal islamçı qruplaşmaların tərkibində döyüşür. Azərbaycandan hələ də xarici ölkələrə döyüşməyə gedənlərin axını davam edir. Təkcə ötən həftə 4 nəfər Türkiyə sərhədində yaxalanaraq geri göndərilib. Yeri gəlmişkən, ötən gün Şimali Qafqazda fəaliyyət göstərən radikal islamçı qruplaşmanın rəhbəri "əmir Süleyman" adlı şəxs internet üzərindən İŞİD lideri Əbubəkr əl-Bağdadiyə müraciət edərək ona beyət etdiyini bəyan edib. Yəni təhlükə artıq sərhədimizə dirənib.

Azərbaycanda daha əvvəl də radikal islamçı qruplaşmaların silahlı təhdidləri qeydə alınıb. 2007-ci ildə hərbi hissədən silah oğurlayan dəstənin Bakıda həyata keçirdiyi hücumlar, sonrakı il "Əbu Bəkr" məscidində terror, Sumqayıtda, Qusarda silahlı toqquşmalar, 2012-ci ildə Eurovision ərəfəsində terror cəhdləri və silahlı toqquşmalar göstərir ki, dinçi terror qrupları üçün Azərbaycan hər zaman aktual ölkə olub.

Ancaq son hadisələrin şübhəlisinin dini qruplar olduğunu deməyə əsas vermir. Azərbaycanda dini zəmində gərginlik və terror hadisələrinin baş verməsində maraqlı olan qüvvələr birdən çoxdur. Onsuz da son illərdə Yaxın Şərq olaylarının fonunda dindarlar arasında münasibətlərin daha da gərginləşdiyi Azərbaycanda qarışıqlıq yaratmaq üçün ən asan vasitə dini zəmində gərginlik olardı. Çünki yuxarıda da qeyd etdiyim kimi bunun üçün Azərbaycanda necə deyərlər şərait var. Bu mənada dini zəmində təxribatlarda maraqlı olan qüvvələrin sayı az deyil. Azərbaycana qarşı düşmən mövqedə olan, eləcə də Azərbaycanda baş verəcək qeyri-sabitlikdən fayda götürə biləcək dövlətlər, o cümlədən regionda yeni münaqişə ocağının, qeyri-stabil vəziyyət yaratmaqda maraqlı olan dövlətlərin kəşfiyyat orqanları bu işdə maraqlı ola bilər.

Yeri gəlmişkən, son illərdə regionda baş verən bir sıra olaylar göstərdi ki, din şüarı ilə başladılan proseslərin böyük əksəriyyətinin İslam dini, müsəlmanlar üçün heç bir əhəmiyyəti yoxdur, bu işləri təşkil edən xüsusi xidmət orqanları olur.

Müsəlman dünyasında baş verənlər həm də bizim üçün bir ibrət hadisəsi olmalıdır. İslam dinini silahlı mübarizələrin, terror olaylarının aləti etməyə çalışanları, insanlar arasında din üzərindən bölücülük yaradaraq hətta doğma insanları qarşı-qarşıya qoyan zehniyyətə qarşı çıxış etmək lazımdır. Təkfirçilik, dini inancına görə insanları ayırmaq, bunun üzərindən nifrət yaymağa çalışan fikirlərə, onları yayanlara qarşı cəmiyyətin ayıq olması lazımdır. Əgər din insanları birləşdirə bilmirsə, əksinə, bölürsə, bir-birilərinə nifrət etməsinə səbəb olursa deməli, bu, artıq din deyil, siyasi ideologiyadır və bir gün kimlərinsə əli ilə xalqı bir-birinə qırdıracaq. O zaman isə artıq gec olacaq.

**Avropa məzhəb müharibələri tarixini 400 il əvvəl yaşayıb, bunun bədəlini çox ağır ödəyib. Bizim bunu yaşamağımız üçün tələb olunan yalnız müdriklikdir. Çünki məşhur misalda deyildiyi kimi, yalnız müdrik insanlar başqalarının səhvlərindən nəticə çıxara bilir.**

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014

# Ermənistan məhsullarını alardınızmı?

## "Onların dərmanından belə istifadə etmək olmaz"

**Müharibə aparan ölkələrdə adətən belə bir fikir formalaşır ki, bu ölkələr bir-birinin məhsullarından imtina etməlidir. Ancaq bunun əksini düşünənlər də olur. Məsələn ABŞ və SSRİ arasında soyuq müharibə zamanı sovet vətəndaşları Amerikanın cins şalvarlarını geyinir, Amerika isə Rusiyanın arağından istifadə edirdi. Hazırda Azərbaycanla Ermənistan arasında savaş getdiyi bir vaxta Bakıda Ermənistan, İrəvanda isə Azərbaycan məhsullarının satılması barədə xəbərlər var. Maraqlıdır, tanınmışlar Ermənistan məhsulu ilə rastlaşsalar o məhsulu alar, istifadə edərlərmi?**



**Müsavat Partiyası başqanının müavini Elman Fəttah** Ermənistan məhsullarından uzaq olduğunu dedi: "Ermənistanla Azərbaycan arasında ticarət qadağası var. Azərbaycanda Ermənistan məhsullarının heç biri satılmamalıdır. Biz bu məsələlərdə həssas insanlarıq. Ona görə də Ermənistanın hər hansısa bir məhsulu qarşımızı çıxsa belə istehlak etmərik. Həm də Ermənistanın yüksək keyfiyyətli tanınmış bir markası da yoxdur ki, ondan imtina etmək xüsusi bir fədakarlıq tələb etsin".

**ADP sədri Sərdar Cəlaloğlu** Ermənistanın nəinki məhsulundan, onun dərmanından belə istifadə edilməyin yanlış olduğunu dedi: "Ermənistan məhsulları ümummilli səviyyədə boykotdur. Vaxtilə Hindistanda Mahatma Qandi ingilis mallarını boykot etməklə Hindistanı müstəqil edib. Buna görə də əgər biz Ermənistana qarşı boykot siyasəti aparırıqsa, Azərbaycan vətəndaşları bir nəfər kimi bu boykotda iştirak etməlidir. Siqaret yox, lap dərman belə olsa, ondan imtina edilməlidir. Amma əgər rəsmi boykot yoxdursa, dolayısı yolla, üçüncü dövlətlər vasitəsilə bu məhsullar bizə gəlir. Məsələn, Gürcüstan bizdən nefti alır satır Ermənistana. Eyni zamanda da Ermənistandan arağı, siqareti alıb satır Azərbaycana. Boykot məsələsinə tam nəzarət olmadığına görə Ermənistan qeyri-qanuni də olsa blokada şəraitindən çıxmağa cəhd edir".

**S.Cəlaloğlu bildirdi ki, Ermənistan iqtisadiyyatının güclənməməsi üçün Azərbaycan vətəndaşlarının onların istehsal etdiyi heç bir şeyi almamalıdır:** "İslami nöqteyi-nəzərdən də bir xristian ölkəsində istehsal olunan və təmizliyi, halallığı bilinməyən bir məhsuldan istifadə müsəlman üçün günahdır, haramdır".

**Deputat Fazil Mustafa** isə bildirdi ki, ancaq ermənilərin nəşr etdiyi hansısa kitabı ala bilər: "Azərbaycanda istehsal olunan siqaret və arağın Ermənistana satılmasına müsbət baxıram. Ona görə ki, siqaretə və arağa nifrət edirəm. Bunun kimi zərərli şeylərin Ermənistana verilməsinə yaxşı baxıram. Ona görə də məsləhət görürəm ki, iş adamları istehsal etdikləri siqareti, arağı, hətta kolbasanı Ermənistana göndərsinlər. Ancaq Ermənistandan Azərbaycana məhsul gətirilməsinin əleyhinəyəm. Məhsulun ermənisi, rusu olmur. Məhsulun keyfiyyətlisi olur".

**F.Mustafanın İrəvanda rus dilində nəşr olunan hansısa kitabı alardı:** "Əgər erməni dilini bilsəydim, bu dildə olan kitabı da alardım. Kitabı ermənin və ya ingilisin buraxmasının heç bir fərqi yoxdur. Yaxşı kitabdırsa alardım. Biz müharibə aparırıq deyə ermənilərin istehsal etdiyi hər şeyi boykot etməli deyilik. Dünya açıq dünyadır və hər kəs istədiyi məhsulu ala bilər".

Qəzetimizin siyasi şərhçisi Azər Rəşidoğlu xarici ölkələrdə səfərdə olarkən, Ermənistan məhsulları ilə rastlaşa bilərik: "Düşünmürəm ki, Ermənistan məhsullarını almaqda vətənə xəyanət elementləri var. Yadıma "Baharın 17 anı" filmindəki maraqlı bir səhnə düşdü. Himler Şellenberqdən soruşur ki, siz düşmənin istehsal etdiyi "Camel" siqaretlərini haradan alırsınız? Şelenberq cavab verir ki, bu ölkədə düşmən siqareti çəkənə "vətəni satırsan" damğası vurulur. SSRİ və ABŞ arasında soyuq savaş getdiyi zamanlarda SSRİ-də hamı Amerikanın cins şalvarlarını geyinirdi, Amerika saqqızı çeynəyirdi. ABŞ-da isə Rusiya arağını içirdilər. Bu savaşa təsir etmirdi. Vətənpərvərlik düşmənin qarşısına mərdliklə çıxmağı tələb edir, kimin hansı siqareti çəkməsi onun vətənpərvərlik göstəricisi ola bilməz".

**Müğənni Əli Mirəliyev isə deyir ki, əslində ermənilərin heç nəyi yoxdur:** "Mən vaxtilə Tiflisdə, Ermənistanda konsertlərdə çox olmuşam. Ermənilərin heç musiqiləri də yoxdur. Ermənilər xalq deyil. Ermənilərin konyakına da, siqaretinə də digər məhsullarına da tüpürüm. Heç vaxt onların heç bir məhsulunu almaram. Bizim gözəl Gəncə konyakımız dur-dura ermənininin konyakını niyə alım ki?"

❑ **Günel MANAFLI**

## Bakıda 16 yaşlı qız rəfiqəsini öldürdü



**Bakıda 16 yaşlı qızın həmcinsini qətlə yetirilməsinin bəzi təfərrüatları məlum olub. Lent.az xəbər verir ki, 1998-ci il təvəllüdlü Aydan Xəlilova özündən 7 yaş böyük olan Şəms Nəhmədovanı mübahisə zəminində öldürüb.**

Bəlli olub ki, qızlar bir müddət imiş ki, Binə qəsəbəsində kirayədə tutduqları mənzildə yaşayırmış. Tüfeyli həyat tərzi keçirən qızlar konkret heç bir yerdə oxuyub-işləməyib. A.Xəlilovanın atası bir müddət əvvəl dünyasını dəyişib, anası isə Zaqatalada yaşayır. Qətlə yetirilən 23 yaşlı qız isə ailəsi Bakıda yaşamasına baxmayaraq, evdən çıxıb və kirayədə yaşamaq qərarına gəlib.

Olaya gəlincə, noyabrın 27-si axşam saatlarında hələlik dəqiqləşməmiş səbəbdən qızlar arasında mübahisə olub. Mübahisə zəminində 16 yaşlı qız bıçaqla otaq yoldaşının ürəyinə bir zərbə endirib.

Araşdırmalar davam etdirilir.

## Bakıda 100-dən artıq mənzili qarət edən dəstə tutuldu

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Xətai Rayon Polis İdarəsinin əməkdaşları paytaxtda 100-ə yaxın evdən oğurluqlar etmiş mütəşəkkil cinayətkar dəstəni zərərsizləşdirib. Keçirilmiş əməliyyat axtarış tədbirləri nəticəsində Gürcüstan Respublikasının vətəndaşı 40 yaşlı Paata Mkurnalidze, Bakı şəhər sakinləri, 31 yaşlı Quram Zeynalov və 27 yaşlı Aleksandr Xusainov saxlanılıblar.**

Dəstə üzvlərinin ətrafında aparılan istintaq araşdırmaları zamanı məlum olub ki, onlar son bir neçə ayda paytaxtın Xətai, Binəqədi, Nəsimi, Nizami və Yasamal rayonlarında əsasən 9 mərtəbəli binə evlərindən çoxsaylı oğurluqlar ediblər. Saxlanılan şəxslər ifadələrində bildiriblər ki, qabaqcadan əlbir olaraq binalara daxil olublar, daha sonra isə mənzillərin qapısını döyüblər. Ev sahibləri evdə olmadıqda Paata Mkurnalidze xüsusi alətlərin köpməyi ilə qapıları açıb.

Dəstə üzvləri evlərə daxil olaraq içəridən külli miqdarda pul, qızıl zinət əşyaları və digər bahalı malları talayıblar. Evdən çıxdıqda isə Paata Mkurnalidze mümkün qədər qapıların kilidlərini bağlamağa çalışıb. Oğurluq qızıllar elə həmin gün Gürcüstan Respublikasına aparılıb. Qızılların daha qiymətli hissəsi satılması üçün Rusiaya Federasiyasına göndərilib. Qalanları isə Tiflisdə pula çevrilib. Paata Mkurnalidze satışdan əldə etdiyi pullardan Quram Zeynalov və Aleksandr Xusainova da göndərib.

İstintaqla daha sonra müəyyən edilib ki, dəstə üzvü Quram Zeynalov təkbaşına da oğurluq cinayətləri törədib. O, Paata Mkurnalidzedən öyrəndiyi üsullarla evlərin qapısını açıb və külli miqdarda pul, qızıl oğurlayıb. Əldə etdiyi qızılların bir hissəsini Bakıda, qalan hissəsini isə Rusiyada satıb. Faktlarla bağlı başlanmış cinayət işinin istintaqı davam etdirilir.

Saxlanılan şəxslərin ehtimal olunan digər cinayətləri araşdırılır.

Zərəsizləşdirilən qrupun qarət etdikləri mənzillərin arasında "APA Holding"in əməkdaşı Ülkər Qasımovanın evi də var. Onlar jurnalistin yaşadığı, Xətai rayonu, Məhəmməd Hadi küçəsi ev 63, mənzil 143 ünvanında yerləşən mənzildən 2400 ABŞ dolları, 200 avro, 3100 manat və qızıl-zinət əşyalarının oğurlayıblar.

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 292 (6001) 29 noyabr 2014

# "Bəsdir yoruldum..."

## İntihar edən üç uşaq anasının dəhşətli hekayəti




**Lökbatan qəsəbəsində intihar edən Zeynəb Muradova özünə qəsd edəcəyi barədə daha əvvəl mətbuata danışmışdı.**

Gün.Az xəbər verir ki, dünən Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində 30 yaşlı qadının intihar etməsi hazırda ölkə mətbuatının ən çox müzakirə edilən mövzularından birinə çevrilib.

3 uşaq anasının övladlarını yetim qoyaraq həyatına qəsd etməsinə səbəb olan faktlar araşdırılıb. Ortaya isə bəzi tükürpərdici məqamlar çıxıb.

**Külli miqdarda borc**

Faktla bağlı azvision.az saytı məlumat yazıb ki, 1984-cü il təvəllüdlü Muradova Zeynəb Nəzirağa qızı gözəllik salonunda işləyirmiş.

Onun intiharına səbəb kimi külli miqdarda borcunun olduğu bildirilir. Hətta Z.Muradova borca görə yaşadığı mənzili də sataraq çalışdığı gözəllik salonunda qalırmış.

Z.Muradovanın 3 azyaşlı övladı var və uşaqları hazırda nənəsi ilə yaşayır. M.Zeynəbin həyat yoldaşının isə harada olduğu haqqında heç bir məlumat yoxdur.

**Borcu qaytara bilmədiyi üçün "avtoritetlər" onu hədələyib**

Bu faktın ortaya çıxmasından sonra Gün.Az olaraq qısa araşdırma apardıq. Məlum oldu ki, Zeynəbin borcla bağlı problemi olduğunu musavat.com saytı ötən ay yazıb.

Zeynəb özü mətbuata müraciət edərək bu barədə ətraflı danışıb. Gənc qadın deyir ki, sələmə götürdüyü pul onun başına böyük oyunlar açıb. Hətta "avtoritetlər" tərəfindən də hədələnib.

Z.Muradova həmin vaxt deyib ki, bir neçə ay bundan öncə, Arzu adlı qadından sələmə 24 min manat pul götürüb. 2 ay sonra pul aldığı Arzu Cabbarova ona borcunun 51 min manat olduğunu deyib. Bundan sonra aralarında razılığa gələrək notariusun təsdiqi ilə sənəd hazırlanıb. Həmin sənədə görə, Z.Muradova 51 min manat borcu noyabr ayına qədər geri verməli idi. Amma həmin vaxtın tamam olmamasına baxmayaraq, Arzu Cabbarova tez-tez onun iş yerinə gələrək ondan pul tələb edib. Hətta hədələyib də:




"Məni tez-tez hədələyir. Təhqiramiz mesajlar yazır. Gəlir dükandakı gəlinlikləri dağıdır. Təranə adlı bir avtoritet qadına mənim nömrəmi verib. O da mənə yazır ki, "Sənin başına oyun açaram. Doğrayıb ataram Bakının ucqar nöqtələrinə. Heç kim izini də tapa bilməz. Uşaqların məktəbə gedir. Onları fikirləş. Onları oğurlayarıq".

Artıq çox qorxuram. Keçən gün bir neçə nəfərlə gəlmişdilər. Qapını sındırmaq istəyirdilər. Polis çağırmışam. Polislər də biganə yanaşırlar. Mənim həyati təhlükəm var. Məni mühafizə edəcək polis lazımdır".

**Təzyiqlərdən bezən Zeynəb neçə vaxtdır, özünü öldürməyi düşünürmüş**

O deyir ki, sələmçi qadın onun işlədiyi yerə bir neçə adam göndərib və onlar da Zeynəbin üstünə bıçaq çıxarıblar:

"Mən üç uşaq anasıyam. Ən balacası 3 aylıqdır. Evim yoxdur deyə burada balaca bir otaq düzəltmişəm. İş yerimdə yaşayıram. O pulu ondan götürüb buranı açmışam. Hər gün gəlir, nə qazancım olursa aparır. Amma onun buna ixtiyarı yoxdur.

Pulun ödənilmə vaxtına hələ müəyyən qədər var. Amma buna baxmayaraq, məndən pulu tələb edirlər. Evimə hücum çəkiblər. Pəncərələrin şüşələrini qırıblar. Qanunsuz olaraq böyük miqdarda faizlər əlavə edib, borcumu şişirdiblər. Mən 3 uşaq anasıyam. Bu faizləri necə ödəyə bilərəm? Son çarəm intihardır", - deyə mərhum Zeynəb Muradova çarəsiz şəkildə başına gələcək faciədən belə danışıb.

Görünən budur ki, noyabrın sonları yaxınlaşıb və Zeynəb sələmə götürdüyü pulu qaytara bilmədiyi üçün çıxış yolunu intihar etməkdə görüb.

**Evini satışa çıxarıb**

Mərhumun "Facebook" profilindən məlum olur ki, ötən ilin yayında o, yaşadığı evi satışa qoyub.

Sosial şəbəkədə fotoları paylaşan Zeynəb Muradova evini 70 min manata satışa çıxardığını bildirib.

**"WhatsApp"da yazdığı son status: "Bəsdi, yoruldum"**

Zeynəb Muradovanın yaxınlarından biri gənc qadının son statusunun yer aldığı bir fotonu redaksiyamıza göndərib.

Sonuncu dəfə "WhatsApp"a 24 noyabr 21:09-da daxil olduğu görünən Zeynəbdən, bu tarixdən sonra xəbər almaq mümkün olmayıb. O, son statususunda isə belə yazıb: "Bəsdir, yoruldum".

Bəli, bütün təzyiqlərdən bezən 30 yaşlı üç uşaq anası həyatına son qoyub.

Yaxınları onunla əlaqə saxlaya bilmədiyi üçün işlədiyi, həm də qaldığı ünvana baş çəkib və qorxunc mənzərə ilə üzləşiblər.

Sonda qeyd edək ki, intihar faktı ilə bağlı hazırda cinayət işi açılıb. Hadisənin detallarını öyrənmək üçün istintaq aparılır.

❑ **Gün.Az**



# Şəhid ailələri parlamentin qarşısında aksiya keçirdilər

**Noyabrın 28-də bir qrup şəhid ailəsi Milli Məclisin binası qarşısında aksiya keçirib. "Qafqazinfo" xəbər verir ki, aksiyada şəhid olmuş hərbçilərin ailələri dövlət icbari sığorta pulunu ala bilmələri üçün deputatlardan dəstək istəyiblər.**



Deputat Qənirə Paşayeva aksiya keçirənlərlə söhbətləşib. Aksiyaçılar Milli Məclisin digər üzvləri - İqbal Ağazadə, Əli Hüseynli, Aydın Mirzəzadə, Yevda Abramova, Flora Qasımova, Ziyad Səmədzadə və Fazil Mustafa ilə də görüşüblər.

Şəhid olmuş hərbçilərin ailələri eyni məqsədlə bundan əvvəl Prezident Administrasiyasının, Nazirlər Kabinetinin və "Azərsığorta"nın qarşısında da aksiyalar keçiriblər.

"Media forum" saytı xəbər verir ki, şəhid ailələrinin qaldırdığı məsələyə deputatlar Siyavuş Novruzov, Vahid Əhmədov və Milli Məclisin sədri Oqtay Əsədov parlamentin 28 noyabr iclasında münasibət bildiriblər.

Siyavuş Novruzov hökumət üzvlərindən, Dövlət Sosial Müdafiə Fondunun sədrindən xahiş edib ki, şəhid ailələrinin qaldırdığı problemləri diqqətdə saxlasınlar və məsələnin həlli üçün addımlar atsınlar: "Təbii ki, onlara evlər tikilir, avtomobillər verilir. Şəhid ailələri, Qarabağ əlilləri bu gün ölkə prezidentinin ətrafında birləşib. Onların problemini həll etmək lazımdır. Qanunvericilik baxımından nə lazımdırsa onu da biz deputatlar həll edək. Həm də bu işləri sürətləndirmək lazımdır ki, onlar əziyyət çəkib bir daha bura gəlməsinlər".

Vahid Əhmədov bildirib ki, şəhid ailələri və Qarabağ əlilləri üçün nəzərdə tutulan sığorta pullarının ödənilməsi problem olaraq qalır: "Bu pulu haqqı çatan ailələrə ödəmək lazımdır. Şəhid ailələri üçün ödəniləcək sığortanın miqdarı 11 min manatdır. Bu elə də böyük vəsait deyil. Maliyyə Nazirliyi bunun ödənilməsini təmin edə bilər".

**Oqtay Əsədov isə deyib ki, bu məsələnin həlli Maliyyə Nazirliyinin səlahiyyətində deyil: "Konstitusiya Məhkəməsi bununla bağlı qərar qəbul edib. Məhkəmə bizə məktub da göndərib ki, Milli Məclis bununla bağlı qərar qəbul etsin. Biz də məsələni araşdırıb hökumətə məktub göndərəcəyik".**

# Taksi sürücüləri üsyan edir

## "Bizim çörəyimizə bais olublar"

**"Bizi işləməyə qoymurlar. Ailəmizə bir tikə çörəkpulu aparırıq, onu da qazanmağa imkan vermirlər. Birdəfəlik bunun bir yolunu tapsınlar. Ya bizə bir yer təklif etsinlər, ya da uyğun ərazidə yer ayırsınlar ki, müştəri də bizi tapmaqda çətinlik çəkməsin. Artıq neçə gündür ki, polis bizə bu ərazidə dayanmağı qadağan edib. Bilmirik ki, hara gedək. Belə dərd olar, qardaş. Başımıza bəla olublar".**



Bu sözləri metronun "Neftçilər" stansiyası yaxınlığında çalışan bir qrupu taksi sürücüsü dedi. Onların sözlərinə görə, polis avtobus dayanacağı yaxınlığında dayanmağa imkan vermir. Sürücülər bildirirlər ki, 8-ci kilometr bazarı yanında belə bir qadağa yoxdur və onlara qarşı ayrı-seçkilik edilir.

Sürücülər deyirlər ki, onların çörək pulu bu yerdən çıxır və müştərilər də onları axtarıb tapmaqda əziyyət çəkmir. Son günlər isə taksi sürücülərinin ərazidən uzaqlaşdırılmasına görə onlar işləməyə yer tapmırlar: "Bəs hara gedək? Bizim çörəyimizə bais olublar. Əvvəl Nəqliyyat Departamentinin əməkdaşları göz verib, işıq vermirdilər. İndi də polis dayanmağa icazə vermir.

Avtobus dayanacağında taksi saxlamaq qadağandır. Bunu başa düşdük və ərazi açıldı. Amma qanunda var ki, avtobus dayanacağından 15 metr aralıda taksi saxlamaq olar. Buna da icazə verilmir. Neçə gündür ki, bizi işsiz qoyublar.

Neçə illərdir fəaliyyət göstərdiyimiz dayanacaqda maşın saxlamağımıza imkan vermirlər. Amma bizdən bir dayanacaq əvvəldə nə qədər taksi var. "Qara Qarayev" metrosunun girişində dayanan taksilər var".

**Nəzərinizə çatdıraq ki, bir müddət əvvəl "Neftçilər" metrostansiyası yaxınlığındakı ticarət mərkəzinin qarşısında da avtomobil saxlamaq qadağan edilmişdi. Polis əməkdaşları ilə ticarət obyektlərinin sahibləri arasında əldə edilmiş razılığdan sonra avtomobillərin saxlanmasına izn verilirdi. Ancaq yenidən problem qaldırılıb və sürücülər taksiləri harada saxlayacaqlarını bilmirlər. Sürücülər aidiyyəti qurumlara müraciət edərək onlara işləmək üçün şərait yaradılmasını xahiş edirlər.**

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**





YENİ MÜSAVAT

Son səhifə

N 292 (6001) 29 noyabr 2014

# Qabaq sırada oturduğu üçün ona 100 min dollar verirlər

Dünyanin ən məşhur moda nümayişləri zamanı ön sırada kimin oturmasının böyük əhəmiyyəti varmış. Xüsusən Rihanna, Blake Lively, Beyonce kimi məşhur adamları qabaq sırada oturan firmalar bunun üçün "torba ilə" pul xərcləyir. Firmalar həmin şəxslərə ya Paris, ya Milan, ya da Venesiya tətili hədiyyə edir. Bununla razılaşmayanda isə konkret pul təklif edir. Məsələn, Rihanna; Karl Lagerfeldin Parisdə baş tutan 2012-ci il payız moda nümayişinə qatılmaq üçün 95 min dollar pul alıb. Əgər hər hansı firma qabaq sırada Beyonsu oturtmaq istəyirsə, 100 min dolları qatlayıb kənara qoymalıdır. Anna Hathavay və Keyt Blançet 80 min dollar tələb edir. Kim Qardaşyan və Bleyk Livelinin ön sıra tarifin isə 50 min dollardır.





## Bu tipləri işə götürməyin

"Business Insider" (ttp://www.haberturk.com/etiket/business_insider) adlı jurnal iş adamlarına işə götürəcəkləri insanları ciddi şəxsiyyət testindən keçirməyi tövsiyə edib. Xüsusən də 3 növ xarakterin yaxşı işləyən bir komandada böyük narahatçılıqlara səbəb ola biləcəyi bildirilib. Bu xarakterlərdən birincisi narsistlərdir. Özünə vurğun, çevrəsindəki insanları manipulyasiya edən, daim kompliment gözləyən, səhvlərini qəbul etməyən və "biz" yerinə "mən" sözünü tərcih edən şəxslər iş yerindəki digər yoldaşlarının faydalılıq əmsalını 60 faizə qədər azaldır. Qeyri-sosial şəxslər isə ikinci kateqoriyaya aiddir. Onların da varlığı kölgə kimidir, ancaq deyilənləri yerinə yetirirlər. Yaradıcılıq səviyyəsi aşağı olan, ağzındakı sözü kəlbətinlə çıxardığımız adamlar da komandada işlərin yavaşlamasına səbəb olur. Üçüncü tip arzuolunmaz işçilər isə həddsiz sentimental olanlardır. Onlar ilk başda çox sevimli görünsələr də, komanda çalışmasında daim şikayət edir, qaydalara riayət etmir və buna hər zaman bir səbəb tapır. Bundan başqa, bu tiplər hər zaman pessimist və tez bir zamanda qapını vurub gedə biləcək bir əhvala sahibdilər.

# 14 yaşlı qoca kişi...

Hindistanda yaşayan 14 yaşlı Ali Hüseyn qəribə bir xəstəliyə yaxalanıb. Onun bədəni normal haldan 8 dəfə daha sürətlə yaşlanır; bu, proqeria xəstəliyidir. Ali özündən əvvəlki 5 qardaşını bu xəstəliyə qurban verib. Uşağın gözlərində və ürəyindəki sağlıq problemləri ilə yanaşı, saçları da çıxmır. Sözügedən xəstəlik dünyada ancaq 80 nəfərdə var və adətən 14 yaşına çatmadan insanların ölümünə səbəb olur. Ali bütün yaşadıqlarına baxmayaraq ölümdən qorxmur. Xəstəliyi ilə bağlı danışan hindli xəstə deyib: "Ümid edirəm ki, mənim vəziyyətimdə olanlar üçün bir ümid var. Mən həqiqətən yaşamaq istəyirəm. Ölümdən qorxmuram, amma ailəmin mənə görə iztirab çəkməsini də istəmirəm. Onlar üçün daha uzun yaşamaq istəyirəm".

Alinin ata-anası xala uşağıdır. Ailələrinin istəyi ilə evlənən cütlük daha öncə 2-si oğlan, 3-ü qız olmaqla 5 uşağını bu xəstəliyə qurban verib. Onlar "həkimlər daha öncə desəydilər, valideyn olmaq üçün cəhd etməzdik" deyiblər.





## Bu qadın hər şeyi baş-ayaq görür

Serbiyalı bir gənc qadının elə bir xəstəliyi var ki, eşidənlər heyrət edir. Bojana Danilovic adlı xanım Serbiyanın Uzice adlı qəsəbəsində yaşayır. Daniloviçin görmə problemi tibb dünyasını şoka salıb. Gənc qadının gözləri hər normal insan kimi dünyanı düz formada beyinə ötürsə də, beyni gördüyü hər şeyi tərsinə çevirir. "Kosmik orientasiya fenomeni" adlanan bu vəziyyətlə yaşamağa çalışan gənc qadın yazıları tərsinə yazır, qəzeti tərsinə oxuyur. Hətta özünə özək kompüter ekranı və klaviaturası olan qadın cib telefonu tipli bəzi alətləri tərsinə istifadə edir. "İnsanları başları üzərində dayanırmış kimi yox, normal ayaqları üzərində görürəm. Mənə sürücülük vəsiqəsi verilmədi. Məktəbdə də problemlər yaşadım" deyən Daniloviç iş yerində özəl ekrandan istifadə edərək həyatını davam etdirir. Onun evində də özünə aid tərsinə çevrilmiş klaviatura və bir televizoru var.




QOÇ - Bu gün hansısa perspektivli iş görəcəyiniz inandırıcı deyil. Astroloji göstəricilər yalnız gözləmə mövqeyində durmağınızı məsləhət görür. Saat 17-19 arası hər bir məsələdə ehtiyatlı olun.

BUĞA - Öhdənizdə olan bu təqvimdən hansısa uğur gözləməyiniz əbəsdir. Ən azı ona görə ki, həftənin ən passiv gününü yaşayacaqsınız. Odur ki, başınızı adi işlərlə qatmağa çalışın.

ƏKİZLƏR - Əməkdaşlıq zəminində uğurlu gün olsa da, təcrübəsizlik göstərib müvəffəqiyyətdən uzaq ola bilərsiniz. Odur ki, lazımi adamlardan məsləhət almağı unutmayın. Axşamı öz evinizdə keçirin.

XƏRÇƏNG - Təzadlı gün olsa da, hansısa uğursuzluqla qarşılaşmayacaqsınız. Çünki psixoloji dəyanətiniz buna imkan verməyəcək. Rəqiblərinizə qarşı üzüyumşaqlıq nümayiş etdirməyin.

ŞİR - Fəaliyyət göstərdiyiniz müəssisələrdə təmkininizi qorumağa çalışın. Hətta haqsız addımların şahidi olsanız belə, cavab tədbirlərini sonraya saxlayın. Mübahisə sizə uğur gətirməyəcək.

QIZ - Kənar təsirlərə məruz qalacağınızı bildirən Göy qübbəsi özünüzü ələ almağı, şayiələrə uymamağı məsləhət görür. Zəif insanların inamından sui-istifadə etməyiniz böyük günahdır. Axşam qonaq gedin.

TƏRƏZİ - Təşəbbüskarlığı ələ ala bilsəniz, heç bir məyusluqla üzləşməyəcəksiniz. Özünüzü qürurlu aparın. Yeni əlaqələr karyeranızda böyük təkan yarada bilər. Xırdaçılığa meyl etməyin.

ƏQRƏB - "Özüm hər şeyi bilirəm" fikrinə aludə olmaqla ətrafda özünüzə qarşı ikrah oyada bilərsiniz. Bir qədər xoşrəftar olun. Təmasda olduğunuz şəxslərlə aranızda nəzakət tellərini artırın.

OXATAN - Planetiniz olan Yupiterin aktivlik nöqtəsinə çatması sizi bir neçə uğurlu hadisə ilə rastlaşdıracaq. Darıxdığınız adamlardan bir neçəsini görəcək, təzə xəbərlər eşidəcəksiniz.

OĞLAQ - Həddindən ziyadə uğurlu gündür. Göy qübbəsi qarşınıza bir neçə sürpriz çıxaracaq. Buna hazır olun. İştirakçısı olduğunuz bütün sövdələşmələr əhəmiyyətli olacaq. Axşam qonaqlıq gözlənilir.

SUTÖKƏN - Risk etmək olmaz. Əks təqdirdə bütün proseslər əleyhinizə işləyəcək. Xüsusən də pul və sənədləşdirmə məsələlərində ayıq-sayıqlığınızı artırın. Yalnız adi işlə məşğul olun.

BALIQLAR - Gecədən bəri Ayın bürcünüzdə olması fikirlərinizdə çaşqınlıq yarada bilər. Bunu anladığınız təqdirdə bütün ciddi işləri təxirə salmalısınız. Qida rejiminizə fikir verin. Uzaq yola çıxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evində pişik saxlayanların intihar təhlükəsi var



İngiltərədə aparılan bir araşdırmaya görə, ildə 350 min ingilis intihar riski ilə üz-üzə qalır. Araşdırma zamanı ev heyvanlarında meydana gələn və şizofreniyaya səbəb olan bir parazitin evdə yaşayanlarla kontakta girməsi üzə çıxıb. Haberturk.com saytının xəbərinə görə, evində pişik olan şəxslər intihar riski ilə üz-üzə qalır. Çünki pişik bu parazitə daha tez yoluxur. Həmçinin, toksoplazma qondii adlı parazitə görə ortaya çıxa biləcək psxoloji problemlər sırasında da yer alıb. Parazitlər təkcə pişikdən yox, yeyilən heyvan ətindən və tərəvəzlərdən də keçə bilir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.400